

## Karantin qaydaları yumşalır: "Mall"lar, kafe və restoranlar açılacaq"

*"Qalan 13 şəhər və rayonda yumşalma prosesləri başlanılıb. Yay fəsli nəzərə alınaraq qərara alınıb ki, insanlar çimərliklərdən istifadə edə bilərlər. Əsas məqamlardan biri də ondan ibarətdir ki, SMS icazə, icaze.e-gov.az portalı vasitəsilə tərk etmək sistemi ləğv olunduqdan sonra şəxslər sərbəst hərəkət edə bilirlər".*

Səh.3


# UNİKAL

№25 (2020) 8 avqust 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Oqtay Şirəliyevin postundan uzaqlaşdırılma tarixi...



Səh.12

## Cahangir Əsgərovun yüz milyonluq yeyintisi üzə çıxır

## Səhiyyə nazirinin vəzifədən azad edilməsi üçün yetərincə səbəblər var

*Bu yaxınlarda Səhiyyə Nazirliyinin fəaliyyəti ilə bağlı yeni nöqsanlar ortaya çıxdı. Üstəlik, bu nöqsanlar heç də sıradan qüsurlara bənzəmirdi, bəziləri yetərincə ciddi, cinayət tərkibli əməllərdi. Məsələn, Hesablama Palatasının 2020-ci ilin İş Planına əsasən 2018-2019-cu illərdə dövlət büdcəsindən Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi publik hüquqi şəxs üzrə aparılan auditin nəticələri haqqında məlumatdan belə məlum olurdu ki, adıçəkilən Mərkəz tərəfindən 2018-ci ildə Tarif (qiymət) Şurası tərəfindən dövlət qeydiyyatına alınmayan və qiymətləri tənzimlənməyən 21 adda 950,8 min manat, 2019-cu ildə isə 29 adda 1716,3 min manat dəyərində dərman vasitələri alınıb.*

Səh.5

## "Bizdə hər şeyi İlqar Məmmədov həll eləmir"



*ReAL Partiyası bir neçə gün öncə qurultay keçirib. Koronavirus pandemiyası ilə əlaqədar partiyanın qurultayı virtual şəkildə baş tutub. Partiyanın strukturları formalaşsa da, sədr seçkisi sonrakı mərhələyə qalıb. "Unikal" qəzetinə müsahibə verən ReAL Partiyanın Siyasi Komitəsinin üzvü Natiq Cəfərli...*

Səh.4

## "Neqativ hallara susmuram, hər zaman da sözümü deyirəm"



*"Moşuu, eqalogiya buduuur?", "Alo, 66-68-düü? Almaxanım sənsən?", "Qardaşımdan iraq səni görüm canından çəkəsən, gəlin" kimi sitatlarla hər zaman tamaşaçıların üzünü güldürən, evdar qadınların ən ideal obrazlarının ifaçısı məhz Xalq artisti Afaq Başirqızıdır. O, səhnəmizin Söylüsü, Suğrası...*

Səh.10

## Etibar Pirverdiyevin ailə biznesi batır...



*Bir zamanlar Azərbaycanın ən qüdrətli məmur-oliqarxlarından biri "Azərenerji" ASC-nin sabiq prezidenti Etibar Pirverdiyev sayılırdı. Pirverdiyev korrupsiya pulları hesabına qısa vaxtda özünə nəhəng binzes şəbəkəsi yaratmışdı. Sabiq "işıq şefi" məsul olduğu sahəyə ayrılan dövlət vəsaitlərinin...*

Səh.7

# İlham Əliyev serbiyalı həmkarı ilə telefonla danışdı



***Avqustun 7-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***

Unikal.org-un məlumatına görə, Aleksandr Vuçiç iyul ayında Ermənistan-Azərbaycan sərhədində Ermənistanın təxribatı nəticəsində baş vermiş hadisələr zamanı hərbi qulluqçularımızın həlak olması ilə əlaqədar başsağlığı verib. Eyni zamanda, Serbiya Prezidenti bu hərbi toqquşmalarda Ermənistan tərəfinin Serbiyada istehsal olunan silahlardan istifadə etməsindən təəssüf hissi keçirdiyini bildirib. O, bu vəziyyətin araşdırılması ilə bağlı yaxın vaxtlarda Azərbaycana Serbiyanın yüksəksəviyyəli nümayəndə heyətinin göndəriləcəyini qeyd edib. Aleksandr Vuçiç Azərbaycanla strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərini yüksək qiymətləndirdiyini vurğulayaraq bunun təsdiqi kimi, Azərbaycan Prezidentini Serbiyaya rəsmi səfərə dəvət edib.

Telefon zənginə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan tərəfinin Azərbaycanın hərbi və mülki mövqelərini atəşə tutması zamanı Serbiya istehsalı olan hərbi sursatlardan istifadə etməsi faktı Azərbaycan cəmiyyəti tərəfindən narahatlıqla qəbul edilib və bu atəşin nəticəsində hərbi qulluqçularımız və o cümlədən mülki şəxsimiz həlak olub.

Dövlətimizin başçısı Serbiya Prezidentinin yuxarıda göstərilən faktın araşdırılması və əməkdaşlığın perspektivlərinin müzakirə edilməsi üçün yüksəksəviyyəli nümayəndə heyətinin göndərilməsi barədə qərarı ilə bağlı məmnunluğunu ifadə edib.

Telefon söhbəti zamanı tərəflər gələcəkdə ölkələrimiz arasında dostluq əlaqələrinə kölgə sala biləcək hərəkətlərə yol verilməməsi barədə qərara gəliblər.

Prezident İlham Əliyev Serbiyaya səfər ilə əlaqədar dəvətə görə minnətdarlığını bildirib.

# Pensiyaların artırılması barədə rəsmi açıqlama

***Azərbaycanda pensiya alanların yaşayış minimumundan bir neçə dəfə artıq pensiya alması hədəflənir".***

Unikal.org xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev keçirdiyi mətbuat konfransında deyib.

Nazir bunun birbaşa əməhaqqı bazarından asılı olduğunu bildirib: "Əməkhaqları tam leqallaşmalı və burdan toplanan sosial sığorta haqları vətəndaşlara pensiya olaraq ödənilməlidir".

# "Azərkimya"da partlayış - 8 nəfər yaralandı

***SOCAR-ın "Azərikimya" İstehsalat Birliyinin Sumqayıt Etilen-polietilen zavodunda yanğın baş verib.***

Unikal.org Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, nazirliyin "112" qaynar telefon xəttinə Sumqayıt şəhəri, Səməd Vurğun küçəsində SOCAR-ın "Azərkimya" İB-nın Etilen-Polietilen zavodunda yanğın olması barədə məlumat daxil olub.

Nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri çağırış ünvanına cəlb olunub.

Sumqayıtda zavodda baş verən yanğın söndürülüb. Sumqayıt şəhəri, Səməd Vurğun küçəsində SOCAR-ın "Azərkimya" İB-nın Etilen-Polietilen zavodunda baş verən yanğın zamanı orada işləyənlər - 1987-ci il təvəllüdlü Əliyev Qadir Adil oğlu, 1986-cı il təvəllüdlü Qurbanov İlqar Ələmdar oğlu, 1965-ci il təvəllüdlü Hüseynov Nizami İlyas oğlu, 1981-ci il təvəllüdlü Cəlilov Murad Xasməmməd oğlu, 1973-cü il təvəllüdlü Tağıyev Mehman Tapdıq oğlu, 1983-cü il təvəllüdlü İbrahimov Yalçın bayram oğlu və 1988-ci il təvəllüdlü Hüseynov Xəyal Akif oğlu xəsarət alıblar.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Azərbaycanda yeni holdinq yaradıldı - Fərman

***Prezident İlham Əliyev Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmanda deyilir: "Azərbaycanda həyata keçirilən davamlı struktur islahatları iqtisadiyyatın səmərəliliyinin daha da artırılması məqsədlərinə xidmət edir. Bu istiqamətdə ölkədə institusional və tənzimləyici çərçivə təkmilləşdirilmiş, milli iqtisadiyyatın özəyi olan təsərrüfat strukturlarında idarəetmənin sağlam prinsiplər əsasında inkişafı və tam şəffaflaşması üçün möhkəm zəmin yaradılmışdır.

Sözügedən islahatlar biznes mühitinin xeyli yaxşılaşmasını şərtləndirmişdir. Həmçinin ölkədə sosial-iqtisadi infrastruktur inkişaf etmiş, yeni strateji mərhələnin çağırışlarına adekvat formada qurulan idarəetmənin çevikliyi artmışdır.

Ötən müddətdə struktur islahatlarının əhəmiyyətini nəzərə alaraq dövlət xidmətləri və məhsul istehsalı sferasının da qabaqcıl prinsiplər əsasında idarə olunmasına xüsusi önəm verilmişdir. Bu istiqamətdə ölkədə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, onların gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi üçün bir sıra işlər görülmüş, paylarının nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin idarə olunmasının təkmilləşdirilməsi məqsədilə mühüm islahatlar həyata keçirilmişdir.

Müasir dövrdə yalnız azad bazar münasibətlərinin hərtərəfli inkişafına, dayanıqlı özəl mülkiyyətin genişlənməsinə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafı sürətləndirmək mümkündür. Buna görə də dövlətə məxsus müəssisələrin idarə olunması sisteminin təkmilləşdirilməsi, fəaliyyətinin səmərəliliyinin və şəffaflığının artırılması, xərclərini və risklərini optimallaşdırmaq yolu ilə onların tam sağlamlaşdırılması istiqamətində struktur islahatlarının dərinləşdirilməsi tələb olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması məqsədilə qərara alıram:

1. "Azərbaycan İnvestisiya Holdinqi" publik hüquqi şəxs yaradılsın.

2. "Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

# İnam Kərimov onu Aparat rəhbəri təyin etdi

***Kənd Təsərrüfatı Nazirliyində yeni təyinat olub. Unikal.org-un əldə etdiyi məlumata görə, Rafail Quliyev Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri təyin edilib.***



O, buna qədər KTN-nin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri vəzifəsində çalışıb.

Qeyd edək ki, Rafail Quliyev 1967-ci ildə Biləsuvar rayonunda anadan olub. 1988-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Aqronomluq" fakültəsini bitirib. Uzun illər kənd təsərrüfatı sahəsində çalışıb.

2016-2018-ci illərdə Biləsuvar Kənd Təsərrüfatı İdarəsinin (Dövlət Aqrar İnkişaf Mərkəzi) rəisi olub. 2018-ci ilin sentyabrın 3-də Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2009-cu il tarixli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub.

Ailəlidir, 4 övladı var.

Kənd Təsərüffatı Nazirliyindən məlumatı təsdiqləyiblər.

***Nigar Orucova***

# Çimərliklər həftəsonu fəaliyyət göstərməyəcək? - RƏSMİ AÇIQLAMA

***Sosial şəbəkələrdə həftənin şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyət göstərmədiyi səbəb gətirilərək çimərliklərə girişin qadağan olunduğu ilə bağlı məlumat yayılıb.***

Məsələ ilə bağlı Unikal.org-a açıqlama verən Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildiriib ki, həftəsonu çimərliklərdən istifadəyə heç bir məhdudiyyət qoyulmayıb. Vətəndaşlar əvvəlki günlərdə olduğu kimi qaydalara əməl edərək çimərliklərdən istifadə edə bilərlər.

Qeyd edək ki, cimerlik.az saytında 100-dən çox çimərlik barədə məlumat yerləşdirilib. Çimərliyin doluluq səviyyəsi tam dolubsa, əlavə şəxs ora buraxılmayacaq. Çimərliklər səhər 8-dən axşam saat 21-dək fəaliyyət göstərəcək. Əgər çimərlik 500 nəfərlikdirsə, artıq 501-ci şəxs ora buraxılmayacaq.

***Famil Fərhadoğlu***

# Azərbaycanda koronavirusa yoluxma sayı 129-a düşdü- 4 nəfər vəfat etdi

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 129 yeni yoluxma faktı qeydə alınıb, 421 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

# XİN-dən Abxaziya və Cənubi Osetiya münaqişələri ilə bağlı açıqlama

***"Azərbaycan Abxaziya və Cənubi Osetiyadakı münaqişələrin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həllinə tərəfdardır".***

Unikal.org xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) rəsmi "Twitter" hesabında bildirib.

"Azərbaycan və Gürcüstan bir-birinin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınan sərhədlərin toxunulmazlığını dəstəkləyən strateji tərəfdaşdırlar. Azərbaycan Abxaziya və Cənubi Osetiyadakı münaqişələrin beynəlxalq hüquq normaları və prinsipləri əsasında razılaşdırılmış formatda sülh yolu ilə həllinə tərəfdardırlar", - deyə qeyd olunub.



# Karantin qaydaları yumşalır: "Mall"lar, kafe və restoranlar açılacaq"

***”Qalan 13 şəhər və rayonda yumşalma prosesləri başlanılıb. Yay fəsli nəzərə alınaraq qərara alınıb ki, insanlar çimərliklərdən istifadə edə bilərlər. Əsas məqamlardan biri də ondan ibarətdir ki, SMS icazə, icaze.e-gov.az portalı vasitəsilə tərk etmək sistemi ləğv olunduqdan sonra şəxslər sərbəst hərəkət edə bilirlər”.***

Unikal.org xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirdiyi müşavirədə Baş Nazir Əli Əsədov deyib.



O qeyd edib ki, növbəti yumşalma proseslərinə də hazırlıq gedir: ”Onu da məruzə etmək istəyirəm ki, vəziyyətin yaxşılaşma istiqamətində inkişaf etdiyini nəzərə alaraq, Operativ Qərargah yaxın zamanlarda bir sıra yumşalma proseslərinə də hazırlıq işləri görür. Bununla əlaqədar, bildirmək istəyirəm ki, insanlarımız maska və sosial izolyasiya rejiminə, sanitar-epidemioloji qaydalara hələ uzun müddət riayət etməlidir. O cümlədən həkimlərin və sanitar-epidemioloji qurumların tövsiyəsinə əsasən, açılmaqda olan obyektlərin fəaliyyəti üzrə bizim tərəfimizdən lazım olan bütün təlimatlar hazırlanıb. Buna nəzarət üçün xüsusi qruplar və qurumlar ayrılıb. Əhali və sahibkarlar da bilməlidir ki, həmin qaydalara çox ciddi şəkildə riayət olunmalıdır və buna xüsusi nəzarət ediləcək”.

Qeyd edək ki, ekspertlər növbəti yumuşaldılma mərhələsində ”mall”lar, kafe və restoranların açıla biləcəyini bidirirlər.

# Əli Əsədov Türkiyənin vitse-prezidentinə məktub göndərdi

***Azərbaycanın Baş Naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında Qurban bayramı münasibətilə təbrik məktubu mübadiləsi həyata keçirilib.***

Unikal.org xəbər verir ki, Baş Nazir Əli Əsədov məktubunda Türkiyənin Vitse-prezidenti və qardaş Türkiyə xalqını dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə təbrik edib. Baş Nazir Əli Əsədov Fuat Oktaya möhkəm cansağlığı, işlərində uğurlar, qardaş Türkiyə xalqına bol ruzi və xeyir-bərəkət arzulayıb.

Türkiyənin Vitse-prezidenti Fuat Oktay məktubunda Azərbaycan və Türkiyə xalqları arasındakı qardaşlıq tellərindən güc alaraq inkişaf edən ikitərəfli strateji əməkdaşlığın bütün sahələrdə daha da möhkəmləndirilməsi istiqamətində iki ölkənin hökumətləri arasında mövcud olan həmrəyliyi yüksək qiymətləndirib.



Vitse-prezident Fuat Oktay Türkiyənin qardaş Azərbaycanın öz ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək istiqamətində qətiyyətli mübarizəsini bundan sonra da dəstəkləyəcəyini deyib. “Bu məsələ ilə əlaqədar qərarlığımızı can Azərbaycana qarşı son günlərdə edilən hücumlar zamanı da dünyaya elan etdik”, - deyə Türkiyənin Vitse-prezidenti bildirib.

Vitse-prezident Fuat Oktay Baş Nazir Əli Əsədova möhkəm cansağlığı, xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına rifah və xoş günlər arzulayıb.

# “Maliyyə Nazirliyi zəmanət verəndə tələbləri sərtləşdirməlidir” – Deputat

***“Prezidentin söylədikləri haqlı iraddır. Söhbət tək AZAL-dan getmir. Düzdür, AZAL-la bağlı narazılıq, problem çoxdur. Amma ümumən dövlət şirkətləri ilə bağlı problemlər var. Bu məsələlərə Milli Məclisdə mütəmadi toxunmuşam”.***

Bu fikirləri Unikal.org-a açıqlamasında Milli Məclisin deputatı Vahid Əhmədov səsləndirib. O bildirib ki, dövlət şirkətləri dövlətin zəmanəti və vəsaiti hesabına işlərini qururlar, amma sonra həmin investisiya hər hansı formada büdcəyə qayıtmır:



“Onlar kreditlər götürür və həmin kreditlərə avadanlıqlar, müəyyən nələrsə alırlar və istifadə edirlər. Amma o avadanlıqların alınması dövlətin zəmanəti hesabına olur, çünki krediti götürə bilməsi üçün zəmanəti dövlət verir. Xərclənmə zamanı necə xərclənir, necə istifadə olunur, pul gəlir, ya gəlmir bu məsələlər artıq açıqdır. Bu səbəbdən də hesab edirəm ki, irad düzgündür. Dünən hardasa 6-7 şirkətin adı çəkilib. Hesab edirəm ki, o şirkətlərə nəzarət gücləndirilməlidir. Digər tərəfdən Maliyyə Nazirliyi kreditlə əlaqədar zəmanət verəndə tələbləri çox sərtləşdirməlidir. Ən vacibi götürülən kreditlər vaxtında qaytarılmalıdır, həm də ondan dövlət büdcəsinə müəyyən qədər gəlirlər gəlməlidir. Dövlət başçısı çıxışı zamanı yoxlamaların olacağını və bu məsələlərə yenidən baxılacağını bildirib. Biz istər qəbulunda, istərsə də icrasında dövlət büdcəsini müzakirə edəndə bu məsələlərə mütəmadi toxunuruq. Çünki dövlətin zəmanətini alan kreditlər vaxtında qaytarılmayanda bu dövlət borcunun artmasına və əlavə cərimələrin tətbiq edilməsinə səbəb olur. Əgər vəsaiti almısansa, o vəsaitləri istifadə edirsənsə, ordan dövlət büdcəsində əlavə gəlirlər gəlməlidir. Biri var sənə qanuna uyğun olaraq verilir, biri də var sənə əlavə vəsait verilir ki, avadanlıq, təyyarə və s. alasan. Ondan istifadə edirsənsə, deməli, səndən gələn gəlir artmalıdır. Yəni, dövlət hesabına kredit götürülüb, təyyarə alınıb, amma gəlir yoxdur. Bax, bunu səbəbi araşdırılmalıdır ”.

***Dürrə Həsənova***



# Bu qadağalar avqustun 10-dan ləğv olunur - RƏSMİ

***Nazirlər Kabineti yanında Operatriv Qərargah sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketini qəbul edib***

Qurumdan Unikal.org-a verilən məlumata görə, Covid-19 infeksiyasına yoluxmanın dinamikasında müsbət tendensiyanın müşahidə olunması və iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq Nazirlər Kabineti yanında Operativ Qərargah bəzi istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilməsi haqda qərar qəbul edib.

Nazirlər Kabinetin müvafiq Qərarına əsasən Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində 2020-ci ilin avqusutun 10-u saat 00.00-dan etibarən fəaliyyətinə icazə verilən sahələrin siyahısına aşağıdakılar əlavə edilir:

- Açıq havada idman yarışlarının və oyunlarının keçirilməsi;
- Qeyri-ərzaq mallarının satışını həyata keçirən ticarət obyektələrinin və əhaliyə məişət xidmətləri göstərən obyektlərin (iri ticarət mərkəzləri istisna olmaqla) fəaliyyəti;
- maşın və avadanlıqların istehsalı;
- elektrik avadanlıqlarının istehsalı;
- kompüter, elektron və optik məhsulların istehsalı;
- avtomobil, qoşqu və yarımqoşquların istehsalı;
- sair nəqliyyat vasitələrinin istehsalı;
- poliqrafiya məhsullarının istehsalı;
- zərgərlik məmulatlarının istehsalı;
- musiqi alətləri, idman mallarının istehsalı;
- geyim istehsalı;
- toxuculuq sənayesi;
- ayaqqabıların istehsalı;
- dəri və dəri məmulatlarının istehsalı;
- tütün məmulatlarının istehsalı;
- sair sənaye məhsullarının istehsalı.

Aşağıda qeyd olunan sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilən 50 faizlik və həmin iş və xidmət sahələri üzrə mülki-hüquqi müqavilə ilə işləyənlərə verilən icazələrin sayının əmək müqaviləsi ilə işləyənlərin ümumi sayının 30 faizindən çox olmaması ilə bağlı məhdudiyyətlər ləğv edilir:

- Gündəlik baxım və gigiyena vasitələrinin istehsalı;
- Tikinti və məişət avadanlıqlarının istehsalı və təmiri;
- Mühəndislik və layihələndirmə xidmətləri;
- Qablaşdırma məhsullarının istehsalı;
- Daş, metal və taxta məhsullarının istehsalı;
- Mebel istehsalı və təmiri;
- Zoomağazalar, o cümlədən heyvanlar üçün yem satış məntəqələri;
- Tikinti materiallarının və məişət xırdavatlarının satışı məntəqələri;
- Onlayn satışlar;
- Kimyəvi təmizləmə;
- Mənzillər istisna olmaqla, yaşayış binalarının təmizlənməsi;
- Avtomobillərin təmiri;
- Avtomobil yuyulma məntəqələri;
- Heyvan sığınacaqları;
- Tərcümə xidmətləri.

Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisinə aşağıdakı şəxslərin giriş-çıxış məsələsi aşağıdakı qaydada həyata keçirilir:

- Yaxın qohumunun dəfnində iştirak etmək istəyən şəxslər Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə alınan icazə əsasında;
- Təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar həkim tərəfindən verilən arayış əsasında;
- Beynəlxalq və ölkədaxili uçuşlara müvafiq reys üçün bileti olan şəxslər biletləri əsasında, dövlət sərhədindən müvafiq qaydada ölkəyə daxil olan şəxslərin yaşadıqları və ya olduqları yerə gəlməsinə isə onların pasportuna vurulmuş ştamp əsasında.

Operativ Qərargah vətəndaşlara müraciət edərək bildirir ki, infeksiyanın yayılmasının qarşısının alınması tədbirləri ilə iqtisadi fəaliyyəti sinxronlaşdırmaq üçün sanitar-epidemioloji tələblərə ciddi əməl edilməlidir. Sanitar-epidemioloji tələblərə əməl edilməsi iqtisadi fəaliyyəti davam etdirməyin və daha da genişləndirməyin yeganə üsuludur.

# “Bizdə hər şeyi İlqar Məmmədov həll eləmir”

## Natiq Cəfərli: “Azərbaycanda partiyalar uzun illər şəxslər ətrafında qurulub, hamı həmin şəxsin ağzına baxıb”

***ReAL Partiyası bir neçə gün öncə qurultay keçirib. Koronavirus pandemiyası ilə əlaqədar partiyanın qurultayı virtual şəkildə baş tutub. Partiyanın strukturları formalaşsa da, sədr seçkisi sonrakı mərhələyə qalıb.***

“Unikal” qəzetinə müsahibə verən ReAL Partiyanın Siyasi Komitəsinin üzvü Natiq Cəfərli qurultay və sonrakı dönəmlə bağlı fikirlərini bölüşüb.

***-Natiq bəy, artıq qurultayınızı keçirdiniz, öncə partiyanızın ali tədbiri ilə bağlı fikirlərinizi bölüşərdiniz.***

-Biz təsis qurultayını çoxdan keçirməyi planlaşdırırdıq. Ötən ilin dekabrın 16-da qurultay keçirmək üçün müraciət etmişdik. Təəssüf ki, o zaman Bakı Şəhər İcra Hakimiyyəti yer ayırmadı. Sonra isə növbədənkənar parlament seçiləri oldu. 31 namizədlə seçkiyə qoşulduq deyə, qurultay arxa plana keçdi. Dünyanı əhatə edən bu bəla Azərbaycana da təsir etdi, karantin rejimi elan olundu. Uzun zaman bu karantin rejiminin davam edəcəyini və bir yerə toplanmanın mümkün olmadığını düşünərək qurultayı virtual şəkildə keçirmək qərarına gəldik. Bununla bağlı Ədliyyə Nazirliyinə müraciət etdik, etiraz edilmədi, biz də tədbirimiz keçirdik. Regional məclislərdən seçilmiş və təşkilat komitəsi tərəfindən təklif olunmuş 108 qurultay nümayəndəsi ilə tədbir keçirməyi qərar verdik. 98 nəfərlə qurultayımızı keçirdik, 4 saatdan artıq davam elədi. Ciddi fikir mübadiləsi oldu, partiyanın təsisinə qərar verildi, nizamnaməsi və proqramı qəbul edildi, rəmzlər təsdiqləndi. Sonra partiyanın nəzarət və idarəetmə orqanlarına seçkilər baş tutdu. Siyasi komitəyə 6 nəfər üzv seçildi. Eyni zamanda, Siyasi Komitənin gələcəkdə tanınmış, nüfuzlu adamları dəvət etməyinə səlahiyyət verildi.

***-Maraqlıdır ki, qurultay partiyaya sədr seçmədi...***

-Siyasi Komitənin ilk iclasında sədr seçiləcək. Biz özümüz bilərəkdən bu müddəaları nizamnaməyə saldıq ki, daha çox kollegial idarəetmə olsun. Əvvəlki nizamnamədə sədrin çox böyük səlahiyyətləri var idi. İndi səlahiyyətlər daraldıldı. Bundan sonra Siyasi Komitə istənilən an sədri rəhbərlikdən kənarlaşdıra bilər. Beş nəfərdən ibarət nəzarət təftiş komissiyası da seçildi. Bütün qurultay nümayəndələri növbəli şəkildə NTK-da təmsil olunacaqlar. Üç aydan bir komissiya üzvləri dəyişdiriləcək. Beləliklə, bütün nümayəndələr növbəti qurultaya qədər təmsilçilik hüququ qazanacaqlar.

***-Sizcə, sədri daha çox nümayəndəsi olan qurultayın seçməsi azsaylı Siyasi Komitənin seçməsindən daha məntiqli olmazdımı?***

-Siyasi Komitəni qurultay seçib. Bilirsiniz, sədr qurultayda seçiləndə daha yüksək səlahiyyətlərə malik olur və İdarə Heyəti qarşısında hesabatlılığı azalır. Belə ki, ”məni qurultay seçib, hesabatı da qurultaya verəcəyəm” deyə bilər. Qurultay da dörd ildən bir olacaq. Biz istədik ki, həm sədr, həm İdarə Heyəti hesabatlı olsun. Yeni sistemin tətbiqi hesabatlılığın artırılması və kollegial qərarların verilməsinə imkan yaradacaq.

***-Sədrin alternativsiz seçilməsi ReAL Partiyası daxilində demokratiyanı kölgə altına almır ki?***

-Mən əksini düşünürəm. Siyasi Komitənin istənilən üzvü sədrlik üçün öz namizədliyini irəli sürə bilər. Səsvermədə kim daha çox səs alarsa, o da seçiləcək. Ən vacibi odur ki, Siyasi Komitə hər hansı səhvi olarsa, istənilən an qurultay çağırılmadan sədrin istefasını tələb edə bilər. Bu mənada hesab edirəm ki, yeni qayda daha demokratikdir. Azərbaycanda partiyalar uzun illər şəxslər ətrafında qurulub, ideoloji platforma, kollegial idarəetmə olmadan, fəaliyyət göstərmədən həmin şəxsin ağzına baxıb. Partiyaların taleyi sədrin iki dodağının arasında olub, bu gün də elədir. Amma ilk dəfədir bir kollegial orqan meydana çıxır ki, sədr sadəcə qərarların icra mexanizminə nəzarət funksiyasını yerinə yetirir və məsuliyyətini daşıyır. Eyni zamanda, Siyasi Komitə tərəfindən daim nəzarət olunmaya açıq olacaq. Digər tərəfdən, ən azı ayda iki dəfə Siyasi Komitənin qarşısında hesabatlı olacaq.

***-Sədrə nəzarət edəcək şəxslər bəllidir. Sədrə münasibət, onun istəklərinin gerçəkləşməsinin Siyasi Komitədəki bir neçə nəfərin maraqları çərçivəsində olmayacağını nə ilə əsaslandırarsınız? Yəni, Natiq Cəfərli, Erkin Qədirli, İlqar Məmmədov nə istəyəcək, o da olacaq, yoxsa başqa cür olacaq?***

-Siz bizim hər zaman eyni fikirdə olduğumuz qənaətindəsiniz. Amma bu, belə deyil. Bizim daxili toplantılarımız çox hərarətli keçir. Təbii ki, qarşılıqlı güzəştlərlə konsensusa gəlirik. Hər kəs öz fikrini arqumentlərlə irəli sürür. Bu o demək deyil, mənim bütün dediklərimi hər kəs təsdiqləyir, yaxud da İlqar Məmmədovun dediklərini. Elə deyil. Bütün qərarlar səs çoxluğu ilə qəbul olunur. Bir də bizim keçmiş yaddaşımız da var. Məsələn, İlqar 5 il 8 ay həbsdə olub. Bu müddət ərzində sədr olaraq, həbsdən göndərdiyi 5 təklifdən üçü keçmişdi. 2013-cü ildə biz Milli Şura ilə danışıqlar aparırdıq. O zaman İlqar məlumatsız idi, ətrafla görüşmək imkanı yox idi. Həmin dövrdə Milli Şurada təmsilçiliyin ReAL-a lazım olduğunu düşünürdü, bununla bağlı müraciət də eləmişdi. Amma səsvermədən keçmədi və biz Milli Şuraya daxil olmaqdan imtina elədik. Bu gün də ən doğru qərarı verdiyimizi düşünürük. Əgər hər şeyi İlqar həll eləsəydi, o vaxt səsvermə olmazdı, biz də Milli Şuraya daxil olardıq. Bu gün də bütün qərarlar kollegial qaydada verilir. Yəni, ReAL-da hər şeyi İlqar Məmmədov həll eləmir. Onu da qeyd edim ki, Siyasi Komitə getdikcə genişlənəcək.

***-Natiq bəy, bundan sonra ReAL həm iqtidarla, həm müxalifətlə münasibətlərin tənzimlənməsində hansi istiqamətdə fəaliyyətini quracaq?***



-Biz ilk dəfə ilin əvvəlində hökumət tərəfindən gələn siyasi dialoq təklifinə razılıq verdik. Bunu doğru hesab edirik, çünki siyasətçilərin işi danışmaqdır. İndiyə qədər dəfələrlə görüşlərimiz olub. Bu görüşlərdə beynəlxalq münasibətlərdən tutmuş, daxili problemlərə qədər bir çox məsələləri müzakirə eləmişik. İctimai maraqlara uyğun olaraq, bir çox məsələləri qaldırmışıq. QHT-lərin qeydiyyatının sadələşdirilməsi ilə bağlı məsələ qaldırdıq, nəzərə alındı, müəyyən addımlar atıldı. Bundan başqa, media azadlığı ilə bağlı İctimai televiziyada təkliflər səsləndirmişik. Bu yöndə də müəyyən addımlar atıldı. Bizim partiyanın nümayəndəsi verilişlərə qatılır, fikirlərini bildirir. Təbii ki, bunlar yetərli deyil. Canlı verilişlər olmalıdır, diskussiyaların olması daha önəmlidir. Biz iqtidarla müxalifətin düşmən yox, rəqib olduğuna inanan təşkilatıq. Bu rəqabət dəyərlərdən, tezislərdən, proqram sənədlərindən, təkliflərdən seçilir. Bu rəqabət sonuc etibarı ilə seçkilərdə də öz əksini tapmalıdır.

***-Bəs müxalifət partiyaları ilə necə?***

-Bizim müxalifət partiyalarına da qapımız açıqdır. Kimin ideoloji baxışları üst-üstə düşürsə, bütün siyasi müxalif partiyalarla əməkdaşlığa hazırıq. Müsavat Partiyası ilə təmaslarımız oldu, əsasən də 9 fevral seçkiləri ilə bağlı müəyyən addımlar atdıq. Əsas məsələ prinsip, dəyərdir . Biz prinsip və dəyərlərimizə sadiqik, öz kursumuza uyğun fəaliyyət göstəririk.

***Z.Məmmədli***

# Oqtay Şirəliyevin postundan uzaqlaşdırılma tarixi...

## Səhiyyə nazirinin vəzifədən azad edilməsi üçün yetərincə səbəblər var

***Bu yaxınlarda Səhiyyə Nazirliyinin fəaliyyəti ilə bağlı yeni nöqsanlar ortaya çıxdı. Üstəlik, bu nöqsanlar heç də sıradan qüsurlara bənzəmirdi, bəziləri yetərincə ciddi, cinayət tərkibli əməllərdi.***

Məsələn, Hesablama Palatasının 2020-ci ilin İş Planına əsasən 2018-2019-cu illərdə dövlət büdcəsindən Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi publik hüquqi şəxs üzrə aparılan auditin nəticələri haqqında məlumatdan belə məlum olurdu ki, adıçəkilən Mərkəz tərəfindən 2018-ci ildə Tarif (qiymət) Şurası tərəfindən dövlət qeydiyyatına alınmayan və qiymətləri tənzimlənməyən 21 adda 950,8 min manat, 2019-cu ildə isə 29 adda 1716,3 min manat dəyərində dərman vasitələri alınıb.

Qeyd olunub ki, aparılan audit nəticəsində 2018-ci ildə mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının hazırlanması prosesində aşkar edilən nöqsanlar, 2019-cu ilin maliyyə hesabatlarının hazırlanması zamanı görülən tədbirlər nəticəsində aradan qaldırılıb, müqavilə şərtlərinə uyğun olaraq malların təchizatı üzrə gecikdirilən günlər üçün hesablanan 457,4 min manat məbləğində cərimənin büdcəyə ödənilməsi təmin edilib.

Və ya başqa bir fakt: Hesablama Palatasının 2020-ci ilin İş Planına əsasən 2018-2019-cu illərdə dövlət büdcəsindən ayrılan vəsaitlərin Mərkəz tərəfindən icrası vəziyyətinə dair uyğunluq auditi aparılıb, audit nəticəsində əsasən aşağıdakı nəticələr müəyyən edilib:

Mərkəz tərəfindən 2018-2019-cu illər üçün proqnoz layihələri tərtib edilərkən ümumi təyinatlı, o cümlədən Proqram və tədbirlər üzrə dərman vasitələrinin alınması üçün zəruri büdcə vəsaitinin proqnozlaşdırılması zamanı bir xəstəyə düşən xərc məbləği üzrə normativlər tətbiq olunmayıb. Hər ilin sonuna anbarda mövcud olan dərman qalığı nəzərə alınmayıb, tibb müəssisələrindən müvafiq sifarişlər tələb edilməyib.

Qeydiyyatda olan xəstələrin sayının və tibb müəssisələrində icra olunan çarpayı günlərinin, habelə aparılmış müayinələrin sayının dəyişməsi üzrə məlumatların təhlili tam həyata keçirilməyib, bir çarpayı gününə və ya bir xəstənin müalicəsinə düşən dərman vasitələrinə, müayinələrin aparılması üçün laboratoriya reaktivlərinə və şüa diaqnostika materiallarına, peyvəndlərə, tibbi təyinatlı vasitələrə tələbatlar tam nəzərə alınmayıb və nəticədə bəzi tədbirlər proqramları üzrə ayrılmış vəsaitin az olması səbəbindən ümumi təyinatlı dərman vasitələrinin alınmasına ayrılmış mərkəzləşdirilmiş vəsait hesabına dərman vasitələri alınıb.

Auditlə əhatə olunan illərdə "2016-2020-ci illər üçün Hemofiliya xəstələri üzrə Tədbirlər Proqramı", "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı", "2016-2020-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı", "2016-2020-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı", "2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" və "2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı" üzrə nəzərdə tutulmuş bəzi tədbirlərin müəyyən olunmuş müddətdə icrası təmin edilməyib, eləcə də alınmış dərman vasitələrinin bölüşdürülməsi zamanı mövcud normativlərin tələblərinə əməl olunmaması, səhiyyə müəssisələri üzrə çarpayı günlərinin icrasının nəzərə alınmaması nəticəsində 1 xəstəyə düşən xərclər əhəmiyyətli dərəcə də fərqli olub.

Auditlə əhatə olunan dövrdə dərman vasitələrinin alınması zamanı bağlanılmış müqavilələrin xüsusi şərtlərinə tam nəzarət edilməyib, 2019-cu ildə bağlanılmış müqavilələrdə alınacaq dərman vasitələrinin yararlıq müddəti əsas göstərilmədən endirilib.



2018-2019-cu illərdə təchizatçılar tərəfindən bəzi hallarda bağlanmış müqavilələrdə yararlılıq müddəti ilə bağlı şərtlərə uyğun dərman preparatları və tibbi təynatlı vasitələr təhvil verilməyib, 2019-cu ilin sonuna isə anbarda qalan 4773,9 min manat məbləğində dərman preparatlarının və tibbi təyinatlı vasitələrin yararlıq müddəti 7,0%-53,0% arasında olub.

Həmçinin 2018-ci ildə 1 272,2 min manat, 2019-cu ildə isə 309,1 min manat dəyərində dərman vasitələrinin istifadə təlimatları azərbaycan dilinə tərcümə olunmayıb, dərman preparatları və tibbi təyinatlı vasitələrin alınması ilə bağlı bağlanılmış müqavilələr üzrə öhdəliklərin icraçı müəssisələr tərəfindən vaxtında icra edilməməsinə görə müqavilə şərtlərinə uyğun olaraq malların təchizatı üzrə gecikdirilmiş günlər üçün cərimə məbləğinin hesablanması və alınması təmin edilməyib.

Eyni zamanda, 2018-ci ildə müqavilə öhdəliklərinin vaxtında yerinə yetirilməməsi səbəbindən bağlanılmış müqavilələrin icra müddəti uzadılıb və dərman vasitələri müəyyən olunmuş müddətlərdə alınaraq tibb müəssisələrinə çatdırılmayıb.

Göründüyü kimi, Hesablama Palatasının ortaya çıxardığı nöqsanlar heç də sıradan deyil, elə bu səbəbdən də açığı, KİV-in diqqətindən kənarda qalması bir az təəccüblüdür. Belə aydın olur ki, Oqtay Şirəliyevin rəhbərlik etdiyi nazirlikdə şəffaflıq, hesabatlılıq hələ də ciddi problem olaraq qalır, dövlət vəsaitləri bir çox hallarda təyinatsız xərclənir, bəzən kimlərinsə gizli maraqlarının "qurbanına" çevrilir. Bir sözlə, yuxarıda sadalanan səbəblər belə Şirəliyevlə bağlı çoxdankı gözləntinin - nazir vəzifəsindən kənarlaşdırılmasının reallaşması üçün yetərlidir. Ancaq Oqtay müəllim hansısa şəkildə postunu qorumağı bacarır. Bir müddətdir ictimaiyyət və media tərəfindən ən çox tənqid edilən nazirə çevrilən Şirəliyevin rəhbərliyi altında ölkənin səhiyyə sisteminin irəli getmək şansının qalmadığı açıq ortadadır. Xüsusilə sürətlənən islahatlar və kadr dəyişiklikləri fonunda artıq Səhiyyə Nazirliyinin də gənc kadrlara həvalə edilməsi zəruri bir gerçəkliyə çevrilib. Ölkənin ən strateji sahələrinin - xarici siyasət idarəsinin, yaxud təhsil sektorunun rəhbərliyinə bu cür kadrlar gətirilirsə, eyni tendensiyanın səhiyyəmizlə bağlı da müşahidə edilməsi arzuolunandır.

Onu da deyək ki, yola saldığımız həftə, avqustun 2-də Oqtay müəllimin 70 yaşı tamam olur. İstisna deyildi ki, o, bu münasibətlə ali dövlət mükafatlarından birinə layiq görüləcək və vəzifəsi ilə vidalaşacaq. Ötən illərdə bir çox qocaman məmurla bağlı oxşar təcrübənin şahidi olmuşduq. Şirəliyevin də 70 yaşının tamamında təşəkkür edilərək, mükafatlandırılaraq görəvdən kənarlaşdırılması gözlənilən idi. Bu bəlkə də ona "yubiley sürprizi" olacaqdı, lakin cəmiyyətdə qətiyyən gözlənilməz qarşılanmayacaqdı. Çünki əvvəl də vurğuladığımız kimi: Səhiyyə Nazirliyinin yeni "qan"a, dəyişikliyə ehtiyac duyması mütləq reallıq və zərurətdir.

Ancaq Şirəliyev 70 yaşının tamamında təqaüdə yola salınmadı. Bəzi ekspertlərin fikrincə, bunun səbəbi var: koronavirus pandemiyası ilə bağlı arzuedilməz vəziyyət hələ ki qalır. İstisna edilmir ki, məhz bu səbəbdən Səhiyyə nazirinin dəyişdirilməsi hələlik məqbul sayılmır. Lakin pandemiya kifayət qədər zəifləsaid sonra sözügedən dəyişikliyin baş verməsi qaçılmaz görünür.

***Orxan Həsənli***



## Millət vəkili: "Dövlət şirkətləri dövlətin büdcəsini talamaq üçün növbəyə durub"

***"Dünən Prezidentin keçirdiyi müşavirədə səsləndirdiyi iradlar və çəkdiyi adlar ürəyimə su səpdi".***

Bunu Milli Məclisin iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılan "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı deputat Razi Nurullayev deyib.

O bildirib ki, vəzifəsini düzgün idarə etməyənlər kreslosunu boşaltmalıdırlar: "Neft Şirkətinin vəzifəsi neftdən qazanılan pulları xalqın rifahı üçün xərcləməkdir. Neft şirkətinin nə deputatları, nə də xalqın nümayəndələrini ağ və qara dəriliyə bölməyə ixtiyarı yoxdur. İmişlinin 10 kəndi qazlaşmayıb, camaat çıxıb yolu da bağlayır, vecinə alan yoxdur. Məgər on il ərzində bir-iki kəndi qazlaşdırmağı plana salmaq olmazdı? Olardı. Amma, sərf etmir. Çünki, bütün məsələlərə hesab və kitabla baxılır və bu hesab-kitabın adı əyri yollar, əyri işlər və ziqzaqlı korrupsiya piramidasıdır. Hörmətli Rövnəq müəllim heç telefonu qaldırmır. Nəticəsi isə artıq görünür ki, çox ağır olacaq".

Deputat Azərbaycan vətəndaşlarının təyyarə ilə xaricə Gürcüstandan uçmasına da irad bildirib: "Vətəndaşlarımız Azərbaycan dövlətinin, yəni Azərbaycan xalqının pulu ilə alınan təyyarələrlə niyə uçmamalıdır? Nədirnədir, təyyarələr bahalıdır, təmizdir, yeyib-içmək verirlər və sairə. Cahangir müəllim, bu xalq çirkli təyyarədə də uçar, evindən apardığı yeməkləri yeyər, narahat kresloda da oturar. Guya 2-3 saat rahat kresloda otursa, həyatı dəyişəcək? Həyatı dəyişənlər sizsiniz. Dövlətin büdcəsi ilə özünüzə biznes qurmusunuz və dövlətin şirkətlərini də şəxsi firmanız kimi idarə edirsiniz. Bu biabırçılıqdır. Dövlət şirkətləri dövlətin büdcəsini talamaq üçün növbəyə durub. Siz pul qazanıb kreditlərinizi ödəməlisiniz, hələ dövlətə vergi də verməlisiniz. Qiymətlər göyün yeddinci qatında, hər kəs də digər aviaşirkətlərlə uçur və elə hallar olub ki, siz təyyarədə 2-3 nəfərlə ancaq elə özünüz uçmusunuz. Kimin pulu ilə? Cavab verin".

Deputat nəzərə çatdırıb ki, "Azərsu", "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti ilə bağlı da iradlarını bir neçə gün sonra səsləndirəcək:

"Vaxt azdır, amma bəzi sənədləri əldə etmək istəyirəm və mütləq o sənədləri əldə edib, canlı yayımda nümayiş etdirəcəm".



## Tovuz döyüşlərində komaya düşən əsgərimizdən xəbər var

***Tovuzda gedən döyüşlərdə ağır yaralanıb, komaya düşən əsgərimiz Zeynalov Məhəddindən sevindirici xəbər var.***

Əsgər 24 günlük komadan sonra ayılıb.

Qeyd edək ki, Məhəddin ailəsi ilə bərabər Rusiyada yaşayıb. O hərbi xidmət keçmək üçün Azərbaycana gəlib və Tovuz döyüşlərində ağır yaralanıb.

## Nazir: "13 şəhər və rayon üzrə 190 manat yaxın günlərdə veriləcək"

***"Sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 13 şəhər və rayon üzrə 190 manat birdəfəlik ödəmələrin verilməsi yaxın günlərdə təmin ediləcək".***

"Unikal"ın məlumatına görə, bunu məşğulluq və sosial rifaha dəstək tədbirləri ilə bağlı mətbuat konfransında Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib.

O bildirib ki, Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərləri və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonları üzrə işsiz və xüsusi karantin rejimində işini itirən qeyri-formal işləyən aztəminatlı şəxslərdən ibarət 278 min nəfəri əhatə edəcək bu ödəmələr üçün 53 milyon manat sərf ediləcək:

"Əlbəttə, təkrar yoxlamadan sonra bu ödənişlər olunacaq. Ola bilər ki, kimsə sahibkarlıq fəaliyyətinə başlayıb, əmək müqaviləsi imzalayıb. Bunlar hamısı araşdırılacaq. Bununla da COVİD-19 dövründə yalnız birdəfəlik ödəmə proqramı üzrə yönəldilmiş vəsaitin ümumi həcmi 333 milyon manata çatacaq".

Nazir bildirib ki, təqribən 5 milyona yaxın insan geniş sosial paketlə əhatə edilib. Onun sözlərinə görə, dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır".

"Təkcə pensiya, müavinət, təqaüd və ünvanlı sosial yardımlar üzrə bu ilin 7 ayında 2,3 milyondan çox şəxsə 3,3 mlrd. manata yaxın vəsait ödənilib. Bu da ötən ilin eyni dövrünə nisbətən təqribən 30 faiz çox olmaqla 719 milyon manat çoxdur. Sosial təminat sistemi ilə əhatə olunanların da sayı 130-150 min nəfər artıb".

## "İş yerləri təkrar açılacaq" - Sahil Babayev



***"Yaxın günlərdə iş yerlərinin təkrar fəaliyyətə başlaması nəzərdə tutulur".***

Unikal.org-un verdiyi xəbərə görə, bu sözləri Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib.

O qeyd edib ki, qapanma iyunun 20-dən başlamışdı, avqustun 5-dən isə icazə mexanizmi ləğv edilib: "Kimlərinsə aztəminatlı kateqoriyasından çıxması, bəzilərinin işlə təmin olunması nəzərə alaraq yeni hesablanma aparılacaq və yekunda dördüncü ödənişdə nə qədər insanın yardım alması açıqlanacaq".

# Misir Mərdanovun təhsilimizə yadigar qoyub getdiyi ağır problemlər...

## Aradan illər keçib, ancaq onların bir çoxu hələ də öz həllini gözləyir; yeni nazirdən nə umuruq?

***Bu yaxınlarda Azərbaycanda Təhsil naziri təyinatı gerçəkləşdi. Belə ki, Emin Əmrullayev bu posta təyinat aldı. O, 2016-cı ilin aprelindən Təhsil Problemləri İnstitutunun (TPİ) direktorunun səlahiyyətlərini icarə edirdi. Həmçinin, bu günə qədər nazirliyin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri vəzifəsində çalışıb.***

1998-ci ildən 2013-cü ilədək Təhsil naziri işləyən Misir Mərdanov vəzifədən kənarlaşdırıldıqdan sonra həmin posta öncə hazırda İqtisadiyyat naziri olan Mikayıl Cabbarov, ardınca da Ceyhun Bayramov gətirildi. Bayramovun ötən həftə Xarici İşlər naziri təyin edilməsindən sonra bu həftə ondan boşalan Təhsil naziri vəzifəsinə Emin Əmirullayev gətirildi. Beləliklə, bu, təhsil sahəsində "Mərdanov erası"nın bitməsindən keçən 7 ildə üçüncü nazir dəyişikliyidir.

Misir müəllimin vəzifədə olduğu dövrdə Azərbaycanın təhsil sektorunda çoxsaylı problemlər yığılıb qalmışdı. Bu sahədə rüşvət və korrupsiya at oynatmış, məktəblər, universitetlər bilik ocağından çox yeyinti, qanunsuz qazanc yuvasına çevrilmişdi. Aradan keçən müddətdə təhsil sahəsində müəyyən pozitiv addımlar atılsa da, bir çox köklü problemlər qalmaqda və öz həllini gözləməkdədir. Mərdanovun nazir postunu tutduğu 15 illik dövrün acı yadigarları olan həmin problemlər qaldığı müddətcə sözügedən sektorda ciddi dəyişikliklərdən və həlledici uğurlardan danışmaq xeyli çətin görünür.

Elə ekspertlər də inanmaq istəyirlər ki, E.Əmirullayev Mərdanovun təhsil sahəsində buraxdığı "qara izləri" silməyi bacaracaq. Açığı, ümumilikdə cəmiyyətin gözləntisi də bu yöndədir. Həmin gözləntinin özünü doğruldub-doğrultmayacağın isə zaman göstərəcək.

Bəs yeni təhsil naziri ictimaiyyətin ümidlərini puça çıxarmamaq üçün nə etməlidir.

"İnanıram ki, onun fəaliyyətini kabinetdə yox, birbaşa təhsilin olduğu orta məktəblərdə, siniflərdə, ali təhsil müəssisələrində, auditoriyalarda görəcəyik" - təhsil eksperti Kamran Əsədov yeni təyin edilən Təhsil naziri Emin Əmrullayevdən gözləntilərini şərh edərkən belə deyib. Ekspertin fikrincə, bu, problemləri elə yerindəcə görmək üçün önəmlidir.

Əsədov da bu fikirdədir ki, Azərbaycan təhsili 2014-cü ildən yeni bir yola qədəm qoyub. Bundan sonra da 2014-cü ildən təhsildə başlanmış islahatların, həyata keçrilən layihələrin nəticələnməsi üçün həmin komandanın qalması vacibdir. Sitat: "Bundan başqa, ən vacib nüans odur ki, Mikayıl Cabbarovun komandası ilə başlayan və sonra Ceyhun Bayramovun komandası ilə davam edən nazirlik səviyyəsində rüşvətin, korrupsiyanın kökünün kəsilməsi prinsipləri davam etməlidir. Yüksək səviyyədə belə hallara rast gəlmək son 6 ildə mümkün deyildi. Bu müddətdə təhsil sistemində ciddi islahatlar həyata keçirilib, qanunvericilik bazası təkmilləşib, kadr islahatları aparılıb. Onların həll etmədiyi bir sıra problemlər qalmaqdadır".

Ekspert əlavə edib ki, yeni nazirdən təhsildə forma yox, məzmun dəyişikliyinin həyata keçirilməsini, təhsildə baş verən hadisələrə daha çevik reaksiya verilməsini gözləyir. Eyni zamanda, dərslik sahəsində ciddi işlərin görülməli olduğu qənaətindədir. Sitat: "Dərsliklərin şagirdlərin yaş xüsusiyyətinə və psixologiyasına uyğun olmadığı ortadadır. Yeni dərslik mərkəzi yaradılmalıdır. Ali təhsil müəssisələrimiz dünya reytinqində yoxdur. Azərbaycana xarici ölkələrdən gələn tələbə sayı azdır. Həm bu, həm də müəllimlərin sosial vəziyyətinin yaxşılaşması istiqamətində addımlar atılmalıdır... atılmalıdır. Bölgələrə müəllimlərin işləməyə getməsi üçün stimullaşdırıcı tədbirlərin əhatə dairəsi genişlənməlidir. Müəllimlərin, direktorların, direktor müavinlərinin işə qəbulu prosesində ciddi dəyişikliklərə ehtiyac var... Elektron məktəb, elektron universitet layihələri həyata keçirilməlidir. Nəticələri illərdir yaxşı olmayan məktəblərin bütün kollektivi xüsusi attestasiyadan keçirilməli, lazım olarsa, yerləri dəyişdirilməlidir. Bundan başqa, təhsil sistemi üçün yad olan bir troll ordusu formaşlaşıb. Hansısa çatışmazlıq, neqativ hal və ya tənqid olan kimi həmin troll ordusu feyk profillər ilə hücuma keçir. İnanıram ki, yeni nazir belə ucuz və lazımsız məsələlərdən uzaq duracaq".



Ümumiyyətlə, ekspertlərin fikrincə, yeni təhsil nazirinin qarşısında Mərdanovun nazir olduğu uzun müddət ərzində yığılan problemlərin - rüşvət və korrupsiyanın, orta məktəblərdə qanunsuz pul yığımlarının qarşısı biryolluq alınmalı, saxta diplomla işə qəbul edilən müəllimlərlə bağlı məsələ kökündən həll edilməli, nazir, onun müavinləri və əməkdaşları məktəblərə mütəmadi olaraq gedib real vəziyyəti siniflərdə, auditoriyalarda görməli, təhsili kabinetdən idarə etmək vərdişini tərgitməli, artıq ölkədə bir dənə belə qəzalı, köhnə, müasir tələblərdən uzaq məktəbin qalmamasına çalışmalıdırlar.

Misir Mərdanov vəzifəsindən kənarlaşdırılarkən cəmiyyət bunu sevinclə qarşılamış, təhsil ekspertləri isə yeni dövrlə bağlı fikirlərini belə ümumiləşdirmişdilər: "Geriləyən Azərbaycan təhsilində bir nəfərin yerini dəyişməsi məsələni həll etmir. Təhsil sistemi elə dəyişməlidir ki, o, bərbad vəziyyətdən qurtula bilsin. Əks halda, bir nəfərin dəyişməsi təhsildə hər hansı inkişaf tendensiyasına ümid vermir. Çünki Azərbaycan təhsilində şəffaflıq bərqərar olmalıdır, müasir standartların tətbiqi sözdə yox, əməldə görünməlidir, təhsilə sovet yanaşması dəyişməli, müəllim adının hörməti, nüfuzu özünə qaytarılmalıdır...".

Açığı post-Mərdanov dövründə bu hədəflərə çatdığımızı deyə bilmərik. Açıq demək lazımdır ki, Misir müəllimin 7 ildir qoyub getdiyi arzuedilməz nişanələrin tamam aradan qaldırılmasının vaxtı keçməkdədir. Təhsildə itiriləcək bir günümüz belə yoxdur. Bir daha ümid edək ki, Emin Əmirullayevin təyinatı qısa vaxtdan sonra yuxarıda sadalanan sadə, ancaq önəmli gözləntilərin reallaşması ilə əlamətdar olacaq.

***Sənan Mirzə***

# Etibar Pirverdiyevin ailə biznesi batır...

## Onun gəlir qaynaqlarının çoxu müflis olub

***Bir zamanlar Azərbaycanın ən qüdrətli məmur-oliqarxlarından biri ”Azərenerji” ASC-nin sabiq prezidenti Etibar Pirverdiyev sayılırdı. Pirverdiyev korrupsiya pulları hesabına qısa vaxtda özünə nəhəng binzes şəbəkəsi yaratmışdı. Sabiq ”işıq şefi” məsul olduğu sahəyə ayrılan dövlət vəsaitlərinin, necə deyərlər, ”altından girib üstündən çıxırdı”. Nəticədə onun adı ölkənin əsas oliqarxları sırasında çəkilirdi.***

Lakin 2018-ci ildə 54 yaşlı Pirverdiyevin karyerası biabırçı şəkildə başa çatdı. O, ”Azərenerji” ASC-nin prezidenti vəzifəsindən azad edildi. Pirverdiyevin işdən çıxarılması həmin il iyulun 3-də Mingəçevir şəhərində fəaliyyət göstərən ölkənin ən böyük elektrik stansiyası olan ”Azərbaycan” İES-in 1-ci və 6-cı enerji blokunda partlayışla birbaşa əlaqəli idi. Bütün ölkəni işıqsız qoyan, dövlətə və əhaliyə böyük ziyan vuran bu hadisədən dərhal sonra ölkə başçısı baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzaladı. Dövlət Komissiyasının bir müddət sonra hazırladığı yekun rəydən baş verən hadisədə Pirverdiyevin məsuliyyəti aydın ifadə edilmişdi.

Məlum olayın ertəsi günü -iyulun 4-də prezidentin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar keçirilən müşavirədə isə ”Azərenerji”nin o vaxtkı prezidenti ölkə başçısı tərəfindən kəskin tənqid olunmuşdu. Belə ki, Pirverdiyev çıxışında iyunun əvvəlində 50-55 milyon kVatt enerji istehsal edildiyini, bu rəqəmin son 1 həftədə isə 70-75 milyona qalxdığını bildirsə də, ölkə başçısı bunun qəza səbəbi olmadığını söyləmişdi: ”Bəziləri bunu isti hava ilə bağlayır. Bizdən də isti ölkələr var. Orada belə qəzalar baş vermir. Baş verəndə isə ölkələrin enerji sistemi çökmür. Qəza baş verə bilər. Fəsadları aradan qaldırılmalıdır. Ancaq bir qəzaya görə bütün ölkənin enerji sisteminin çökməsi, böyük səhvdir. İsti havalar qəzanın səbəbi ola bilməz. Qəzanın səbəblərini xüsusi komissiya araşdıracaq. Siz sadəcə olaraq utanmalısınız. İnsanlara - qocalara, uşaqlara, qadınlara, metroda və liftdə qalanlara, xəstələrə bu isti havada əziyyət vermisiniz. İqtisadiyyata böyük ziyan vurmusunuz”.



Dövlət rəhbərinin belə sərt tənqidindən sonra Pirverdiyevin işsiz qalması təəccüblü deyildi. Üstəlik, həmin vaxtadək yerli mediada illərdir sabiq ”işıq şefi”nin tamamilə korrupsiyaya bulaşdığı bildirilir, ictimai rəydə onun əvəzlənməli olduğu və yol verdiyi yeyinti əməllərinə görə barəsində hüquqi ölçü götürülməsinin vacibliyi vurğulanırdı.

Düzdür, E.Pirverdiyev vəziyyətdən az itki ilə çıxa bildi - sadəcə, vəzifəsini itirdi. Halbuki azadlığını da itirə bilərdi. Lakin axır vaxtlar gələn məlumatlar onun ”Azərenerji” rəhbəri olduğu dövrdə yaratdığı ”biznes imperiyasının” da sürətlə çökdüyünü göstərir. Qəzetimizə daxil olan son bilgilərə görə, vəzifəsiz qalan Etibar müəllimin gəlir qaynaqları bir-birinin ardınca sıradan çıxmaqdadır. Üstəlik, həmin qaynaqların bir çoxu ölkə hüdudlarından kənardadır.

Bundan başqa, Pirverdiyevə məxsus ”Express Bank”ın da işlərinin qaydasında getmədiyinə dair iddialar var. Məlumdur ki, 2015-cı ildən başlayaraq ölkənin maliyyə-kredit sistemində davam edən böhran çoxsaylı kommersiya bankının bağlanması ilə müşayiət olunmaqdadır. Sonuncu dəfə, konkret cari ilin aprelin 28-də və mayın 12-də Mərkəzi Bankın müvafiq qərarları ilə daha 4 bank tarixə qovuşdu. Mərkəzi Bank rəhbərliyinin optimist açıqlamalarına rəğmən, hazırda fəaliyyətini davam etdirən kommersiya banklarının sayında yenə azalma olacağı gözlənilir. İddialara görə, ləğvi gözlənilən banklardan biri də qeyri-rəsmi şəkildə Pirverdiyevə məxsus olan ”Express Bank”dır. Yerli mətbuat bior müddətdir yazır ki, paytaxtdan kənarda cəmi 7 rayonda filialı, ölkə üzrə isə üstüstə vur-tut 60 bankomatı mövcud olan və ”cırtdan bank” sayılan ”Express Bank”ın işləri heç də qaydasında getmir.

Qısası, vəzifədə olarkən qaranlıq maliyyə qaynaqları hesabına özünə geniş binzes şəbəkəsi quran Pirverdiyev postundan kənarlaşdırıldıqdan sonra hər gün bir az da pis vəziyyətdə qalır. Onun haqqında danışılan biznes şəbəkəsi tədricən batır. Səbəbi aydındır: bəzi iri məmurların özlərinə ölkə daxilində və xaricində böyük gəlir mənbələri yaratması ilk növbədə dövlət vəsaitlərini yeyib-dağıtması hesabına mümkün olur. Elə ki vəzifələrini, deməli, həm də böyük məbləğdə büdcə pulları üzərində sərəncam imkanlarını itirirlər. Nəticədə isə ailə biznesləri də ”günəş” kimi ”qürub etməyə” başlayır...

***Toğrul Əliyev***



## “Koronavirusa yoluxan məhbusların hamısı sağalıb” - Ədliyyə Nazirliyi

***Penitensiar müəssisələrində koronavirusa yoluxan məhbuslar arasında ağırlaşma yoxdur və hamısı sağalıb.***

Bunu Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinin rəis müavini İftixar Qurbanov deyib. O bildirib ki, koronavirusa ilk yoluxma halı şəhər xəstəxanasından çıxarılan məhkumda rast gəlinib: Təmas halı orda baş verib. Bundan sonra bütün təmasların nəzarətdə saxlanılmasına başlanılıb”.

İ.Qurbanovun sözlərinə görə, məhbuslar arasında tək-tək yoluxma halı var: ”Koronavirusa yoluxma halı aşkarlandıqda dərhal karantin təmin olunur və həmin şəxsin müalicəsi və müayinəsi tətbiq olunur. Bugünkü günə qədər koronavirus yoluxmuş məhkumlar arasında vəziyyəti ağırlaşmış məhbus olmayıb, hamısı sağalıb. Səhhətində problem olan məhbusların nəzərdə tutulmuş müddətə uyğun olaraq müalicəsi davam edir və yalnız tam sağaldıqdan sonra cəza çəkdikləri müəssisəyə qaytarılırlar”.

# Millət vəkili koronavirus testlərinin qiymətindən danışdı

***“COVİD-19 pandemiyası ilə bağlı testlərin qiyməti haqqında bəzi həmkarlarımın dünən səsləndirdiyi fikirlərə aydınlıq gətirmək istərdim. Azərbaycan COVİD-19 pandemiyasının qarşısının alınması istiqamətində ən effektiv qabaqlayıcı addımlar atan ölkələr sırasındadır. Bu, məhz dövlət başçısının göstərişi ilə vaxtında görülmüş tədbirlər sayəsində mümkün olub. Azərbaycanda bütün testlər pulsuz aparılıb”.***

“Unikal”ın məlumatına görə, bunu Milli Məclisin iclasında deputat Soltan Məmmədov deyib.

O qeyd edib ki, dünya təcrübəsinə görə, yalnız xəstəlik simptomları olanlar testdən keçirilir: “Ölkəmizdə də simptomları olan və müxtəlif risk qruplarına aid insanların analizləri dövlət tərəfindən ayrılmış vəsait hesabına pulsuz həyata keçirilir. Bu faktın özü dövlətimizin vətəndaşların sağlamlığına nə qədər həssaslıqla yanaşdığının göstəricisidir. Laboratoriyalarda istifadə edilən reaktivlər dünyanın inkişaf etmiş ölkələrindən alınıb və ən yüksək standartlara cavab verir. Şübhəsiz ki, bəzi özəl müəssisələrdə də testlər aparılır. Lakin bütün dünyada olduğu kimi, bizdə də özəl müəssisələrin fəaliyyəti bazar iqtisadiyyatı qanunları ilə tənzimlənir. Bu laboratoriyalara yalnız şəxsi məqsədlərlə xarici ölkələrə səfər edənlər, bu və ya digər səbəblərdən testdən keçmək istəyənlər müraciət edir. Ona görə də bu məsələləri bir-birindən fərqləndirməliyik”.



Deputat qeyd edib ki, indiyə qədər aparılan testlərin sayı 760 mindən yuxarıdır: “Ölkəmizdə gündəlik 10 minə qədər test keçirilir. Adambaşına düşən testlərin sayına görə də ölkəmiz dünyada qabaqcıl yerlərdədir. Məhz yoluxmaların vaxtında müəyyənləşdirilməsi nəticəsində 30 minə yaxın insanın bu xəstəlikdən sağalması mümkün olub. Bu testləri həyata keçirən 31 laboratoriya var ki, onların da çox böyük əksəriyyəti son bir neçə ay ərzində yaradılıb. Daha 9 laboratoriyanın yaxın günlərdə açılması planlaşdırılır. Sosial şəbəkələrdə xaricdən gələn həkimlərlə bağlı bəzi qeyri-obyektiv müzakirələrə də toxunmaq istəyirəm. Həm İtaliyadan, həm Çindən, həm də digər ölkələrdən həkimlər Azərbaycana koronavirusla mübarizədə dəstək olmaq amalı ilə gəliblər. Bu ölkələrin hər birinə Azərbaycan çətin günlərdə kömək edib. Ona görə də bu cür təşəbbüsləri ölkəmizin zamanında göstərdiyi köməyin qarşılığı kimi qiymətləndirməliyik.

Koronavirusla mübarizə son dərəcə çətin, böyük zəhmət tələb edən ağır bir işdir. Hamımız bu sahədə çalışan insanların fədakarlığını, əziyyətini nəzərə alaraq, mümkün qədər bu mövzuya həssas yanaşmalı, obyektiv olmağa çalışmalıyıq. Sonda onu da bildirmək istəyirəm ki, zəruri hesab olunacağı təqdirdə bu məsələlərə aydınlıq gətirmək üçün biz Səhiyyə Nazirliyi və TƏBİB-in nümayəndələrini də dəvət edərək, dinləmə keçirə bilərik”.

## Sahil Babayev: "2 peşə hazırlığı mərkəzi fəaliyyətə başlayacaq"

***”Peşə hazırlığı məsələləri gündəmdir”. “Unikal”ın məlumatına görə, bunu məşğulluq və sosial rifaha dəstək tədbirləri ilə bağlı mətbuat konfransında Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib.***



Nazir bildirib ki, bu, işaxtaran şəxslər üçün böyük perspektivlər açır: ”Hazırda bununla bağlı 3 mərkəz tam fəaliyyət göstərir. 1 il ərzində daha 2 peşə hazırlığı mərkəzinin fəaliyyətə başlaması gözlənilir”.

# Haqqı ödənilən ictimai işlərin təşkili qaydaları dəyişdirilib



***Haqqı ödənilən ictimai işlərin təşkili qaydalarına dəyişiklik edilib.***

"Unikal"ın məlumatına görə, Milli Məclisin bu gün keçirilən iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılan "Məşğulluq haqqında" qanuna dəyişiklik edilməsi ilə bağlı qanun layihəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəssisələrdə işsiz şəxslərin, il ərzində müvafiq inzibati ərazi vahidi üzrə ictimai işlərə cəlb olunan işsiz şəxslərin 20%-dən çox olmamaqla işaxtaran şəxslərin müvəqqəti məşğulluğunu onları haqqı ödənilən işlərə cəlb etməklə təşkil edəcək.

İndiyə qədər Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrdə işsiz şəxslərin müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə onların müqavilələr üzrə ödənişli ictimai işlərə cəlb olunmasını təşkil edirdilər.

Digər bir dəyişikliklə işsiz şəxslərin, habelə il ərzində müvafiq inzibati ərazi vahidi üzrə peşə hazırlığına cəlb işsiz şəxslərin 20%-dən çox olmamaqla işaxtaran şəxslərin peşə hazırlığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ödənişsiz təşkil olunacaq, işaxtaran şəxslərin (yuxarıda göstərilən hal istisna olmaqla) peşə hazırlığı isə ödənişli əsaslarla həyata keçiriləcək.

Indiyə qədər işsiz şəxslərin peşə hazırlığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ödənişsiz təşkil olunurdu. İşaxtaran şəxslər isə peşə hazırlığına ödənişli əsaslarla cəlb edilirdi.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

# Bakıda 502 güzəştli mənzil satışa çıxarıldı



***Hövsan Yaşayış Kompleksinin 1 saylı binası üzrə 27 ədəd, 2 saylı binası üzrə 96 ədəd, 3 saylı binası üzrə 242 ədəd, 4 saylı binası üzrə 137 ədəd, ümumilikdə 502 mənzilin satışına başlanılır.***

"Unikak" Mənzil İnşaatı Dövlət Agentliyinə istinadən xəbər verir ki, satış 10 sentyabr 11:00-dan 19 sentyabr 11:00-dək davam edəcək.

Mənzillərin güzəştlə əldə edilməsi qaydasına uyğun olaraq, gözləmə qaydasında mənzillərin seçimi 14 sentyabr saat 11:00-dan, 19 sentyabr 11:00-dək davam edəcək.

1 otaqlı mənzillər 32 min 130 manatdan, 2 otaqlı mənzillər 43 min 10 manatdan, 3 otaqlı mənzillər isə 57 min 120 manatdan başlayır.

Mənzilləri 30 ilədək ipoteka krediti ilə əldə etmək mümkündür. Aylıq ödəniş mənzilin sahəsindən asılı olaraq 138-268 manat civarındadır.

# Abbas Quliyevə "Azərişıq"da yüksək vəzifə verildi



***"Azərişıq" ASC-nin Mingəçevirdə yerləşən "Mərkəzi Aran" Regional Elektrik Təchizatı və Satışı İdarəsinin (RETSİ) rəisi Saleh Abdullayev vəzifəsindən azad edilib.***

Unikal.org report-a istinadən xəbər verir ki, onun yerinə Abbas Quliyev təyin olunub. A.Quliyev bu təyinada qədər Nərimanov Rayon Enerji Təchizatı və Satışı İdarəsinin (RETSİ) rəisi olub.

Xatırladaq ki, "Mərkəzi Aran" RETSİ-yə Mingəçevir, Tərtər, Bərdə, Yevlax, Naftalan, Goranboy, Kürdəmir, Ucar, Ağsu, Göyçay və Ağdaş rayonlatrının Elektrik Şəbəkələri (EŞ) daxildir.

# Bakıda təhlükəli məmur unutqanlığı...

## Deyəsən, bəzi səlahiyyət sahibləri paytaxta yeni fəlakətin baş verməsini gözləyirlər

***İki il öncə Badamdar qəsəbəsində, 20-ci Sahə avtomobil yolunun sağ kənarında uçqun baş verdi. Böyük bir torpaq kütləsi yamacdan ayrılaraq yola töküldü. İstinad divarı dağıldı və sürüşmə zamanla davam etməyə başladı. Sürüşmə zonasında olan sakinlər köçürüldülər.***

Həmin vaxt Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirildi ki, sürüşmənin əsas səbəbi Badamdar dairəsində yerləşən minlərlə evin kanalizasiya sisteminin olmamasıdır. Belə ki, sistem olmadığı üçün sular birbaşa "şambo" adlanan quyulara axıdılır. Kanalizasiya, məişət və suvarma suları yamaca yığılır.

Yamac maili və torpaq qatı tez doya bilən narın qumlu-gilli suxurlar olduğu üçün torpaq doyur və müvazinət qüvvəsini itirir. Nəticədə yamac boyu hərəkət yaranır.

Qeyd edək ki, həmin vaxt qırılma nöqtəsi 10 metrdən yüksək idi. Həyətlərə mayaklar qoyulur, sürüşmənin dinamikası müşahidə edilirdi.

Hətta bildirilmişdi ki, yamacda sürüşmənin ən təhlükəli vaxtı qaya parçalarının ayrılıb, düşdüyü zaman olacaq. Çünki həmin qaya parçaları aşağı düşdüyü halda aşağıdakı ərazilər də zərər görəcəkdi.

Aradan iki il keçib vu günlərdə Sputnik Azərbaycan xəbər verdi ki, bu müddət ərzində ərazidə heç bir iş görülməyib. Əvəzində yola tökülən torpaq kütləsi yolu bağladığı üçün sürücülər torpaq topasının üzərindən keçərək, özlərinə yol düzəltməyə çalışıblar. O da bildirildi ki, indi həmin ərazidə qəribə bir mənzərə yaranıb. Yolda böyük bir təpə var və sürücülər çəkinəçəkinə həmin diki qalxıb, aşağı düşür və yola davam etməyə çalışırlar. Hazırda yay fəsli olduğu üçün sürüşmə dayanıb. Ancaq yağışlar başlayan kimi yamacın yenidən sürüşməyəcəyinə heç kim zəmanət verə bilməz.

Yoldan keçən sürücülər isə, sözün əsl mənasında, əziyyət çəkirlər.

Taksi sürücüsü Seyid Əliyevin sözlərinə görə, təpədən keçmək yolu qısaltsa da, əsl işgəncədir. Çünki qarşıdan avtomobilin gəlib-gəlmədiyindən xəbərsiz olurlar. İki avtomobilin təpənin üstündə qarşılaşmasının verəcəyi nəticəni isə düşünmək belə qorxuludur. Bu səbəbdən taksi sürücüləri həmin təpəni keçməmişdən əvvəl avtomobili saxlayıb, təpəyə qalxır, təpənin o biri tərəfindən avtomobil gəlmirsə, hərəkətə davam edirlər.

Torpaq təpə avtomobillərin hərəkətinə görə aşınıb, maşınlar hərəkət etdiyi zaman tozduman havaya qalxır.

Qeyd edək ki, ərazidə böyük bir çadır qurulub və hər tərəfi bağlıdır. Müşahidə zamanı iki il ərzində yamacda heç bir işin görülmədiyi məlum olur.

Bir müddət əvvəl yamaca nəzarətin və bərpa işlərinin həyata keçirilməsi üçün Yaponiyadan mütəxəssislər də cəlb etmişdilər.

Amma görünən odur ki, heç bir iş görülmür. Yolun iki ildir bağlı olması, yamacın yenidən



çökə bilmə təhlükəsinin olması heç bir qurumun maraqları çərçivəsində deyil.

Göründüyü kimi: ortada tipik məmur unutqanlığı var. Hansı ki, Azərbaycanda onun örnəklərinə tez-tez rast gəlirik. Bir problem yarananda və geniş ictimai rezonan doğuranda az qala bütün vəzifəli şəxslər onun həlli üçün hərəkətə keçdiklərini, "qollarını çırmadıqlarını" bildirir, ancaq elə ki, ara sakitləşir, sözügedən məsələ ictimai rəyin gündəmindən çıxır, dərhal problem də unudulur. Sanki bəzi səlahiyyət sahibləri hansısa təhlükəli mövzunun, arzuedilməz nəticələrə yol açacaq məsələnin kökündən həlli üçün həmin problemin yenidən təkrarlanmasını gözləyirlər. Özü də bilə-bilə ki, bu təkrar daha ağır fəsadlar doğura, daha faciəli sonuclara yol aça bilər!

Yuxarıda haqqında danışılan sürüşmə olayı ilə bağlı olduğu kimi!

Belə görünür, bizim səlahiyyət sahiblərinin çoxu hələ də vəzifə məsuliyyətlərinin fərqində deyillər. Onlar tutduqları posta ancaq şəxsi maraq prizmasından baxır, onu "qaz vurub qazan doldurmaq" vasitəsi kimi görürlər. Ən əsası isə ölkə rəhbərliyinin məmur korpusu qarşısında qoyduğu başlıca tələbə - "vətəndaşa xidmət" prinsipinə dırnaqarası münasibət bəsləyirlər. Halbuki məhz belə münasibətə görə indiyədək yetərincə böyük vəzifə sahibləri lazımi cəzalar alıb: kimisi vəzifəsini, kimisi də vəzifəsi ilə bərabər azadlığını itirib.

Ancaq təəssüf ki, bu cəzalardan dərs almayan, "gözü çıxmış qardaşlardan" ibrət götürməyən post sahibləri də az deyil. Ola bilsin, onlar cəzalandırma növbəsinin özlərinə çatmayacaqlarını düşünür, bu zaman da ya əsasən korrupsiya yolu ilə topladıqları sərvətə, ya da arxalarındakı güclü himayədarlara güvənirlər. Lakin belələri boş-boşuna ümidlənirlər: təkcə son aylardakı məmur həbsləri də onu göstərir ki, artıq vəzifəsindən asılı olmayaraq, ölkə rəhbərliyi kimsənin "kor atı minib köndələn çapması"na dözüm nümayiş etdirmək niyyətində deyil.

Hazırda reallıq sadədir: problemlərin həllini unudan, yaxud özünü untmuş kimi göstərənlər, vətəndaşa xidməti şəxsi maraqlarından arxa plana keçirənlər kimliyindən asılı olmayaraq layiqli cəzalarını alırlar! Bu bəzi məmurlara bizdən kiçik bir xatırlatmadır, gerisini qoy həmin səlahiyyət sahiblərinin özləri düşünsünlər.

Əlbəttə, şəxsi mənfəətlərini düşünməkdən başları açılarsa...

***Sənan Mirzə***

# Milli Məclis 2020-ci il dövlət büdcəsinə dəyişiklikləri qəbul edib

***Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 milyard 124 milyon manat, xərcləri 27 milyard 492 milyon 200 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 23 milyard 359 milyon 465 min manat, yerli gəlirləri 764 milyon 535 min manat, mərkəzləşdirilmiş xərcləri 26 milyard 677 milyon 330 min manat, yerli xərcləri 814 milyon 870 min manat) məbləğində müəyyən edilib.***

"Unikal"ın məlumatına görə, bu, Milli Məclisin bu gün keçirilən iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılaraq qəbul edilən "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanuna dəyişiklikdə əksini tapıb.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun əsasən, Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 24134500,0 min manat, xərcləri 26894700,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 23336950,0 min manat, yerli gəlirləri 797550,0 min manat, mərkəzləşdirilmiş xərcləri 26044596,0 min manat, yerli xərcləri 850104,0 min manat) məbləğində təsdiq edilmişdi.



Nəticədə yenidən baxılma ilə təsdiq olunmuş dövlət büdcəsinin vergi və rüsumlar üzrə, habelə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları 890,5 milyon manat məbləğində azaldılır, Azərbaycan Respublikasının Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti və dövlət büdcəsinin sair daxilomaları müvafiq olaraq 850,0 milyon manat və 30,0 milyon manat artırılır.

Beləliklə, cari il üçün yenilənmiş makroiqtisadi proqnozlar əsas götürülməklə aparılmış hesablamalar əsasında 2020-ci il dövlət büdcəsinin dürüstləşdirilmiş gəlirləri 24124,0 milyon manat nəzərdə tutulur ki, bu da ÜDM-in 35,3 faizi həcmində olmaqla, 2020-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 10,5 milyon manat azdır.

Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması, pandemiyanın yaratdığı keyfiyyətcə yeni sosial və iqtisadi davranış mühitinin xüsusiyyətləri, əhalinin həssas sosial qruplarına, dövlət şirkətlərinə, sahibkarlıq subyektlərinə, kiçik və orta biznesə dövlət tərəfindən əlavə dəstəyinin göstərilməsi, səhiyyə sahəsi üzrə əlavə tələbatın və digər dövlət ehtiyacların yaranması dövlət büdcəsinin icrası ilə bağlı yeni çağırışlar formalaşdırmış və bununla bağlı əlavə maliyyə təminatının yaradılmasını zəruri edir.

Qeyd olunan zəruri xərclərin örtülməsi üçün əlavə maliyyə ehtiyatlarının yaradılması yenidən baxılacaq 2020-ci ilin dövlət büdcəsinin layihəsində öz əksini tapıb.

Bütövlükdə əlavə tələb olunan 1371,5 milyon manat zəruri xərclərin aşağıdakı əsas istiqamətlər üzrə istifadəsi nəzərdə tutulur:

- ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması, pandemiyaya qarşı mübarizə ilə bağlı əvvəlcədən proqnozlaşdırılması mümkün olmayan əlavə xərclərin örtülməsi və digər zəruri xərclərin maliyyə təminatı üçün yaradılmış ehtiyat vəsait 465,0 milyon manat;
- səhiyyə sahəsi üzrə əlavə tələbatın ödənilməsi üçün 369,0 milyon manat (koronavirus infeksiyası ilə əlaqəli əmək şəraitinə görə tibb işçilərinə verilən müddətli əlavənin maliyyələşdirilməsinə, zəruri tibb ləvazimatlarının, avadanlıqlarının və başqa ehtiyacların tədarükünə, karantin nəzarətinə götürülmüş şəxslərə karantin müəssisələrində göstərilən xidmətlərə görə yaranmış xərclərin, stasionar müalicə tədbirlərinə cəlb edilmiş Tədris Cərrahiyyə Klinikasının və Tədris Terapevtik Klinikasının, Mərkəzi Neftçilər Xəstəxanasının, yeni tikilən modul tipli xəstəxanaların saxlanılmasına);
- pandemiya ilə əlaqədar sosial müdafiə və sosial təminat üzrə maliyyə dəstəyinin davam etdirilməsi üçün 238,0 milyon manat;
- pandemiya ilə əlaqədar dövlət şirkətlərinə maliyyə dəstəyinin davam etdirilməsi üçün 136,6 milyon manat;
- pandemiya ilə əlaqədar iqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı, o cümlədən sahibkarlara dövlət tərəfindən maliyyə dəstəyinin davam etdirilməsi üçün 100,0 milyon manat;
- cari ildə bir sıra təşkilatlar üzrə artırılmış əmək haqlarının maliyyə təminatı və vakant vəzifələrin komplektləşdirilməsi üçün 37,3 milyon manat (Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun aidiyyəti qurumları və s.);
- bəzi təşkilatların maddi-texniki təminatının möhkəmləndirilməsi, hərbiçilərə ev kirayəsi haqqının ödənilməsi və digər zəruri xərclərin maliyyə təminatı üçün 9,1 milyon manat;
- "ASAN xidmət" üzrə elektron hökumətin tətbiqinin maliyyə təminatı üçün 7,0 milyon manat;
- pandemiya dövründə ölkəyə xaricdən gələn Azərbaycan Respublikası vətəndaşlarının sərhəddə yaradılmış səyyar düşərgələrdə karantindən keçmələri üçün 2,8 milyon manat;
- biometrik pasport blanklarının və yeni nəsil şəxsiyyət vəsiqələrinin çap edilməsi ilə bağlı əlavə 6,7 milyon manat vəsaitin yönəldilməsi proqnozlaşdırılır.

Bütün bunlar nəzərə alınmaqla 2020-ci il dövlət büdcəsinin dürüstləşdirilmiş xərcləri 27492,2 milyon manat təşkil edəcək ki, bu da təsdiq edilmiş göstəriciyə nisbətən 597,5 milyon manat və ya 2,2 faiz, 2019-cu ilin faktiki icra göstəricisi ilə müqayisədə isə 3066,3 milyon manat və ya 12,6 faiz çoxdur.

2020-ci il yenidən baxılan dövlət büdcəsinin xərclərinin 18046,9 milyon manatı və ya 65,6 faizi cari xərclərə yönəldiləcək ki, bu da təsdiq olunmuş proqnoza nisbətən 790,5 milyon manat və ya 4,6 faiz çoxdur, 7719,1 milyon manatı və ya 28,1 faizi əsaslı xərclərə yönəldiləcəkdir ki, bu da təsdiq olunmuş proqnoza nisbətən 91,0 milyon manat və ya 1,2 faiz, 1726,2 milyon manatı və ya 6,3 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldiləcəkdir ki, bu da təsdiq olunmuş proqnoza nisbətən 102,0 milyon manat və ya 5,6 faiz azdır.

Yenidən baxılan dövlət büdcəsinin tərkibində cari xərclərin xüsusi çəkisi təsdiq olunmuş göstəriciyə nisbətən 1,5 faiz-bənd artacaq, əsaslı xərclərin xüsusi çəkisi 1,0 faiz-bənd və dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərin xüsusi çəkisi isə 0,5 faiz-bənd azalacaq.

Aparılmış dürüstləşmə ilə xərclərin funksional təsnifatının müvafiq xərc bölmələri üzrə edilmiş dəyişikliklər "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunun layihəsində və büdcə zərfində əksini tapıb.

Nəticədə yenidən baxılma ilə təsdiq olunmuş dövlət büdcəsinin vergi və rüsumlar üzrə, habelə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları 890,5 milyon manat məbləğində azaldılır, Azərbaycan Respublikasının Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti və dövlət büdcəsinin sair daxilomaları müvafiq olaraq 850,0 milyon manat və 30,0 milyon manat artırılır.

*Hüseyn İsgəndərov*



## Avqust ayında 190 manat bu qayda ilə veriləcək - RƏSMİ

***"Sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 13 şəhər və rayon üzrə 190 manat birdəfəlik ödəmələrin verilməsi yaxın günlərdə təmin ediləcək".***

Unikal.org xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev keçirdiyi mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, 278 min nəfəri əhatə edəcək bu ödəmələr üçün 53 milyon manat sərf ediləcək: "Ödənişlər təkrar yoxlamalar keçirildikdən sonra veriləcək. Ümumilikdə birdəfəlik ödəmə proqramı üzrə yönəldilən vəsaitin ümumi həcmi 333 milyon manata çatacaq ki, bunun da 210 milyon manatı Dövlət Sosial Müdafiə Fondunun gəlirləri hesabına maliyyələşdiriləcək".

O bildirib ki, təqribən 5 milyona yaxın insan geniş sosial paketlə əhatə edilib: "Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı verilir".

S.Babayev həmçinin xatırladıb ki, işsizlikdən sığorta ödənişlərinin də əhatə dairəsi genişlənəcək: "Həmin ödənişin təyinat şərtlərinin yumşaldılması üçün hazırlanan qanun layihəsi artıq parlamentdə müzakirə olunur. Layihə qəbul edildikdə, bu, işsizlikdən sığorta ödənişi alanların sayının artırılmasına, bu il üçün həmin sayın artıq 20 minə çatdırılmasına imkan verəcək".

## Avqustun 21-də Məhərrəm ayı başlayacaq

***Avqust ayının 21-də Azərbaycanda Məhərrəm ayı başlayacaq.***

Bu barədə Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib. Onun sözlərinə görə, Aşura günü avqustun 30-na təsadüf edəcək.

F. Nurullayev eyni zamanda qeyd edib ki, oktyabrın 8-də Ərbəin olacaq (40 günü).

QMİ sədrinin müavini deyib ki, avqustun 31-dək ölkədə karantin rejimi olduğuna və 5 nəfərdən artıq adamın bir yerə yığılmasına icazə yoxdur: "Hazırda Məhərrəm ayı ilə bağlı qanvermə aksiyasının necə keçirilməsi məsələsi müzakirə olunur".

## Koronavirusa yoluxmanın statistikası açıqlanıb - Siyahı

***Azərbaycan üzrə COVID-19-a yoluxmanın statistikası açıqlanıb.***

Koronavirus.info xəbər verir ki, ən yüksək yoluxma Bakı şəhərinin payına düşür - 56.3 faiz.

Abşeronda yoluxma faizi 16. 1 faiz, Aranda 9.4 faiz, Gəncə-Qazaxda 6.7 faiz, Lənkəranda 4.5 faiz, Quba-Xaçmazda 1.9 faiz, Dağlıq Şirvanda 1.7 faiz, Şəki-Zaqatalada 1.5 faiz, Yuxarı Qarabağda 1.0 faizdir.

Naxçıvanda yoluxma 0.0 faiz, ölkə xarici yoluxma isə 0.8 faiz təşkil edir.

# “Neqativ hallara susmuram, hər zaman da sözümü deyirəm”

## Afaq Bəşirqızı: “Mən öz günahımı xalqın boynuna yıxıb, onları fəlakətə sürükləyən ziyalılardan deyiləm”



***“Moşuu, eqalogiya buduu-ur?”, “Alo, 66-68-düü? Almaxanım sənsən?”, “Qardaşımdan iraq səni görüm canından çəkəsən, gəlin” kimi sitatlarla hər zaman tamaşaçıların üzünü güldürən, evdar qadınların ən ideal obrazlarının ifaçısı məhz Xalq artisti Afaq Bəşirqızıdır. O, səhnəmizin Söylüsü, Suğrası, Darçınbəyimi, Dollar Səyyarəsidir.***

Son zamanlar daha çox kəskin çıxışları ilə seçilən aktrisamızın Unikal.org-a müsahibəsini sizə təqdim edirik.

***-Aktyor ailəsində doğulmusunuz, amma ilk sənət təcrübənizi rejissor Məhərrəm Bədirzadənin dram dərnəyində almısınız. Bəşir Səfəroğlu sizin aktrisa kimi fəaliyyətinizi dəstəkləyirdi?***

-Qəti. Evimizdə Bəşir Səfəroğlunun xasiyyəti feodal idi. Bilmirəm nədənsə, bəlkə də özü sənətkar idi, amma birmənalı şəkildə qızı Afaqın aktrisa olmasını nə ağlına gətirmirdi, nə də buna razılıq verməzdi. Bizim heç bu barədə söhbətimiz də olmayıb. O vaxt bizdə indiki kimi robot üsulu ilə instituta hazırlaşmaq yox idi. Biz artıq 10-11-ci siniflərdə hansı ixtisası seçəcəyimizi bilirdik. Ona görə Bəşir Səfəroğlunun Afaqın nə vaxtsa aktrisa ola biləcəyinə heç şübhəsi də yox idi.

***-Söylü, Darçınbəyim, Suğra... Seçilən, spesifik evdar qadınların obrazlarını canlandırmısınız. Sizcə, təqdimatınızdan sonra cəmiyyətdə o cür tipajlarda azalma varmı?***

-Mənim yaratdığım obrazlar cinayətkar, cani, rüşvətxor deyillər, adi evdar qadınlardır. Mənim Söylüm o qədər primitivdir ki, yeyəndən sonra yağı balağına silə bilər, amma oğlunun nəyə görə o yaşa qədər sünnət olunmamasını dərk etmir. O hesab edir ki, qərarı Moşu verməlidir. Moşu ona pinti qadın olduğunu desəydi, əmin olun, Söylü özünü yığışdırardı. Onun ərinə qarşı olan sevgisi, dəyəri o qədər yüksək idi ki, bəlkə də Moşu ona əlini yeyəndən sonra üstünə sürtməməyini deməyi utanardı. Mən belə xanımları indiki cəmiyyətdəki çox qadından daha üstün tuturam, çünki Söylükimiləri axmaq deyil, sadəlöv idilər.

***- “Bəxt üzüyü -2” filmi niyə əvvəlki qədər effektli olmadı. Çatışmayan nə idi?***

-Ssenarilərdə çox fərq var idi. Dəfələrlə deyildi ki, “Bəxt üzüyü -2” “Bəxt üzüyü” filminin davamı deyil, sadəcə həmin filmin xatirəsinə bəzi personajlar saxlanılıb. Film Rəhmətlik Rəfael Dadaşov, Valeh Kərimov, Firəngiz Rəhimbəyova kimi heyəti təkrar bir araya yığmaqla, bir növ insanların yaddaşını yeniləmək idi. “Bəxt üzüyü -2” Vaqif Səmədoğlunun 80 illik yubileyi ərəfəsində çəkildi. Amma bu iki film yanaşı qoyularaq müqayisə edilməməlidir.

***-O zaman belə anlayırıq ki, insanlar ad uyğunluğuna görə qeyri-ixtiyari müqayisə edir deyə köhnə film daha üstün olur...***

- Bəli, elədir və bu müqayisə yalnışdır.

***-Yetişməkdə olan gənc aktyor və aktrisaları necə qiymətləndirirsiniz?***

-Gənclərə meydan verməyin tərəfdarıyam. Mənim o gənclərlə eyni filmdə işləməyim onlara yaşıl işıqdır. Mən də bir zamanlar İsmayıl Dağıstanlı, Hacıbaba Bağırov və Siyavuş Aslan kimi aktyorlarla eyni filmlərdə, tamaşalarda tərəf müqabili olmuşam, həm də onlardan nələrisə öyrənirdim. Gənclərə dəstək olmağı, onlara hamilik etməyi sevirəm. Amma bayağı, yaşına yaraşmayan hərəkətlər edən gənc aktyor və aktrisalarla nəinki tərəf müqabili olmuram, heç eyni verilişlərdə də iştirak etmirəm.

***-Gənclərlə işləmək demişkən, bir ara “Bəşir” teatrı fəaliyyət göstərirdi. Həmin teatrın aqibəti nə oldu?***

-Teatr 1995-ci ildən 2003-cü ilə qədər Azərbaycanda fəaliyyət göstərdi. Sonra mənim Rusiyada yaşayan yaxın dostlarım məsləhət gördülər ki, “Bəşir” teatrı Moskvada fəaliyyətini davam etdirsin və aktyorlar dəvətlə gətirilsin. Biz “Azərbaycanlıların Rusiyada sərgüzəştləri” tamaşasını səhnələşdirdik, çox da uğurlu alındı. Rusiyanın 63 şəhərini gəzdik, 8 xarici ölkədə olduq. Amma o enerji ilə davam etmək üçün fiziki güc lazım idi. Mütəmadi gedib-gəlmək və məşqlər... Orada heç vaxt arendaya verilməyən “Satira” teatrının rəhbərliyi bizə çox şərait yaratdı, həm də təmənnasız. Sonuncu əməliyyatdan sonra səhhətimlə əlaqədar mənə təyyarəyə minmək qadağan edilib. Hazırda teatrın direktoru, mühasibi, hüquqşünasından başqa teatr akademik məzuniyyətdədir. Bacarsam, davam etdirəcəyəm, yaşayaq görək.

***- Yaratdığınız çoxlu obrazlar var, bəs ürəyinizdə qalan, ifa etməyə gecikdiyiniz obraz varmı?***

-Ürəyimdə qalan sonuncu obrazımdır. Bir tamaşada 1937-ci ildə represiya zamanı zülm çəkən Azərbaycan qadınlarının ümumi obrazı olan AXC-nin Milli təhlükəsizlik təşkilatının rəhbəri Nağı bəy Şeyxzamanlının həyat yoldaşını (Səlimə xanım obrazı -red.) canlandıracaqdım. Elə tamaşanın məşqləri gedirdi, pandemiya səbəbindən yarımçıq qalıb. Qorxuram ki, o rolu oynamasam, bu, mənim üçün çox çətin və ağır olar.

***- Afaq Bəşirqızının pəncərəsindən həyat hansı janrda görsənir?***

- Tragikomediya kimi görsənir. Qəribədir, gülməkdən də yorulmuşuq, ağlamaqdan da. Dünyada baş verən faciələrə baxıram, o qədər dərdim var ki... heç şəhidlərimin də 40-ı çıxmayıb. Beynəlxalq təşkilatlar da tez-tez ölkəmizdə qonaq olurlar, amma Qarabağ barədə dəyişən nəticə yoxdur, ancaq illər gedir.

***-Afaq xanım, sizcə, ziyalı xalqın sözünü deməlidir, yoxsa dövlətin yanında olmalıdır? Əgər dövlət xalqın maraqlarına uyğun olmayan qərar verərsə, belə məqamda ziyalı nə etməlidir?***

-Ziyalı xalqın gözü olan adamdır. Ziyalı var ki, xalq onun ardınca düşüb hara istəsə gedər. Ziyalı var ki, xalq içinə çıxanda daş-qalaq edilir. Bilirsiniz ki, mən baş verən neqativ hallara susmuram, hər zaman da sözümü deyirəm. Mən öz günahımı xalqın boynuna yıxıb, onları fəlakətə sürükləyən ziyalılardan deyiləm. Mən müharibə edirəm və mənimlə müharibə edirlər. Sual verim, Afaq Bəşirqızı mart ayının 1-də məgər Prezidentdən təkcə maaş istədi? Prezidentə “sizin verdiyiniz qərarları məmurlar öz şəxsi ambisiyalarına görə istifadə edirlər” demədim ki..? Prezidentə “sizin ətrafınızdakı məmurlar sizi aldadır” demədimmi..? Mən deyirdim ki, həyat yoldaşını 1-2 milyona “yığdıran” məmur Prezidentin ayırdığı maaşı düzgün hesablamadı. Mən incəsənətin problemlərindən danışdım, məgər teatr heyəti, muzey işçiləri, kitabxanaçılar, süpürgəçi, fəhlə - bunlar xalq deyil? Mən özüm üçün aydın olan sahənin dərdlərini danışdım. Niyə başqa sahəyə aid olan adamlar danışmırlar? Mən özüm üçün nəsə istədim? Afaq Bəşirqızının heç nəyə ehtiyacı yox idi axı. Bəlkə var idi? Xalqın sevdiyi sənətkarı gözdən salmağa çalışmaq mədəniyyətin çat verməsi və həmin xalqın bəlasıdır.

***-Mart ayındakı həmin çıxışdan sonra sizə açıq təzyiqlər var?***

-Mən deyərdim ki, son zamanlar açıq təzyiqlər var. Sosial şəbəkələrdə belə ədəbə uyğun olmayan sözlər işlədilir, qısaca, savaş kişi kimi getmir.

***-Adam var, yaxşı sənətkardır, amma ziyalı deyil. Adam var, yaxşı ziyalıdır, amma sənətkarlığı zəifdir. Adam da var ki, hər ikisini özündə birləşdirib. Sizcə, Azərbaycanda sənəti ilə mövqeyi üst-üstə düşən ziyalılarımız varmı? Onların cəmiyyətdə yeri və rolu nə dərəcədədir?***

-Deyə bilmərəm. Mən birlik olmanın tərəfdarıyam. Bilirsiniz, sənətkar danışa bilmir. Hamı maaş, pensiya, mükafat almır axı. Alan da nəyinsə xatirinə susur.

Bəli, çünki başına gəlib - danışıb və itirib. Mövqelərini dəyişəni az görmüşük?

***-Sizi hər zaman özünəməxsus mövqeyi olan sənət adamı kimi qəbul ediblər. Amma bəzən müstəqil mövqeyi olan, hökumətin bəyənmədiyi mövqe sərgiləyən ziyalılardan xoşu gəlməyib. Belə bir münasibətlə qarşılaşmısınızmı?***

-Həmişə demişəm, mən ön cəbhədən qorxmuram. Bilirəm ki, ermənidir, satqındır və mənə tüfəng qaldırandır. Mən arxa cəbhədən qorxuram - satqınlardan yox, satılmışlardan qorxuram. Bunu mətbuatda çox demişəm, o vaxt mən Sumqayıt hadisələrinin səbəbkarı kimi göstəriləndə, akademik Aqanbekyan mənim həbsimi və güllələnməyimi çox istəyirdi. Aqanbekyan mənim öldürülməyim üçün durmadan erməni təşkilatlarına teleqram vururdu. Mən bu gün də susmuram, həqiqətləri deməkdən çəkinmirəm. Onlar mənim zəkama və gücümə bələddirlər, ona görə mənimlə açıq savaş etməkdən qorxurlar, dürüst deyillər.

***- Avqustun 15-də doğum gününüzdür. Afaq Bəşirqızı özü üçün nə arzu edir?***

-Zəng edib soruşurlar ayın 15-i harada olacaqsan, nə edəcəksən? Hələ şəhidimin 40-ı çıxmayıb, hələ müharibəni udmadıq nə ad günü? Ad gününü insan 18, 20, 25, uzağı 30 yaşında qeyd edər, mənim 65 yaşım tamam olur. Mənim qəbirdə rahat yatmağım üçün indi qələbəni gözləyən günümdür.

***Dürrə Həsənova***

# Nazirlik rəsmisindən Xəzərlə bağlı həyəcanlı çağırış

***"Bu gün Xəzər dənizi şimaldan cənuba onlarla axar vasitəsilə çirkləndirilir və çirkləndirici subyektlərə qarşı xəbərdarlıqlar, müraciətlər, cərimə və iddialar tətbiq olunur, toplanmış materiallar məhkəmələrə göndərilir.***

Sadəcə, soruşuruq: Sizin üçün hansı daha rahatdır, cərimə ödəmək, yoxsa işinizi düzgün qurmaq və rahat fəaliyyət göstərmək? Uşaqlarınızı, doğmalarınızı zəhərləmək, yoxsa onların səhhətini düşünmək?"



"Unikal" xəbər verir ki, bu fikirləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova Xəzərin çirkləndirilməsinə etiraz olaraq bildirib. "Bu gün Xəzəri çirkləndirən kimdir? Biz özümüzük, vətəndaşlar, müəssisələr, fabrik, təşkilat, ictimai-iaşə obyektləridir. ETSN-nin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi tərəfindən dənizə çirkab su axıdan axarlar müəyyən edilib və bütün cavabdeh qurumlara, çirkləndiricilərə xəbərdarlıqlar olunub. Niyə biz bu gün öz təbii sərvətlərimizi çirkləndiririk? Bu, dənizə də, çaylara da, göllərə də aiddir. Nə vaxta qədər biz çirkləndirməyə davam edəcəyik?

Nə qədər xəbərdarlıq, cərimə etmək, məcburi göstəriş vermək olar, nə qədər məhkəmə çəkişmələri olar, biz yorulmadıqmı bundan? Nəyə görə biz sərvətlərimizi qorumuruq? Yəni bu qədər özümüz özümüzə biganəyik? Xəzər kimi belə bir unikal dəyərə malik sərvəti niyə qiymətləndirə bilmirik? Yoxsa övladlarımızın sağlamlığını, təmiz ətraf mühitdə yaşamasınımı istəmirik? Bəlkə bu, sadəcə etinasızlıqdır, doğmalarımıza, təbiətə və özümüzə olan etinasızlıq".

Nazirliyin sözçüsü hesab edir ki, verilən bu qədər vaxt, müddət ərzində işlərində dönüş yaratmamağın səbəbi, yəqin ki, bunlardır:

"Xəzəri çirkləndirən subyektlərin cavabdehlərini bu barədə yenidən düşünməyə və sağlam qərarları ilə Xəzərimizə öz töhfələrini verməyə çağırırıq. Bu işdə bizə sizin, hamının dəstəyi lazımdır. Bir daha müraciət edirik, tullantı sularının dənizə axıdılmasına yol verməyin! Bununla öz yaxınlarınızın səhhətinə təhlükə yaratmış olursunuz.

Bu, bizim ümumi sərvətimizdir, xalqımızın, dövlətimizin sərvətidir. Təkcə Xəzərə yox, çaylara, göllərə də axıdılan çirkab suların qarşısı alınmalı, aidiyyəti təşkilatlar, qurumlar bu işlə daha ciddi məşğul olmalı, işlərinə daha planlı və məsuliyyətlə yanaşmalıdır".

Təbiət pandemiya dövründə antropogen təsirlərdən nisbətən az zərər alır, özünü daha sağlam reabilitasiya etməyə çalışır. Gəlin, hamımız təbiətə töhfəmizi verək, onu çirklənmədən qoruyaq", - deyə İ.İbrahimova çağırış edib.

***Zaurə***

# "Büdcədə gəlir və xərclər arasında tarazlıq pozuldu" - Millət vəkili

***Koronavirus epidemiyası bu gün dünya iqtisadiyyatı üçün əsas təhdidlərdən birinə çevrilib. "Gözəgörünməz" düşmən qlobal iqtisadiyyatda neqativ meyillərin artmasına, dünya enerji və səhm bazarlarında kəskin dalğalanmalara səbəb olub. COVID-19-un dünyada sürətlə yayılması ölkəmizin iqtisadiyyatından da yan keçməyib.***

Bunu Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib. Millət vəkili qeyd edib ki, mart ayından başlayaraq COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi, sosial təcrid tədbirləri ölkə iqtisadiyyatın əksər sahələrinin inkişafına mənfi təsir göstərib:



"Sərhəd tanımayan koronavirus pandemiyası ölkədə iqtisadi aktivliyin zəifləməsinə, qeyri-neft gəlirlərinin azalmasına və digər maliyyələşmə mənbələrinin daralmasına, gəlirlər və xərclər arasında tarazlığın pozulmasına səbəb oldu. 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə Prezident İlham Əliyevin dediyi kimi əgər bu koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyük həcmli olardı".

Deputat qeyd etdi ki, dünyada tüğyan edən virusun ölkəmizin iqtisadiyyatına təsiri, dünya bazarında neftin qiymətinin aşağı düşməsi dövlət büdcəsinə yenidən baxılmasını zəruri etdi: "Milli Məclisin növbədənkənar sessiyasının ilk iclasında birinci oxunuşda qəbul edilən dövlət büdcəsinə dəyişikliklər sosialyönümlü olması ilə diqqəti çəkdi. Pandemiyanın təsirlərinə baxmayaraq, dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Dövlət başçısı İlham Əliyev tərəfindən vaxtında qəbul edilmiş qərarlar iqtisadiyyatda baş verəcək mənfi halların qarşısını alıb. Ötən illərdə sosial-iqtisadi sahədə qaznılan uğurların nəticəsidir ki, bu gün Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkənin yardım üçün müraciət etdiyi siyahıda Azərbaycanın adı yoxdur".

Naqif Həmzəyev son illərdə həyata keçirilən siyasətinin sayəsində vətəndaşların sağlamlığı ilə yanaşı madi-rifah halı da diqqətdə saxlanıldığını bildirdi.

Vurğuladı ki, bövlət büdcəsindən dəstək proqramlarının həyata keçirilməsi üçün 600 milyon manat vəsaitin ayrılması da əhalinin rifahını yüksəltməyə, sosial müdafiəsini gücləndirməyə hesablanmış addımdır.

Millət vəkili əlavə etdi ki, dövlət büdcəsində edilən dəyişikliklər vətəndaşların mənafeyi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına hesablanıb.

# 334 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edildi



***Koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Xaçmaz, Goranboy, Göygöl, Salyan rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə 06.08.2020-ci il saat 00:00-dan 07.08.2020-ci il 00:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 221 nəfər İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 112 nəfər həmin Məcəllənin 211.2-ci, eyni əməllərin il ərzində təkrar törədilməsinə görə isə Məcəllənin 211.3-cü maddəsi ilə 1 nəfər olmaqla ümumilikdə 334 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.***

Baş Dövlət Yol Polisi İdarəsindən Unikal.org-a verilən məlumata görə, qeyd olunan müddət ərzində Bakı-Quba yolunun 52-ci km-də yerləşən karantin keçid postundan 30-u rayon, 115-i paytaxt istiqamətinə olmaqla 145, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci km-də yerləşən postdan 135-i rayon, 260-ı paytaxt istiqamətinə olmaqla 395, Bakı-Qazax-Gürcüstan yolunun 65-ci km-də yerləşən keçid postundan 105-i rayon, 225-i paytaxt istiqamətinə olmaqla 330 avtomobil geri qaytarılıb, ümumilikdə 870 nəqliyyat vasitəsi ilə müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

# Deputatlar yenidən tətilə çıxdılar

***Azərbaycan parlamentinin deputatları yenidən məzuniyyətə gediblər.***

Unikal.org xəbər verir ki, parlamentin üzvləri avqustun 30-dək istirahətdə olacaqlar. Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, tətil dövründə qanunverici orqanın növbədənkənar sessiyası çağırıldıqda parlamentin tətili növbədənkənar sessiyanın keçirildiyi müddətə dayandırılır və deputatlar həmin müddətə məzuniyyətdən geri çağırılırlar.

Parlamentin 59 deputatı Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə əsasən, növbədənkənar sessiyanın çağırılmasını tələb etmişdi. Bu tələbi nəzərə alan Milli Məclisin Sədri Sahibə Qafarova avqustun 4-də qanunverici orqanın növbədənkənar sessiyasının keçirilməsi haqqında sərəncam imzalamışdı.

Bununla da qanunvericiliyə uyğun olaraq, deputatlar avqustun 4-dən sessiyanın bitəcəyi tarixə qədər məzuniyyətdən geri çağırılmışdı.

Növbədənkənar sessiya isə bu gün bitdiyindən deputatlar yenidən məzuniyyətə çıxıblar.

Qeyd edək ki, Milli Məclisin deputatları iyulun 15-dən məzuniyyətə çıxmışdılar.

# "Guya ABŞ-da problem yoxdur?" - Siyavuş Novruzov

***"İşsizliyin aradan qaldırılması üçün dövlət tərəfdindən mühüm işlər görülür".***

Unikal.org xəbər verir ki, bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov parlamentin bu gün keçirilən plenar iclasında deyib.

"Biz keçmişi yaddan çıxartamalıyıq. Vaxt var idi ki, Azərbaycanda yol, qaz, işıq anlayışı yox idi. İndi isə 3 kənddə qazın olmaması davasını edirik. Mən yol kənarında ağacların kəsilməsini, quldur dəstələrin olmasını, ayrı-ayrı yerlərdə bəzi insanların quldur hərəkətlər etməsini xatırlayıram. Cəmiyyət varsa, müəyyən problemlər də olmalıdır. Guya ABŞ-da problem yoxdur? Torpaq islahatı ilk dəfə Azərbaycanda həyata keçirilib. Onun nəticəsində bu gün kənd təsərrüfatının inkişafının şahidi oluruq. Bu gün rayonla şəhər arasında fərqi heç kim görə bilmir", S.Novruzov əlavə edib.

Komitə sədri bildirib ki, bu gün Azərbaycan təhlükəsizlik adasıdır: "Azərbaycanın səsi hər yerdən eşidilir. Təbii ki, Azərbaycanı gözü götürməyən qüvvələr olacaq. Biz onlara qarşı birlikdə mübarizə aparmalıyıq".



# Parlament "Məşğulluq haqqında" qanuna dəyişiklikləri təsdiqləyib

***"Məşğulluq haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisin bu gün keçirilən plenar iclasında III oxunuşda müzakirəyə çıxarılıb.***

"Unikal" xəbər verir ki, qanunun 14 maddəsinə 48 dəyişiklik təklif olunub. Dəyişikliklərdə məşğulluğun əlçatanlığının təmin edilməsi, peşə hazırlığı, ictimai işlərə cəlb olunan əhalinin daha geniş təbəqəsini əhatə etməsi və digər məqamlar öz əksini tapıb.

Belə ki, qanunun 4-cü maddəsinə edilən düzəlişlərə əsasən, 8 istiqamət üzrə məşğul şəxslərin dairəsi və məşğul şəxslərin elektron reyestrinin yaradılması müəyyən edilib. Keçən müddət ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Məşğul şəxslərin reyestri" yaradılıb və 25 elektron informasiya sistemi üzərindən bu kateqoriyadan olan şəxslərlə bağlı məlumatlar tam elektron şəkildə aidiyyəti dövlət orqanlarının elektron məlumat bazalarından əldə olunur. Bunu nəzərə alaraq, "Məşğul şəxslərin reyestrinin" formalaşdırılması ilə bağlı kağız daşıyıcıda məlumatların təqdim olunması ilə bağlı müddəalar ləğv olunur və müvafiq məlumatların müvafiq dövlət informasiya sistemlərindən əldə olunması təklif olunur.

Qanunun yeni redaksiyada verilən 20.2-ci maddəsində bildirilir ki, işsiz şəxslərin, habelə il ərzində müvafiq inzibati ərazi vahidi üzrə peşə hazırlığına cəlb olunan işsiz şəxslərin 20 faizindən çox olmamaq şərtilə işaxtaran şəxslərin peşə hazırlığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən ödənişsiz təşkil olunur, işaxtaran şəxslərin (bu maddədə göstərilən hal istisna olmaqla) peşə hazırlığı ödənişli əsaslarla həyata keçirilir.

Sənədə əlavə olunan yeni 20.5-ci maddədə qeyd edilib ki, "Peşə təhsili haqqında" qanunun 9.9-cu maddəsinə uyğun olaraq, peşə hazırlığı işaxtaran və işsiz şəxslərin əlavə təhsili, o cümlədən peşənin öyrənilməsi, ixtisasın artırılması, yenidən hazırlıq, yaşlıların təhsili və digər təhsil istiqamətləri üzrə müvafiq kurslarda altı ayadək müddətə həyata keçirilir.

Qanuna dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

***Hüseyn***

# Cahangir Əsgərovun yüz milyonluq yeyintisi üzə çıxır

## Necə olur ki, AZAL-ın zərəri və borcları artıqca ailə şirkətinin qazancı daha da artır?

***Avqustun 6-da koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformat müşavirəsindəki çıxışı zamanı Prezident İlham Əliyev bir sıra tənqidi fikirlər səsləndirib.***

Həmin tənqidi fikirlərin ünvanlandığı qurumlardan biri də "Azərbaycan Hava Yolları" QCS (AZAL) olub.

Dövlət rəhbəri deyib: "Bu gün dövlət büdcəsinin əsas mənbəyi neft-qaz sahəsidir. Digər şirkətlər - AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır? Bu, nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək? Dəmir yolu da, həmçinin. Yeni xətlər çəkilir, yeni vaqonlar, yeni lokomotivlər alınır, yüz milyonlarla manat vəsait ayrılır. Bəs, bunun səmərəsi haradadır? Axı, səmərə ilə işləməlidir..."

Ölkə başçısının bu sözləri AZAL-ın fəaliyyəti ilə bağlı uzun müddətdir mediada və ictimai rəydə səslənənən tənqidi fikirlərin əbəs olmadığını ortaya qoyur.

Çox uzağa getməyək. Elə iki ay öncə Azərbaycanın yerli KİV-də Gürcüstanın Batumi şəhərindəki "Grand Gloria" ("Böyük Qələbə") oteli ilə bağlı maraqlı məlumatlar yayıldı. "Azərbaycan Hava Yolları" QSC-nin sədri Cahangir Əsgərovun ailəsinə məxsus olduğu heç kimə sirr olmayan bu otellə bağlı qonşu ölkənin Ədliyyə Nazirliyindən əldə olunmuş reyestr çıxarışına görə 31 milyon dollar investisiya dəyəri olan "Grand Gloria" 2010-cu fevralın 16-da Tiflisin Krtsanisi rayonu, Gorgasali küçəsi 3 hüquqi ünvanında qeydiyyatdan keçmiş "Gloria LLC"nin mülkiyyətindədir.

Qeydiyyat sənədlərinə (404379338 saylı lisenziya) əsasən, nizamnamə kapitalı 3.393.000 lari olan şirkətin 50,76 faizi AZAL rəhbərinin həyat yoldaşı Zərifə Həmzəyevaya, 24,62 faizi onun qızı Cəmilə Əsgərovaya, qalan 24,62 faizi isə digər qızı Məlahət Əsgərovaya aiddir.

Məlumatlarda o da bildirilirdi ki, "Grand Gloria"-nın idarəçiliyi Türkiyə vətəndaşı Murat Tansuya həvalə olunub. 168 otaqlı otelin 100-dən artıq personalı var. Gürcüstan hökumətinin ilk başdan Əsgərovlar ailəsi qarşısında qoyduğu şərtə görə, otelin tikintisi (200 nəfər işçi çalışıb) və idarəçiliyində işçilərin 90 faizi Gürcistan vətəndaşları olmalıdır.

"Gloria LLC"nin saytında (http://gloria.ge/en/home) yer alan məlumatlara görə paytaxt Tiflisdəki "Tiflis Palace" oteli də AZAL rəhbərinin ailəsinə məxsusdur. Zərifə Həmzəyevaməxsusdur. Üstəlik, Gürcüstan paytaxtında, Vaxtanq Qorqasali küçəsi 3-də yerləşən "Tiflis Veranda" restoranının sahibləri də Əsgərovun ailə üzvləridir. Həmçinin Batumidə, Konstantin Qamsaxurdia küçəsi 8-də,

Acarıstan Konstitusiya Məhkəməsi binasının arxasında yerləşən "Golden Palace Batumi Hotel" və eyni adlı kazino da Əsgərovlarındır. Otel əvvəlcə Zərifə Həmzəyevanın mülkiyyətində olub, sonradan "Gloria LLC"nin idarəçiliyinə keçirilib.

Bundan əvvəl isə AZAL rəhbərtinin qızlarının Londonda da şirkətləri olduğu bildirilmişdi. Həmçinin Əsgərov ailəsinin nəzarətindəki "Gazelli Art House Limited"in aktivlərinin həcmi 31.495.464 funt sterlinq və ya 41 milyon dollar (1 oktyabr 2018-ci il) kimi açıqlanmışdı.

Ümumiyyətlə, Cahangir Əsgərovun ailə biznesi illərdən bəridir istər ölkə daxilində, istərsə ölkə xaricində inanılmaz sürətlə və miqyasla böyüyür. Bu biznesin hansı kapital hesabına yarandığı və qısa zamanda misli görünməmiş dərəcədə genişləndiyi isə daim mediada müzakirə mövzusu olaraq qalır.

Məsələ burasındadır ki, dünyanın ən bahalı aviaşirkətlərindən olan, eyni zamanda, hər il dövlət büdcəsindən külli miqdarda dotasiya alan, bu da azmış kimi, ölkənin hava nəqliyyatında inhisarçı mövqeyə malik AZAL hər il zərər etməkdədir. Məsələn, Əsgərov ailəsinin biznes sektorunda ciddi "uğurlar" qazandığı bir vaxtda - 2018-ci ildə "Azərbaycan Hava Yolları" QSC nə az, nə çox düz 208 milyon manat ziyan etmişdi. Bir sözlə, əndrabadi situasiya yaranıb: AZAL ilbəil ziyan edir, lakin bunun əvəzində AZAL "şef"inin ailəsi biznesini böyüdür, həm ölkə daxilində, həm də ölkə xaricində ciddi kapital tələb edən sərmayələr yönəlir. Bu sərmayələrin qaynağı nədir? Həmin suala isə yerli KİV heç cür ağlabatan cavab ala bilmir.



Müxtəlif qaynaqlardan əldə edilən məlumata görə, hazırda AZAL-ın ümumi borcu 1 milyard manatdan çoxdur. Bu qədər borcun necə yarandığı həqiqətən maraq doğurur: adın dünyanın ən bahalı aviaşirkətlərindən biri kimi hallansın, hər il dövlət büdcəsindən on milyonlarca dotasiya alasan, ölkənin hava nəqliyyatında inhisarçı mövqelərə malik olasan və... zərər edəsən?!

Burada iki nüans ortaya çıxır. Birinci, qurumda qeyri-şəffaflıq hökm sürür, hesabatlılıq zəifdir, nəticədə gəlirlər nəinki xərcləri qarşılamır, üstəlik, borca meydan açır.

İkinci, AZAL doğru idarə edilmir. Müasir idarəçilik prinsiplərindən uzaqdır, bu halda da nətcə dəyişmir: gəlirlərin xərcləri ödəməməsi azmış kimi rəqəmlərlə ifadəsi ağır borclara gətirib çıxarır.

Bəlkə başqa səbəblər də sadalamaq olar. Lakin bütün hallarda sonluq eynidir: AZAL borc bataqlığında çapalayır, üstəlik, bu borc bataqlığı ilbəil dərinləşir. Ancaq ilgincdir ki, qurum rəhbərinin ailə biznesi həmin borclara, ildən ilə artan zərərə baxmayaraq böyüyür, genişlənir. Daha bir fakt : Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu tərəfindən ödənilmiş vəsaitlər hər bir təşkilat üzrə qaytarılması nəzərdə tutulan vəsaitləri üzrə məlumatların təhlilindən görünür ki, dövlət təminatı ilə alınan borcların qaytarılması üçün 2019-2024-cü illər ərzindən dövlət büdcəsindən 2 milyard 960,8 milyon manat vəsait ayrılacaq. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Hesablama Palatasının verdiyi rəydən aydın olur ki, 2018-ci ildə ödənişin məbləği 265,1 milyon manat olub. 2019-cu ildə isə həmin göstəricinin 388,6 milyon manat olacağı proqnozlaşdırılırdı. Sözügedən 123,5 milyon manatlıq artıma səbəb isə 3 dövlət müəssisəsi olub. Bunlardan biri də məhz "Azərbaycan Hava Yolları" QSC idi. Onun ödəməli olduğu borcun 101,3 milyon manatdan 160 milyon manata yüksələcəyi gözlənilirdi. Yəni əvvəlki illə müqayisədə müşahidə edilən 123,5 milyon manat məbləğində artımın az qala yarısı - 47,5 faizi Cahangir Əsgərovun rəhbərlik etdiyi qurumun payına düşürdü.

Belə arzuedilməz statistika fonunda AZAL "şefi"nin ailə biznesinin dayanmadan necə çiçəkləndiyi, "qol-budaq atdığı" həqiqətən düşündürücüdür. Artıq sözügedən mövzuda suallara ağlabatan cavab vermək, şübhələrə doğru-düzgün aydınlıq gətirmək zamanı çoxdan çatıb...

***Orxan Həsənli***

# "Qarabağ məsələsini siyasi düşüncələrimizə qurban verməməliyik"

## Əhməd Şahidov: "Hakimiyyət əleyhinə çıxışlarda fəallıq nümayiş etdirən xaricdəki müxalif şəxslər Dağlıq Qarabağ həqiqətləri barədə beynəlxalq təşkilatlarda bir kəlmə də söyləmirlər"

***Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan illərdir ki, fəaliyyətini davam etdirməsinə bahmayaraq görünən odur ki, artıq xarici ölkələrdəki səfirliklərin qarşısında keçirilən aksiyalar, səsləndirilən şüarlar Qarabağ həqiqətlərimizin dünyaya çatdırılmasında o qədər də təsiredici gücə malik deyil.***

Baxayaraq ki, həmin aksiyalarda söylənilən fikirlər, Xocalı soyqrımını əks etdirən fotolar, mədəni tarixi abidələrimizə tutulan divan barədə materiallar erməni vəhşiliyinin əsl sübutudur. Son vaxtlar diaspor təşkilatlarının yığıncağında da müzakirə olunan məsələlərdən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə yeni formada çatdırılması ilə bağlıdır. Bəs görəsən, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri beynəlxaq ictimaiyyətin diqqətinə hansı formada çatdırmaq daha səmərəlidir? Bunun üçün hansı işlər görülməlidir?

Elə bu sualımıza illərdir ki, Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ münaqişəsi barədə xarici ölkələrdə, beynəlxalq təşkilatarda, beynəlxalq forumlarda fəal iş aparan, çıxışlar edən Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidovla söhbətimizdə aydınlıq gətirməyə çalışdıq.

Ə. Şahidov "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanın Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında son illərə nisbətən gördüyü işlərdə hazırda xeyli irəliləyiş var. Buna Azərbaycan dövlətinin, eləcə də diaspor təşkilatlarının, vətəndaş cəmiyyəti institutlarının apardığı işlər, xarici KİV-dəki çıxışları nümunə göstərmək olar: "Amma nəzərə almaq lazımdır ki, erməni diasporu da dayanmır, situasiyaya uyğun effektli addımlar atır. Bu gün Azərbaycanın xarici ölkələrindəki diaspor təşkilatları Dağlıq Qarabağ həqiqətləri ilə bağlı xarici ölkələrdəki Ermənistan səfirlikləri qarşısında etiraz aksiyaları, tədbirlər keçirir. Amma düyada, xüsusilə Avropada siyasi formasiya dəyişməkdədir. Münaqişələr barədə münaqişə tərəfləri yox, üçüncü, dördüncü ölkələrin, neytral tərəflərin məsələ barədə danışması, fikir bildirməsi daha effektli olur. Dağlıq Qarabağ münaqişəsi ilə ilə bağlı Ermənistan tərəfi işğalçı dövlət olsa belə, öz mənafeyi baxımından danışır, Azərbaycan tərəfi isə bu həqiqətləri olduğu kimi dünyaya çatdırmağa cəhd edir. Üçüncü ölkələr, Avropa ölkəsi, beynəlxalq təşkilatlar hər ölkənin mövqeyinə subyektiv yanaşır. Ona görə də bu çox da səmərə vermir. Dağlıq Qarabağ həqiqətləri barədə çıxışlarımıza tarixi sübutlar təqdim etmək və sair bunlar hamısı çox vaxt və enerji aparır. Çünki, Ermənistan tərəfi də bizə ittihamlar irəli sürür ki, bu sübutlar saxtadır, tarixi saxtalaşdırmağa çalışır. Ona görə də, ən effektli üsul lobbiçilikdir. Bunu həmin ölkələrdəki tanınmış xadimlərin, jurnalistlərin, bloqerlərin vasitəsilə etmək lazımdır. Bu zaman daha çox yol qətmiş oluruq, hada çox məqsədə çatırıq. ATƏT də və sair nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunan şəxslərin dili ilə Dağlıq Qarabağ həqiqətlərinin səslənməsi daha yaxşı olardı. Bu zaman biz daha çox məqsədə çatmış oluruq. Çox təəssüf ki, biz bu məsələdə ermənilərdən bir qədər geridəyik. Hansı ki, biz Avropa Şurasında, ATƏT-də çıxış etdikdə Ermənistan dövlətinin nümayəndəsi deyil, başqa bir Avropa ölkəsinin nümayəndəsi bizə cavab verir, bizi ittiham edir. Bizi haqlı olduğumuz zaman haqsız duruma salır. Bu bizə daha çox psixoloji təsir edir. Çalışmalıyıq ki, Azərbaycan dövləti olaraq daha çox dost qazanaq".



Ə.Şahidov deyir ki, bəzən bu məsələyə də bir qədər saf yanaşırıq. Hər ölkədən özümüzə qarşı ədalətli yanaşma tələb edirik: "Bəzən belə fikirləşirik ki, biz haqlı olduğumuz üçün bütün dövlətlər də bizi müdafiə etməyə borcludur. Amma unutmamalıyıq ki, hər dövlətin öz marağı var. Əksər ölkələr Dağlıq Qarabağ münaqişəsinin dərinliyinə varmır, maraqlanmır. Bir danimarkalı üçün Dağlıq Qarabağ münaqişəsi heç bir maraq kəsb etmir. Heç bir araşdırma aparmır, tarixi öyrənmir. Ona görə də, biz çalışıb bu həqiqətlər barədə onları məlumatlandırmalıyıq".

Müsahibimiz bununla yanaşı, Dağlıq Qarabağla bağlı həqiqətlərin dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların diqqətinə çatdırılmasında ənənəvi yolumuzu davam etdirməli olduğumuzu söyləyir. Həmsöhbətimiz deyir ki, xarici ölkələrimizdəki səfirliklərimiz Azərbaycanın bir parçası hesab olunduğundan, milli məsələlərdə xaricdə yaşayan azərbaycanlılar səfirliyimizin qarşısında Dağlıq Qarabağ həqiqətlərini əks etdirən fotoları nümayiş etdirməli, bu torpaqların bizim dədə-baba yurdumuz olduğunu bəyan etməlidirlər: "Xaricdə yaşayan Azərbaycanlılar bu məsələlərdə fəal olmalı, öz qalamızın qarşısını boş qoymamalıdır. Çünki erməni xisləti elədir ki, onlar bizim sakit dayandığımızı görüb səfirliyimizin qarşısına hücum çəkəcək, öz etirazlarını yumurta atmaq, bayraq cırmaq kimi etirazedici addımlarla davam etdirəcəklər. Amma bununla da fəaliyyətimiz məhdudlaşmamalıdır. Bu gün səfirliyin qarşısında etiraz aksiyası keçirdim, bayrağımızı dalğalandırdım, gedib evimdə rahat yatım fikrindən uzaq durmalıyıq. Pərdə arxasında da fəaliyyətimizi davam etdirməliyik".

Hüquq müdafiəçisi deyir ki, xaricdə yaşayan azərbaycanlıların, diaspor təşkilatlarının bir çatışmayan xüsusiyyəti də yaşadığı ölkələrin vətəndaşları, millətinin nümayəndələri ilə sıx təmasda olmamalarıdır: "Bu bizim çatışmayan xüsusiyyətimizdir. Almaniyada, Danimarkada yaşayan azərbaycanlıların ətrafında əsasən elə azərbaycanlılar olur. Halbuki biz haqq səsimizi dünyaya çatdırmaq üçün yaşadığımız ölkələrin vətəndaşları, milliyəti ilə sıx ünsiyyətdə olmalıyıq. Ermənilər bu məsələdə bizdən bir neçə addım öndədirlər. Onların "qılığa girmək" xüsusiyyətləri bu məsələdə də işlərinə yarayır. Mən Avropa ölkələrində olduqda öz azərbaycanlılarımızla görüşdə dəfələrlə şahid olmuşam ki, onların ətrafında əsasən öz millətimiz olur. Görüşə gələndə özləri ilə nə alman, nə fransız dostalarını, "girl friend"lərini gətirmirlər. Çox təəssüf ki, xaricdə yaşayan azərbaycanlılar yaşadıqları ölkədə cəmiyyətin içinə nüfuz edə bilmir, həmin ölkədəki ən tanınmayan mətbu orqanda söz demək imkanı əldə edə bilməyiblər. Mən belə hesab edirəm ki, xaricdə yaşayan diaspor təşkilatı nümayəndələrinin yaşadıqları ölkənin mətbuatı ilə əlaqələri olmalı, ən azı həmin mətbu orqanlarda bir jurnalist dostları olmalıdır ki, onun vasitəsilə Dağlıq Qarabaq həqiqətləri ilə bağlı öz fikirlərini yaşadıqları cəmiyyətə çatdıra bilsinlər. Xaricdəki soydaşlarımızın yaşadıqları ölkəni ictimai həyatına nüfuz etmək, təsir etmək imkanı olmalıdır. Beynəlxaq təşkilatların yerləşdiyi ölkələr var ki, o ölkələrdə yaşayan azərbaycanlılar həmin təşkilatlara daxil belə olmur, tədbirlərinə, forumlarına qatılmırlar. AŞPA-nın binası qarşısında mitinq keçirtməklə iş bitmir. Çox təəssüf ki, xarici ölkələrdə yaşayan müxalif azərbaycanlılar da bu milli məsələlərdə susurlar. Hakimiyyət əleyhinə çıxışlarda fəallıq nümayiş etdirən xaricdəki müxalif şəxslər Dağlıq Qarabağ həqiqətləri barədə beynəlxalq təşkilatlarda bir kəlmə də söyləmirlər. Sanki onları maliyyələşdirən fondlar bu məsələdə danışmağa embarqo qoyub. Onlar ancaq Azərbaycan hakimiyyətini söyməklə, tənqid etməklə kifayətlənirlər. Halbuki milli hissi olan hər bir azərbaycanlı harda yaşamasından, siyasi düşüncəsindən asılı olmayaraq Dağlıq Qarabağ məsələsində susmamalıdır. Mən Emin Hüseynovla dəfələrlə söhətdə də ondan xahiş etmişəm ki, girovlarla bağlı çıxışımda mənə tədbirə qatılaraq dəstək versin. Heç birində gəlib iştirak etməyib. Milli hisslərimizi siyasi düşüncələrimizə qurban verməməliyik".

Ə. Şahidov deyir ki, çox təəssüf ki, Avropa ölkələrində vətəndaşların münaqişələrə münasibətinə də qadağalar var: "Onlar hesab edir ki, münaqişələr dövlətlərarası problemdir. Vətəndaşlar iki dövlət arasında münaqişələrə qarışmamalıdırlar, onlar daha çox sərbəst toplaşmaq, fikir və söz azadlığı uğrunda mübarizə aparmalıdırlar. Bununla sanki, milli hissi, milli dəyəri boğmağa çalışırlar. Amma mən hesab edirəm ki, damarında azərbaycanlı qanı axan heç bir şəxs Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında susmamalıdır. Xüsusilə yaşadıqları ölkələrin dilini yüksək səviyyədə bilən, orada təhsil alan gənclərimiz bu təbliğatda iştirak etməlidirlər!".

***Z.Məmmədli***

# İRAN ƏTRAFINDA HƏLQƏ DARALIR

## ABŞ-ın “qara üzü” niyə İran təmsilçisi oldu?

***ABŞ-ın İran üzrə Xüsusi Nümayəndəsi Brayan Huk vəzifəsindən istefa verib. Bunu Dövlət katibi Mayk Pompeo açıqlayıb.***

Pompeo bildirib ki, Brayan Hukk ABŞ-ın İrandakı xüsusi nümayəndəsi və Dövlət Departamentinin Baş müşaviri olaraq istefa etmək qərarına gəlib. Dövlət katibi onun yerinə gətiriləcək şəxsin adını da açıqlayıb: ABŞ-ın Venesueladakı xüsusi nümayəndəsi Eliott Abrams. Abrams bundan sonra Venesuela ilə bərabər İranın da xüsusi nümayəndəsinin vəzifəsini icra edəcək.

Hukun istefa ərizəsinin mürəkkəbi qurumamış yerinə dərhal başqa birisinin təyinatı onun öz xoşuyla vəzifəsini tərk etmədiyindən, bu qərarın gözlənilməz olmadığından və kadr dəyişikliyinin əvvəlcədən planlaşdırıldığından xəbər verir və istər-istəməz bəzi suallara yol açır: Bu dəyişikliklərlə ABŞ nəyə nail olmaq istəyir? Əvvəlki təmsilçinin nəyi Tramp hakimiyyətini qane etmirdi ki, onun ağır işini onsuz da Venesuela problemi ilə başını qaşımağa vaxt tapa bilməyən yaşlı bir insanın çiyninə yükləyir?

Zənnimizcə, bu suala ən doğru cavabı hər iki diplomatın keçmişinə və siyasi cizgilərinə nəzər salaraq tapa bilərik.

İlk öncə, istefaya gedən Brayan Hukun dosyasına göz gəzdirək.

Brayan Huk 2018-ci ildə İrana tətbiq olunan sanksiyalara nəzarət etmək məqsədilə yaradılan “İran işçi qrupu”nun başına gətirilmişdi. Onun rəhbərlik etdiyi qrupun əsas vəzifələrindən biri də bu sanksiyalara əməl etməyən ölkələrə qarşı atılacaq zəruri addımları müəyyənləşdirməkdi.

Brayan Huk bu vəzifəyə təsadüfi seçilməmişdi. O, Tramp hakimiyyəti dövründə ABŞ Dövlət Departamentinin ilk rəhbəri Reks Tillerson tərəfindən qurumun Siyasi Planlaşdırma İdarəsinin rəhbəri vəzifəsinə gətirilmiş və ölkənin xarici siyasətinin müəyyənləşdirilməsində əsas fiqurlardan biri olmuşdu. Peşəcə inşaat mühəndisi və iş adamı olan Tillersonun diplomatik yetərsizliyi Huk tərəfindən kompensasiya edilirdi, dolayısıyla bu adam ABŞ xarici siyasətinin müəyyənləşdirilməsində bir nömrəli şəxs kimi tanınırdı.

Di gəl ki, Reks Tillersonun dövlət katibliyi “bildirçinin bəyliyi” kimi uzun sürməyəcək, vəzifəyə təyin olunduqdan bir neçə ay sonra Trampla bəzi məsələlərə yanaşmada fərqli düşündükləri ortaya çıxacaqdı. Tillerson xüsusilə Şimali Koreya və Əfqanistan məsələsində Trampın sərt siyasətini bəyənmir, ona açıq-aşkar qarşı çıxırdı. Prezidentlə dövlət katibi arasındakı ziddiyyət o qədər dərin idi ki, Tillersonun Şimali Koreya lideri Kim Çen İn ilə sonuncu görüşü başa çatmamış Trampın bir Tvitter paylaşımı ilə bütün danışıqları puç etmiş və dövlət katibini geri çağırmışdı. Həmin tvitter paylaşımında eynilə belə deyilirdi: “Kiçik raket adamla görüşərək çox vaxt itirdiyini söyləmişdim. Enerjinə qənaət et, Reks, biz lazım olanları edəcəyik!”

Bu paylaşımdan sonra ABŞ mətbuatında Tillersonla Tramp arasında ziddiyyətlərin yaşandığı, dövlət katibinin istefaya hazırlaşdığı və Pentaqon yetkililəri ilə söhbətində prezidenti




“axmaq” adlandırdığı xəbərləri yayılmışdı. İddialarla bağlı mətbuata açıqlama verən Tillerson bütün deyilənləri təkzib etsə də, bir neçə aydan sonra həqiqətən də istefaya göndərilmişdi. Həm də öz istəyinin xilafına olaraq.

Tillersondan sonra onun yerinə Mayk Pompeo gəlmiş, beləcə Brayan Hukun da ABŞ xarici siyasətindəki mövqeyi sarsılmışdı. O, Dövlət Departamentinin Siyasi Planlaşdırma İdarəsinin rəhbəri vəzifəsindən uzaqlaşdırılmış və ABŞ-ın İran üzrə təmsilçisi vəzifəsinə gətirilmişdi.

ABŞ Dövlət Departamentinin rəsmi saytındakı məlumata görə, Brayan Huk ABŞ-ın keçmiş prezidenti Corc Buş hökuməti zamanı Dövlət Departamentinin Beynəlxalq Rejimlər Dairəsinin məsul şəxsi, habelə Ağ Evdəki Birləşmiş Millətlər Təşkilatının (BMT) Daimi nümayəndəsi olmuş və Ədliyyə Nazirliyində rəhbər vəzifələrdə çalışmışdı.

Reuters xəbər agentliyinin məlumatına görə, Huk 2018-ci ildə ABŞ-ın Avropa və Asiya müttəfiqlərinin İrana neft idxalını dayandırmasında öz diplomatik bacarıqları ilə mühüm rol oynamışdı. Bununla belə, Tramp administrasiyasının Hukun fəaliyyətindən o qədər də məmnun olmadığı sezilirdi. Səbəb isə çox sadədir: ciddi diplomatik təcrübəyə və bacarığa malik olmasına baxmayaraq, o, Tramp və komandası qədər şahin görüş birisi deyil. ABŞ xarici siyasətinə ciddi təsir imkanlarının olduğu Tillerson dövründə aparılan siyasətin Tramp administirasiyası tərəfindən qəbul olunmaması da bunu sübut edir. Əslində Hukun indiki vəzifəsindən uzaqlaşdırılması qərarı Tillersonun istefaya göndərilməsiylə verilmişdi. Kim bu adamın yerinə olsa, Tillersondan qabaq şələşüləsini yığışdırıb Ağ evdən uzaqlaşardı. Hər halda ölkə diplomatiyasının gizli 1 nömrəlisindən İran məsələsi kimi bataqlığın içinə atılması Huk üçün önəmli mesaj ehtiva edirdi.

Onun yerinə gətirilən Eliott Abrams isə tam Tramp təfəkkürdə olan birisidir. Hətta ona ABŞ xarici siyasətinin “qaranlıq üzü” də deyirlər. Öz aqressiv mövqeyi ilə İranla bağlanan nüvə sazişinə ilk qarşı çıxanlardan olan Abrams ABŞ-ın demək olar ki, bütün savaşlarında ön planda yer alıb. O, Suriyaya hərbi müdaxiləni dəstəkləməsi və ABŞ-ın keçmiş prezidenti Barak Obamanı Kuba ilə münasibətləri normallaşdırmaq siyasətinə görə sərt tənqidi ilə yadda qalıb.

Elliot Abramsın adı ilk dəfə 1980-ci illərdə Ronald Reyqanın Latın Amerikası ölkələrində kommunizmlə mübarizə siyasətində əsas məsul şəxslərdən biri kimi gündəmə gəlib. Apardığı siyasətlərdə insan haqlarının pozulması və xeyli insan tələfatı ilə nəticələnməsi teztez beynəlxalq təşkilatlarda mübahisələrə səbəb olub. ABŞ-ın hazırladığı El Salvador ordusunun 1981-ci ildə El Mozotedə 1000-ə yaxın mülki şəxsin qətliamı ilə nəticələn hücumunun planlaşdırılmasında Elliot Abramsın bir nömrəli şəxs kimi adı hallanır.

Abrams İran məsələsinə də yad biri deyil. İran-İraq müharibəsində hər iki tərəfə silah satmaq qalmaqalının əsl müəllifi bu adamdır. İddialara görə, həmin silah ticarətindən əldə edilən maliyyə ilə dünyanın bir çox yerində kontra-partizanlarına göndərilirdi. İndiki terminlərlə desək, beynəlxalq terror dəstəklənirdi. Maraqlıdır ki, Abramsın özü də daha sonra bu ittihamları və dövlət orqanlarını aldatdığını ABŞ Konqresinə verdiyi hesabatda qəbul etmiş və bu səbəbdən öz vəzifəsindən qovulmuşdu.

Elliot Abrams daha sonra Reyqanın varisi, prezident Corc Buş tərəfindən bağışlanılmış və Ağ Evə baş xarici siyasət müşaviri kimi geri qayıtmışdı. 2001-ci il 11 sentyabr hücumlarından sonra təcavüzkar “terrorla müharibə” siyasətinin əsas tərəfdarlarından biri kimi ün qazanmışdı. Halbuki, həmin terror aktının kim tərəfindən planlaşdırıldığı indiyədək məlum deyil. Bu terror aktının ABŞ-ın Yaxın Şərq və Asiya ölkələrinə hərbi təcavüzlərinə bəhanə yaratmaq üçün törədildiyi indi daha çox ekspertlər tərəfindən qəbul edilir.

BBC bu adam barəsində yazır: “Abrams xaricdə Amerika maraqlarına uyğun olaraq “demokartiyanı təşviq etmək” ideologiyasına inanan və öz fikirlərini tez-tez media səhifələrinə daşıyan neo-mühafizəkar şahin kimi tanınır. Bu ideologiyaya xüsusilə Reyqan və Buş ata-oğul dövrlərində üstünlük verilirdi”.

Abrams 2018-ci ilin iyun ayında ABŞ-ın Beynəlxalq Münasibətlər Şurasına yazdığı bir məqalədə özünün “demokratiyanın təşviqi” nəzəriyyəsinə bu cür aydınlıq gətirir: “Bu, dünya rəhbərliyinin açarı deməkdir. Bütün ABŞ prezidentləri “demokratiyanın təşviqi”ni Corc W. Buş administrasiyası kimi, öz xarici siyasətlərinin əsas prioritetinə çevirə və ya Prezident Obamanın və Trump administrasiyasının etdiyi kimi buna məhəl qoymaya bilər. Amerika xalqı demokratiyanı təşviq etmək ideyasından üz döndərmədi və ABŞ-ın daha müasir, demokratik ölkə olmasından bəhrələndiyini unutmadı.”

Bir sözlə, ABŞ-ın İran üzrə yeni təmsilçisi 1980-ci ildən bəri Vaşinqtonun apardığı imperialist müharibələrin əsas ideya rəhbəridir. Onun xüsusilə Beyrutdakı partlayışdan sonra bu vəzifəyə gətirilməsi İran üçün ciddi siqnaldır. Görünən budur ki, İran ətrafında həlqə tədricən daralır və yaxın günlərdə Fars körfəzi yenidən qaynaya bilər(strateq.az).

***Heydər Oğuz***

## “Aİ və Türkiyə arasında yaxşı münasibətlər hamının marağındadır” – Borrell



***“Avropa İttifaqı (Aİ) və Türkiyə arasında yaxşı münasibətlər hamının marağındadır”.***

Bunu Aİ-nin Xarici Siyasət və Təhlükəsizlik Məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell “Twitter”də bildirib.

“Biz fikir ayrılıqlarını dialoq yolu ilə həll etməli və birtərəfli hərəkətlərdən çəkinməliyik”, - deyə C. Borrell vurğulayıb. Aİ-nin Ali Nümayəndəsi qeyd edib ki, avqustun sonunda Berlində keçiriləcək Aİ ölkələrinin Xarici İşlər nazirlərinin qeyri-rəsmi görüşündə Türkiyə ilə münasibətlər müzakirə olunacaq.

Xatırladaq ki, dünən Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu və C. Borrell Maltada görüşüblər. Tərəflər Aİ və Türkiyə arasında münasibətlər, Liviya və Suriya münaqişələri, habelə Şərqi Aralıq dənizindəki vəziyyətlə bağlı müzakirələr aparıblar.

**_Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi_**




# Dünya erməniliyi ilə mübarizə mərkəzi yaradılmalıdır!

## Nəzakət Məmmədova: "Bu məsələdə həm xarici ölkələrdəki Azərbaycanın diplomatik nümayəndəliklərinin, həm diaspora təşkilatlarımızın, eləcə də xaricə qısamüddətli tədbirlərdə iştirak etmək üçün səfərlərə yollanan vətəndaşlarımızın üzərinə bir yük düşür"

***Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması Azərbaycanın xarici siyasətinin prioritet xətti olsa da, hələ də bu münaqişə barədə beynəlxalq təşkilatlar tərəfindən ikili münasibət sərgilənir. Mötəbər beynəlxalq təşkilatlar olan BMT, AŞ, NATO Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, o cümlədən, aparıcı Qərb və Avropa dövlətləri bu işğal faktını rəsmən tanıyıblar. Amma buna rəğmən BMT-nin qəbul etdiyi 4 qətnamə isə yerinə yetirilmir.***

Azərbaycan ən yüksək tribunalardan istifadə etməklə Qarabağ həqiqətlərini dünyaya çatdırmağa davam edir, bunun üçün xüsusi qurumlar, təşkilatlar yaradılıb, lobbi təşkilatları bu işlə davamlı məşğul olurlar. Gördüyümüz işlər ideal olmasa da, Azərbaycan dövləti artıq öz haqq səsini bütün dünyaya duyurub, işğal faktını təsbit edirib. Ancaq beynəlxalq qurumlar, super güclər yenə də torpaqlarımızın işğaldan azad edilməsi üçün əməli fəaliyyət göstərmirlər. Şübhəsiz ki, beynəlxalq aləmin münaqişənin həllində maraqlı olmaması təsadüfi deyil. Qarabağ regionu idarə eləməyin ən uyğun yoludur, heç bir güc bunu əldən vermək istəmir. Amma Ermənistanın işğalçı siyasətinə göz yuman super güclər, beynəlxalq təşkilatlar onu da unutmamalıdırlar ki, hər zaman Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli tərəfdarı olan Azərbaycan dövləti və Azərbaycan xalqı bu səbri uzun müddət göstərə bilməz. Tovuz döyüşlərindən sonra xalqımızın keçirdiyi orduya dəstək mitinqi Azərbaycan xalqının öz dədə-baba torpaqları olan Qarabağdan heç vaxt vaz keçməyəcəyinin, lazım gələrsə canı və qanı bahasına işğal altındakı torpaqlarımızı azad edəcəyinin bariz nümunəsi idi. 30 il keçməsinə baxmayaraq kiçiyindən böyüyünədək ürəyi vətən həsrəti ilə döyünən Azərbaycan xalqı öz torpaqlarını yağı tapdağı altında qoymayacaq. Bir sözlə, münaqişənin hərbi yolla həlli hər gün üçün aktiul və qaçılmazdır. Amma Azərbaycan Ermənistan Silahlı Qüvvələri tərəfindən atəşkəsin tez-tez pozulmasına rəğmən münaqişənin sülh yolu ilə həllinə çalışır. Politoloqlar da Azərbaycanın yürütdüyü bu siyasətin, seçdiyi bu yolun beynəlxalq təşkilatlar tərəfindən dəstəklənməli olduğunu, işğalçı siyasətinə son qoymaları üçün Ermənistana qarşı müəyyən sanksiyalar həyata keçirilməli olduğunu söyləyirlər.



Politoloq Nəzakət Məmmədova "Unikal" qəzetinə müsahibəsində bildirir ki, informasiya müharibəsinin davamlı şəkildə aparılması çox vacibdir: "Bu iş ayrı-ayrı dövrlərdə, ilin müəyyən günlərində, məsələn, 26 fevral Xocalı soyqırımı günündə olduğu kimi bir neçə gün kampaniya şəklində yox, ilboyu davam etməlidir. Hər gün biz həmin həqiqətlərin çatdırılması üçün işlər görməliyik. Bu məsələdə həm Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin, həm diaspora təşkilatlarımızın, eləcə də qısamüddətli tədbirlərdə iştirak etmək üçün xaricə səfərlərə yollanan vətəndaşlarımızın üzərinə bir yük düşür. Hər bir azərbaycanlı bunu özünün müqəddəs işi hesab etməlidir. Ölkə hüdudlarından kənara addımını atan şəxsin hər zaman beyninin, ürəyinin bir küncündə bu ideya olmalıdır ki, fürsət düşən hər bir məqamda Azərbaycan həqiqətlərini və Ermənistanın məkrli siyasətini ifşa etsin. Bunun üçün də insanlar xarici dil bilməli, öz tariximizi və ölkəmizin bugünkü siyasətini, eləcə də bizə münasibətdə dünyanın apardığı siyasətdən məlumatlı olmalı, ən əsası isə vətənpərvər olmalıdır. Yeri gələndə, düşmənin öz siyasi hiylə və üsullarından onun özünə qarşı istifadə etməliyik. Dünya şöhrətli rejissor və prodüsserlərin iştirakı ilə bədii filmlər çəkilməli, ingilis və rus dillərinə tərcümə olunaraq insanların ürəyinə və beyninə, həssas duyğularına xitab edə biləcək sənət əsərləri yaradılmalıdır. Yüz minlərlə, milyonlarla baxış toplaya biləcək filmlər bu baxımdan çox faydalı olardı. Hər bir azərbaycanlı xaricə gedərkən mütləq disklər, kitablar götürməli və fürsət yaranan zaman onu xarici tanışlara verməlidir. Ölkənin təbliğatı naminə xaricə aparılan yüklər hava limanında çəkiyə hesablanmamalı, AZAL təyyarələrində Qarabağ həqiqətlərinə dair bir neçə xarici dildə broşürlər olmalıdır. Bakıda beynəlxalq tədbirlər zamanı da Qarabağ gecəsi keçirilməli, xaricilərə həqiqətlərimiz anladılmalı, broşülər, kitablar paylanmalıdır.

Quba soyqırımı muzeyinə pulsuz avtobus turları təşkil edilməli, bunu edən turist şirkətlərinə vergi güzəştləri edilməlidir. Mütləq, qısa bir zamanda Qarabağ muzeyi yaradılmalıdır. Güllələnmiş heykəllərdən tutmuş bütün müharibə tarixini əks etdirən eksponatlar, şəhidlər haqqında məlumatlar və s. orada toplanmalıdır. Muzeyə virtual tur da təşkil olunmalıdır ki, hər hansı bir xarici vətəndaş Azərbaycana gəlmədən də qiyabi muzeyə baxıb məlumat əldə edə bilsin. Xarici dil bilən alimlərin dünyanın nüfuzlu televiziyalarında çıxışları təşkil olunmalıdır. Bu, Azərbaycan vətəndaşlarının və ya xaricdə yaşayan azərbaycanlıların bilavasitə öz üzərlərinə düşən vəzifələrin cüzi bir qismidir. Azərbaycanla bağlı universitetlərdə, tədqiqat mərkəzlərində xarici ölkə vətəndaşları alimlər, tələbələr, tədqiqatçılar üçün təqaüd proqramları elan edilməli, əcnəbilər də bizim həqiqətlərin dünyaya çatdırılması işinə cəlb olunmalıdır. Onların Azərbaycana gəlib rahat materiallar toplayaraq işləməsi üçün hər cür şərait yaradılmalı, bütün xərcləri ödənməlidir. Xaricilərin öz dilindən bizim həqiqətlərin səslənməsi də səmərəli nəticələr əldə etmək üçün vacibdir. Saxta erməni "soyqırımı"nı təkzib edən minlərlə kitab yazılıb. Amma məşhur avstriyalı alim Erix Fayqlın kitabı xüsusi diqqət cəlb etdi. Biz də dünyanın məşhur türkoloq alimlərini, tarixçiləri, nüfuzlu dairələrdə əlaqələri olan şəxsləri bu işə cəlb etməliyik. Əgər varsa, çox gözəl, yoxdursa, yetişdirməliyik. Ən doğrusu isə odur ki, Dünya Erməniliyi ilə Mübarizə Mərkəzi yaradılmalıdır. Bütün işlər vahid bir mərkəzdən idarə olunmalıdır. Mərkəz birbaşa dövlət başçısına, yaxud Birinci vitse-prezidentə tabe olmalı, ona hesabat verməlidir".

Qeyd edək ki, 1988-ci ildə yenidən Azərbaycana qarşı torpaq iddiasına düşən Ermənistanın işğalçı siyasəti nəticəsində 20 faiz torpaqlarımız işğal olunub, 1 milyondan artıq soydaşımız uzun illərdir məcburi köçkün həyatı yaşayır. Bu proseslərdə ermənilər Azərbaycan xalqına məqsədli şəkildə soyqırımlar, kütləvi qırğınlar törədiblər. Qarabağda baş verənlərin Azərbaycana və xalqımıza qarşı dəhşətli və beynəlxalq cinayətlər olduğunu sübut etmək üçün mənfur düşmənin əməllərini tarixə istinad etməklə sadalamaq kifayətdir. 1988-ci ilin noyabr ayında Quqark rayonu ermənilər tərəfindən yandırılıb, orada yaşayan 21 azərbaycanlı öldürülüb. Xocalı faciəsi dünya miqyasında 20-ci əsrin ən qəddar soyqırımı kimi tarixə düşüb. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Xocalı şəhərinin işğalı zamanı bir gecədə dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülüb, yüzlərlə insan əsir və girov götürülüb, itkin düşüb. 1992-ci il aprelin 8-də ermənilər Kəlbəcərin Ağdaban kəndinə hücum edərək 67 nəfəri qətlə yetiriblər, 17 insan diri-diri yandırılıb.

Bundan başqa, 1992-ci il 25-26 yanvarda keçirilən Daşaltı əməliyyatında ermənilər 90 nəfərdən artıq hərbçimizi mühasirədə kütləvi şəkildə öldürüblər, onlarla əsgər hələ də itkin düşmüş sayılır. Təbii ki, düşmənimizin xalqımıza qarşı törətdiyi cinayətləri sadalamaqla bitməz. Ermənilərin işğalçılıq siyasətindən qaynaqlanan müharibə zamanı Azərbaycan 20 mindən çox şəhid verib. Bu gün də Azərbaycan ordusu atəşkəs rejimi olmasına baxmayaraq Erməni silahlı qüvvələrinin təxribatı nəticəsində şəhid verməkdədir. Düşmən layiqli cavab atəşi ilə susdurulsa da, bu cür təxribatlar davam etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

## İcra hakimiyyəti başçısı nümayəndəsinin cinayət işi məhkəməyə göndərildi

***Koronavirus pandemiyasının yayılmasının qarşının alınması məqsədi ilə ölkəmizdə elan edilən xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.***

Bu barədə Teleqraf.com-a Goranboy rayon Prokurorluğundan bildirilib.

Məlumata görə Goranboy rayon prokurorluğuna Naftalan şəhər İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Asəf Cabbarovun koronavirus infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Nazirlər Kabinetinin Qərarına zidd olaraq xüsusi karantın rejimində sərbəst hərəkət etmələri üçün müxtəlif şəxslərə arayışlar verməsi barədə məlumat daxil olub.

Araşdırmalarla Asəf Cabbarovun xidməti vəzifə səlahiyyətlərindən istifadə edərək ayrı-ayrı şəxslərə karantin postlarında yoxlamalar zamanı təqdim etmələri və şəhər ərazisində rahat hərəkət edərək iş fəaliyyətləri ilə məşğul olmaları üçün qanunsuz olaraq 100 ədəd arayış tərtib etməklə verməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Goranboy rayon prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb, Asəf Cabbarov təqsirləndirilən şəxs qismində cəlb olunaraq ona həmin maddə ilə ittiham elan edilib və barəsində başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri seçilib.

04 avqust 2020-ci il tarixdə cinayət işinin ibtidai istintaqı tamamlanaraq aiddiyyəti üzrə baxılması üçün Naftalan şəhər məhkəməsinə göndərilib.

## Biləsuvar sakini qətlə yetirildi

***Biləsuvar rayonunda qətl hadisəsi baş verib. Məlumata görə, hadisə gecə saatlarında Biləsuvar şəhəri ərazisində qeydə alınıb.***

Belə ki, rayonun Nərimankənd kənd sakini, 1982-ci il təvəllüdlü Vəliyev Elxan 3 bıçaq zərbəsi ilə qətlə yetirilib.

Hadisənin təfərrüatları dəqiqləşdiilir. Faktla bağlı araşdırma aparılır.

## Şəmkirdə adam bıçaqlayan şəxs həbs edildi

***Avqustun 5-də saat 01 radələrində Şəmkir rayonu ərazisində 1995-ci il təvəllüdlü Sənan Quliyevə çoxsaylı bıçaq xəsarətlərinin yetirilməsi barədə məlumat daxil olub.***

Şəmkir rayon Prokurorluğundan "Unikal"a verilən məlumata görə, dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib. Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı, 1999-cu il təvəllüdlü Mixayil Quliyevin şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı bıçaqla xəsarətlər yetirərək Sənan Quliyevi qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Şəmkir rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb.

Mixayil Quliyev təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində Şəmkir rayon məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Çin şirkəti Azərbaycan məhkəməsində 800 minlik iddia qaldırdı

***Çinin neft sənayesi sahəsində tanınan "Hong Kong Oil Gas Limited" şirkəti Bakı Kommersiya Məhkəməsinə müraciət edərək Azərbaycanda fəaliyyət göstərən şirkətə qarşı iddia qaldırıb.***

"Qafqazinfo"nun verdiyi xəbərə görə, Çin şirkəti cavabdeh "Azərbaycan-Şenqli Bohay Petrolium İncinirinq Şirkəti" MMC-yə qarşı iddia irəli sürüb. Ərizədə qeyd olunub ki, MMC-nin 01 sentyabr 2019-cu ilədək hesablanmış 465 500 ABŞ dolları (təxminən 791 min manat) məbləğində faizlər üzrə borcun və ödənilmiş dövlət rüsumu olan 30 manat məbləğində vəsaitin tutularaq "Hong Kong Oil Gas Limited" şirkətinə ödənilməsi tələb olunub. "Azərbaycan-Şenqli Bohay Petrolium İnciniriq Şirkəti" MMC isə Bakı Kommersiya Məhkəməsinə müraciət edərək müflis elan olunmasını istəyib. "Hong Kong Oil Gas Limited" şirkəti isə kreditor təyin edilib. Daha sonra Çin şirkəti məhkəməyə müraciət edərək iddiaya baxılmamasını xahiş edib. Bu nəzərə alınaraq, sənədlər geri qaytarılıb.

## Yetkinlik yaşına çatmayan qızı aldı, şiddətli işgəncə ilə... – Şok təfərrüat

***Bərdə rayonunda arvadını özünü öldürmə həddinə çatdırmaqda ittiham olunan Qubadlı rayonunun Tinli kəndində qeydiyyatda olan 1995-ci il təvəllüdlü Rövşən Şəmilovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***



Teleqraf.com-un xəbərinə görə, Rövşən Şəmilov 2015-ci ilin mart ayından Samirə Əhmədova (ad və soyad şərtidir - red.) ilə faktiki ər-arvad munasibətlərində yaşamağa başlayıb. Onların uşaqları olub və qadın hec yerdə işləmədiyinə gorə maddi və sair cəhətdən Rövşən Şəmilovdan asılı vəziyyətə düşüb.

2018-ci ildən etibarən ailə munasibətləri zəminində yaranmış munaqişələr zamanı Rövşən Şəmilov nalayiq ifadələrlə söyüşlər söyüb, onu təhqir edib. Rövşən Şəmilov qadını mutamadi olaraq alcaldıb, ona psixi iztirablar verib.

O, 2019-cu il avqustun ortalarında Samirə Əhmədovaya qarşı qanunsuz hərəkətlərinin şiddətini bir qədər də artırıb, arvadını yumruq-şillə ilə vuraraq, ona müxtəlif dərəcəli bədən xəsarətləri yetirib.

Avqustun 22-də təxminən saat 09.00-da Rövşən Şəmilov arvadı Samirə Əhmədovanı hər hansı əsaslı səbəb olmadan aralarında narazılığı bəhanə etməklə novbəti dəfə "Şərəfsiz atanın, qızını yoldan cıxardan baştutan ananın qızı" kimi nalayiq ifadələrlə və soyuşlərlə söyüb.

Daha sonra o, arvadını təhqir edərək ləyaqətini alcaltmaqla Bərdə şəhəri, Meşəçilik İnstitutu ərazisində yerləşən fərdi yaşayış evində amansızcasına döyüb.

Samirə Əhmədova qurtuluşu yalnız özünü öldürməkdə görüb, 22 avqust 2019-cu il tarixdə, saat 21.00-da yaşadığı evin giriş qapısından özünü asaraq öldürüb.

İstintaq araşdırması zamanı məlum olub ki, Rövşən Şəmilov 19 aprel 2015-ci il tarixdə evlənərkən Samirə Əhmədova yetkinlik yaşına çatmayıb.

O, Ağcabədi sakini, 2000-ci il təvəllüdlü Samirə Əhmədova ilə qeyri-rəsmi evləndikdən sonra Bərdə rayonu Xam Torpaq deyilən qaçqın şəhərciyində yerləşən evində 24 mart 2016-cı il tarixədək cinsi əlaqədə olub.

İstintaq orqanı tərəfindən Rövşən Şəmilovun barəsində Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) və 152.1-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) maddəsi ilə ittiham elan edilib.

Bərdə rayon Məhkəməsinin hökmü ilə Rövşən Şəmilov 5 il müddətinə azadlıqdan məhrum edilib.

Hökmdən narazı qalan Rövşən Şəmilov apelyasiya şikayəti verib. O, barəsində Cinayət Məcəlləsinin 70-ci (şərti məhkum etmə) maddəsinin tətbiq olunmasını, cəzasının şərti hesab edilməsini istəyib.

Onun şikayəti araşdırılması üçün Gəncə Apelyasiya Məhkəməsinə göndərilib. Hakim Əlizamin Abdullayevin sədrliyi ilə baş tutan iclasda apelyasiya şikayətinin dəlilləri araşdırılıb, sonda qərar elan olunub. Rövşən Şəmilovun apelyasiya şikayəti təmin olunmayıb.

## Silahlı insident törədən şəxsin işi məhkəmədə

***Ağdam rayonunda odlu silah qətl hadisəsi törətməkdə təqsirli bilinən 1956-cı il təvəllüdlü Cəbrayıl İsmayılovun cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***

Cinayət işi baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İş araşdırılması üçün hakim Elmin Rüstəmovun icraatına verilib. Yaxın günlərdə məhkəmə başlanacaq. İttihama görə, Ağsdam rayonun Aşağı Yüzbaşılı kəndində 1988-ci il təvəllüdlü Orxan Məmmədov güllələnib.

Məlum olub ki, Orxan Məmmədov ölən atasına borclu olan Yüzbaşılı kənd sakini Cəbrayıl İsmayılovdan pulu ödəməsini istəyib. Bu zaman onların arasında mübahisə yaranıb.

Nəticədə Cəbrayıl İsmayılov odlu silahdan atəş açaraq, Orxan Məmmədovu yaralayıb. Yaralı Ağdam Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Hazırda həkimlər onun həyatını xilas edib. İstintaq orqanı tərəfindən Cəbrayıl İsmayılovun barəsində



Cinayət Məcəlləsinin 29,120.1-ci (qəsdən adam öldürməyə cəhd etmə) maddəsi ilə ittiham elan edilib.

## Xaçmazda reyd keçirildi

***Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisində tətbiq olunan xüsusi karantin rejimi qaydalarına riayət edilməsinə, eləcə də rayon ərazisində yerləşən çimərliklərdə Operativ Qərargah tərəfindən elan edilmiş tələb və tövsiyələrə əməl olunmasına ciddi nəzarət edirlər.***




DİN-in Mətbuat Xidmətinin Quba regional qrupundan "Unikal"a verilən məlumata görə, şöbə əməkdaşları tərəfindən mütəmadi olaraq çimərliklərdə reydlər keçirilir, istirahətə gələn vətəndaşlara izahedici söhbətlər aparılır, onlara sosial məsafənin saxlanılmasının vacibliyi bildirilir.

Həmçinim polis əməkdaşları tərəfindən rayon ərazisində, eləcə də qapalı məkanlarda tibbi maskadan istifadə etməyənlərə qarşı reydlər keçirilib.

Reyd zamanı bir neçə sakinin tibbi maskadan istifadə etmədiyi aşkarlanıb.

Bundan əlavə DYP bölməsinin əməkdaşları rayon ərazisində sərnişindaşıma ilə məşğul olan taksi sürücüləri ilə də profilaktiki söhbətlər apararaq, onlara nəqliyyat vasitələrində şəffaf arakəsmədən istifadə etmələrini, sərnişinləri isə arxa oturacaqlarda əyləşdirməyi bildiriblər.

# Manatın məzənnəsinin dəyişməsi Mərkəzi Bankın mövqeyindən asılıdır

***Bütün hallarda manatın məzənnəsinin dəyişməsi Mərkəzi Bankın verəcəyi qərardan asılıdır. Biz onun tərəfdarıyıq ki, Mərkəzi Bank tərəfindən mütəmadi olaraq ictimaiyyətə məzənnə, eləcə də makro-iqtisadi stabilliklə bağlı məlumatlar təqdim olunsun.***

Bunu millət vəkili, iqtisadçı alim Vüqar Bayramov Milli Məclisdə manata təzyiqlərin artması barədə səsləndirilən fikirləri şərh edərkən deyib. Millət vəkili bildirib ki, ölkənin əsas bankı bu istiqamətdə kommunikasiyasını genişləndirib:

"2020-ci ildə ölkədən icrac olunan məhsulların həcmi pandemiya səbəbindən təxminən 40 faiz azalacaq. Bu halda Mərkəzi Bank praktik olaraq mövcud aktivləri hesabına tələbi ödəyə bilər. Eyni zamanda, nəzərə almaq lazımdır ki, beş ayın nəticəsinə görə, idxal göstəriciləri də 40 faizdən çox aşağı düşüb. Altı aylıq yekunlarda da təxminən 30 faiz azalma var. Nəzərə alaq ki, ölkədəki valyutanın əhəmiyyətli hissəsi - təxminən 90 faizi məhz idxal məhsulları üçün sahibkarlar tərəfindən alınır, o baxımdan da bu nüans Mərkəzi Banka müəyyən manevr imkanları verir. Amma bütün hallarda manatın məzənnəsinin dəyişməsi Mərkəzi Bankın mövqeyindən asılıdır".



Vüqar Bayramovun sözlərinə görə, birmənalı şəkildə Mərkəzi Bank məzənnə siyasətində aparıcı mövqeyə malikdir:

"Azərbaycanda üzən məzənnə siyasətinə tam keçilmədiyi üçün Mərkəzi Bankın qərarı əsasdır və manatın məzənnəsini də MB təyin edir".

# Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin iclası keçirilib

***Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin onlayn video-konfrans formatında hesabat iclası baş tutmuşdur. İclasda Azərbaycan Sahibkarlar Konfederasiyasının 2020-ci ilin birinci yarısı ərzində gördüyü işlərə dair hesabat dinlənilmiş, eyni zamanda sahibkarları narahat edən məsələlər müzakirə edilib***

İclas Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayevin sədrliyilə keçmişdir. İclası açıq elan edən M.Musayev respublika Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atıldığını, bu istiqamətdə ölkəmizin qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynadığını qeyd etdi. M.Musayev eyni zamanda pandemiya dövründə hökümət tərəfindən iqtisadi artıma və sahibkarlığa edilən güzəştlərin sahibkarlar tərəfindən çox yüksək qiymətləndirildiyini vurğulanıb..

Konfederasiyanın baş katib əvəzi Kristina Məmmədova COVİD-19 pandemiyası ilə əlaqədar karantin qaydaları çərçivəsində ASK-nın fəaliyyətinin davam etdiyini bildirmiş və bu ilin birinci yarısında ASK-ya qəbul olunan yeni üzvlər, sahibkarlardan daxil olan müraciət və təkliflərin əsas məzmunu barədə məlumat vermişdir. Konfederasiya prezidentinin baş məsləhətçisi Fərid Vəlizadə pandemiya dövründə sahibkarlarla keçirilən iclaslar, müzakirə olunan əsas mövzular və dövlət qurumları ilə ASK arasında mövcud olan Əməkdaşlıq Şuralarının fəaliyyəti haqqında Rəyasət Heyətinə hesabat verilib.

Sonra sahibkarlar karantin dövründə biznesin genişləndirilməsi istiqamətlərini müzakirə etmişdir. "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdulbari Gözəl Prezident cənab İlham Əliyevin su çatışmazlığının həlli ilə bağlı gördüyü işləri yüksək qiymətləndirdiklərini və bu işdə sahibkarların da fəal iştirak etməli olduğunu bildirdi. A.Gözəl həmçinin yeni iş yerlərinin yaradılması



və əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə yerli istehsalın artırılmasının vacibliyini vurğulamışdır.

ASK-nın vitse-prezidenti Vüqar Abbasov maliyyə əlçatanlığı məsələsini gündəmə gətirmişdir. Yerli istehsala dəstək məqsədilə qanunvericilikdə dəyişikliklər edilməsi və bu dəyişiklərin çevik olması, dövlət-özəl dialoqunun dərinləşdirilməsi təklif olunmuşdur.

Rəyasət Heyətinin üzvü Səkinə Babayeva son dövrlərdə təhsil, turizm sektorunda çalışan qadın sahibkarların fəaliyyəti barədə məlumat verib.

# Pandemiyanın dünyada doğurduğu ərzaq təhlükəsinin Azərbaycana təsiri yoxdur

***"Pandemiya şəraitinin ölkəmizin ərzaq təhlükəsizliyi göstəricilərinə müsbət və mənfi yöndə birbaşa təsirləri yoxdur".***

Bunu Modern.az-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə bildirib.

F.Fikrətzadə qeyd edib ki, kənar mənbələrdən əsas asılılıq buğda ilə bağlıdır:

"Bizim kənd təsərrüfatı məhsulları ilə təminatımızı xarakterizə edən əsas baza şərtləri var ki, burada yüz faiz təminat və mütəmadi olaraq idxal etdiyimiz məhsullar qruplaşdırılıb. Bu baxımdan kənd təsərrüfatı məhsulları arasında buğdadan asılılığımız kənar mənbələrdəndir. Digər məhsullar üzrə istehsal məqbul səviyyədədir. Bu il də kənd təsərrüfatında ümumi istehsal göstəricilərində artım tempi var. Kartof, meyvə-tərəvəz istehsalı yüksəkdir, ət-süd istehsalında göstəricilər yüksələn dinamika ilə davam edir".



Direktorun sözlərinə görə, builki quraqlıq səbəbindən buğda istehsalında azalma var: "Yalnız böyük həcmdə idxal etdiyimiz ərzaq buğdadır. Hər il orta hesabla 1,4 milyon ton buğda idxal edirik. Bu il quraqlıqla bağlı buğdanın istehsal göstəriciləri ötən illə müqayisədə aşağı düşüb. Buna görə də yaradılmış taxıl saxlanma anbarları infrasturkturu hesabına lazımi həcmdə ehtiyacımızı idxal mənbələrilə təmin edəcəyik. İdxal mənbələrinə təchizatda xüsusi narahatlıq yoxdur, mövsüm başlayıb. Lazım olan səviyyədə taxıl idxal edəcəyik".

Nazirlik rəsmisi qeyd edib ki, pandemiya şəraitinin ərzaq təhlükəsizliyinə təsiri baxımından ciddi mənfi nəticələri yoxdur: "Dünya bazarında pambığın qiyməti əlverişsiz olduğu üçün pambıq ixracı azaldı. Amma ərzaq məhsullarının artım göstəriciləri davam edir. Məhsulların toplanması, tədarükü və bazara çatdırılması müvafiq karantin rejimi qaydalarına uyğun olaraq sərbəst şəkildə təmin edilir. Ölkəmizin ərzaq təhlükəsizliyilə bağlı xüsusi narahatlıq yoxdur. Özümüzün yerli istehsalımız normaldır, idxal mənbələri hesabına təminatımız ehtiyat və emal infrastrukturumuz kifayət qədərdir".



# Məzuniyyət haqqı necə hesablanmalıdır?

***İşçilərlə işəgötürənlər arasında mübahisə doğuran məsələlərdən biri məzuniyyət haqqının hesablanmasıdır. Bəzən hesablanan məbləğlə işçinin iş vaxtı aldığı məbləğ arasında fərq yaranır.***

İqtisadçı ekspert Anar Bayramov bu məsələyə aydınlıq gətirmək üçün Əmək Məcəlləsinin 140-cı maddəsinin tələbləri əsasında əmək məzuniyyətinin hesablanmasını düstur şəklində təqdim edir. Həmin maddədə qeyd olunur ki, məzuniyyət günlərinin haqqını müəyyən etməkdən ötrü məzuniyyətdən əvvəlki 12 təqvim ayının əməkhaqqının cəmlənmiş məbləğini 12-yə bölməklə orta aylıq əməkhaqqının məbləği tapılır və alınan məbləği ayın təqvim günlərinin orta illik miqdarına - 30,4-ə bölmək yolu ilə bir günlük əməkhaqqının məbləği müəyyən edilir.

30,4 əmsalının necə hesablanması ilə bağlı bildirmək istəyirik ki, həmin əmsal il ərzində 365 günün 12 aya bölünməsi nəticəsində tapılır. Dörd ildən bir fevral ayının 29 gün olduğu səbəbindən bəzi mühasiblər 30,5 (366 gün /12 ay) əmsalını tətbiq etmək istəsələr də, əmsal konkret olaraq 30,4 qəbul edildiyi üçün burada başqa yanaşma düzgün hesab edilə bilməz.

Qeyd etdiyimiz qayda ilə müəyyən edilmiş bir günlük əməkhaqqının məbləği, məzuniyyətin müddətinin təqvim günlərinin sayına vurulur. Məzuniyyət haqqı = ((əvvəlki 12 təqvim ayının qazancı) /12 ay/ 30,4 əmsalı) x məzuniyyət müddətinin təqvim günlərinin sayı.

Misal. "A" MMC-nin işçisi Rövşən Qurbanov 25 günlük əmək məzuniyyətinə çıxır. İşçinin əvvəlki 12 ayda gəliri 6.000 manat olub. İşçinin məzuniyyət haqqını hesablayaq.

Məzuniyyət haqqı = ((əvvəlki 12 təqvim ayının qazancı) / 12 ay / 30,4 əmsalı) x məzuniyyət müddətinin təqvim günlərinin sayı = ((6.000 manat) / 12 ay / 30,4 əmsalına) x 25 gün= 411,18 manat.

# Koronavirusla Mübarizəyə Dəstək Fonduna toplanan vəsait açıqlandı

***Bu günədək Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürülən ianələrin məbləği məlum olub.***

Fins.az xəbər verir ki, fonda indiyə qədər 114 170 606 manat ianə toplanıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin martın 19-da imzaladığı fərmanla ölkədə koronavirus infeksiyasına qarşı preventiv addımlar atılması və mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb.

Aprelin 11-də Baş Nazir Əli Əsədovun imzaladığı sərəncamla Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurası yaradılıb.

# NRYTN GUAM-ın İKT üzrə işçi qrupunun iclasında təmsil olunub

***Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə işçi qrupunun növbəti - 5-ci iclası "COVID-19" pandemiyası ilə əlaqədar onlayn formatda keçirilib.***

Üzv ölkələrin aidiyyəti qurumlarının rəsmilərinin qatıldığı virtual tədbirdə Azərbaycanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xarici İşlər

Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Regional İnnovativ Texnologiyalar Akademiyasının nümayəndələri təmsil ediblər.

NRYTN-dən Unikal.org-a verilən xəbərə görə, tədbirdə Bakı Zirvə Toplantısında (18-19 iyun 2007-ci il) GUAM Dövlət Başçıları Şurasının qəbul etdiyi, təşkilat çərçivəsində sahələr üzrə əsas əməkdaşlıq istiqamətlərini müəyyənləşdirən GUAM-ın Sahəvi Əməkdaşlığının İnkişafı Strategiyasının icrasının müzakirəsi aparılıb.

Həmçinin, üzv ölkələr arasında informasiya texnologiyaları sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi, rəqəmsal iqtisadiyyatın və informasiya cəmiyyətinin, eləcə də innovasiya ekosistemlərinin inkişafı sahəsində təcrübə mübadiləsi mövzuları müzakirə predmeti olub.

Tədbirdə "COVID-19" pandemiyası dövründə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən vətəndaşların nəqliyyat, poçt, telekommunikasiya, o cümlədən, internet, mobil rabitə xidmətləri ilə keyfiyyətli və davamlı şəkildə təmin edilməsi məqsədilə gördüyü tədbirlər haqqında iştirakçılara ətraflı məlumat verilib.

Qeyd edək ki, Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın təsis etdiyi beynəlxalq regional təşkilat olan GUAM-a bu il ölkəmiz sədrlik edir. Azərbaycanın sədrliyinin prioritetləri kimi təşkilat çərçivəsində nəqliyyat və ticarət sahələrində əməkdaşlıq məsələləri, vacib əməkdaşlıq istiqamətləri olaraq İKT, kiçik və orta sahibkarlıq, energetika, turizm və bir neçə digər sahələr qəbul edilib. Koronavirus pandemiyası səbəbindən Azərbaycanın təşkilatda sədrliyi çərçivəsində cari ilin mart-aprel aylarında planlaşdırılan bir sıra tədbirlərin həyata keçirilməsi mümkün olmayıb.

# Taksi - Gerçək hekayə

***Gecə, saat birə işləyir. Bakıdan Sumqayıta gəlmək üçün telefonla taksi sifariş verirəm. Sifarişdən özüm də məmnunam: - Xanım, Bakıda, Səməd Vurğun küçəsində, Nəsimi heykəlinin yanındayam. Gedəcəyim yer Sumqayıtda, Səməd Vurğun küçəsində yerləşən Nəsiminin heykəlinin yanı.***

Heyf ki, xanım səfərimin məqsədi ilə maraqlanmadı, soruşsaydı, cavab verəcəkdim ki, Səməd Vurğundan, Səməd Vurğuna, Nəsimidən də Nəsimiyə salam aparıram.

Taksidə həmişə sürücünün arxasındakı oturacağı seçirəm, bura maşında ən təhlükəsiz yerdir. Qəza şəraitində sürücü instinktiv olaraq ilk növbədə öz oturduğu tərəfi qoruyur, sən də bu vaxt elə onun qoruduğu tərəfdə olursan.

Taksiyə oturan kimi, adəti üzrə telefonuma gələn mesajları oxumağa başladım. Biləcərinin dikini enəndə, sürücünün maşını sürmək tərzi məni şübhələndirdi.

Özümü qabağa verib, əvvəl sürücünün güzgüdəki əksinə, sonra da onun özünə baxdım. Vəziyyəti anında qiymətləndirdim, cavan oğlan "hallı" idi, görünür nəsə qəbul etmişdi.

Düşündüm ki, maşını saxlayıb gecə vaxtı, bu çöllükdə, soyuq küləkdə yeni taksi sifariş vermək çox da yaxşı ideya deyil.

Bu şəraitdə, elə sürücünü də qorumağın yeganə yolu onu danışdırmaq, belə onun beynini işlətməklə "çorta" getməyə qoymamaqdır.

Özümü lap qabağa verib, sürücüyə dedim: - Deyirəm ki, yola nərdivan qoyaq!

Cavan oğlan bir az özünə gəlir: - Nərdivan, nə nərdivan?

- Deyirəm ki, yəni söhbət edək.
- Edək.
- Nizami Gəncəvini oxumusan?
- Nizami Gəncəvi? Eşitmişəm, amma belə, oxumamışam.
- Füzulini necə, oxumusan?

Bu artıq mənə tərəfə dönüb təəccüblə deyir: - Yox, oxumamışam.

Mən də bunun halına bxıram, bir az halı dəyişən kimi, hər iki-üç dəqiqədən bir klassiklərimizi sadalayıram Nəsimini, Seyid Əzim Şirvanini, Sabiri, Cavidi, Səməd Vurğunu, Müşviqi, Şəhriyarı və s. dühalarımızı bir-bir bundan soruşuram. O da hər dəfə beynini gərib ayılan kimi olur və hər sualıma: yox, - deyir.

Artıq Sumqayıta çatanda o özünü tam toparlayıb soruşdu: - Bunları məndən niyə soruşursunuz?

Dedim: - Sən hər dəfə "yox" deyəndə, mən sənin əvəzinə çox sevinirdim.

- Hə?
- Hə! Bilirsən ki, sadaladığım sənətkarlarımızı oxuyanda, sən nə qədər ləzzət alacaqsan? Sənə həsəd apardım ki, səni qarşıda nə boyda sevinclər gözləyir. Sənin dahi azərbaycanlılarımızın yaradıcılığından alacağın kef, bu indiki zəhrimardan aldığın kefdən qat-qat çox olacaq. Biləsən ki, mən də onların "narkomanıyam"!
- Hə?
- Hə!

Artıq özünə gəlmiş sürücü sonda mənimlə öz doğma insanı kimi sağollaşdı!

***Hümbət Həsənoğlu (həkim-yazar)***

# D vitamini əskikliyindən yaranan 8 xəstəlik - həmçinin pnevmoniya...

***D vitamini insan sağlamlığı üçün vacib olan maddələrdən biridir. Bu vitaminin çatışmazlığı bir sıra xəstəliklərin yaranmasına səbəb ola bilər.***

Müasir həyatın sürətli tempi, qapalı məkanda iş, təmiz havada hər gün yetərincə olmamaq sağlamlığa xələl gətirən və bu vacib vitaminin çatışmazlığına səbəb olan amillərdir.

Hazırda koronavirus pandemiyası bu vitamini gündəmə gətirib və yaxşı ki, artıq insanlar onun əskikliyini aradan qaldırmağa çalışır.

D vitamin çatışmadıqda, əsasən aşağıdakı 8 xəstəlik yaranır:

**Zökəm**

Zökəm adətən qış aylarında günəşə həsrət qaldığımız dövrdə tüğyan edir. D vitamini çatışmazlığı orqanizmin zökəm və infeksiyalara yoluxma riskini artırır.

**Yüksək qan təzyiqi**

Aparılan tədqiqatlara görə, yüksək təzyiqdən əziyyət çəkən insanların qəbul etdikləri dərman siyahısına D vitaminini əlavə etməklə, onların səhhətində yaxşılığa doğru dəyişiklik müşahidə olunub. Bununla yanaşı, həmin şəxslərin qanında laxtalanma yaxşılaşıb, eləcə də damar qıcıqlanmaları azalıb.

**Xərçəng**

D vitamini çatışmazlığı xərçəng xəstəliyinin süd vəzi, yu-



murtalıq və mədəaltı vəzi kimi bir neçə növü ilə əlaqədardır. Tədqiqatların nəticələrinə görə, orqanizmdə yetərincə D vitamini olan insanlar bu dəhşətli xəstəliyə qarşı daha davamlı olurlar.

**Kariyes, ağız boşluğu və dişlərin digər xəstəlikləri**

Günəş işığı çatışmazlığı birbaşa D vitamininin çatışmazlığına yol açır, bu isə dişlərin daha həssas olmasına səbəb olur, kariyes və digər ağız boşluğu xəstəliklərinə məruz qalmasına gətirib çıxarır. Çoxsaylı tədqiqatlar sübut edir ki, D vitamininin orqanizmdə yetərli dərəcədə olması dişlərin kalsium tərkibini yaxşılaşdırır, əks halda isə kariesin inkişaf riski artır.

**İBS (bağırsaq xəstəlikləri)**

ABŞ, Hindistan və Avropada aparılmış tədqiqatlar nəticəsində həzm prosesində yaranan Kron, İBC, kolit xorası kimi problemlər ilə D vitamini çatışmazlığı arasında əlaqə aşkar edilib. Tədqiqatın nəticələrinə görə, günəş işığının az olduğu ərazilərdə yaşayan insanlar İBS xəstəliyinə daha çox məruz qalırlar.

**2-ci dərəcəli diabet**

D vitamini səviyyəsini optimal diapazonda saxlamaqla, siz 2-ci dərəcəli diabetdən qorunmuş olursunuz.

**Revmatoid artrid**

Kanadada aparılan tədqiqatın nəticələri isə D vitamini çatışmazlığı nəticəsində revmatoid artridin yarandığını göstərib. Belə ki, orqanizmində D vitamini çatışmazlığı olan xəstələr əzələ ağrılarından daha çox əziyyət çəkirlər. Əgər daima əzələ ağrısından əziyyət çəkirsinizsə, D vitamininin səviyyəsini yoxladın.

**Astma**

Astmanın əsas səbəbi elm tərəfindən müəyyən edilməsə də, bəzi tədqiqatlara görə, respirator xəstəliklər D vitamini çatışmazlığı ilə əlaqədardır.

Məlumatlarda bildirilir ki, D vitamini qəbul etdikdə, uşaqlarda astma simptomlarının ağır təsiri və nəfəs yollarında qıcıqlanma azalır.

Bu səbəbdən də, xüsusən günəşli günlərdə açıq havada daha çox olmanızı tövsiyə edirik. D vitamini preparatanı qəbul etməyi düşünürsüzsə, mütləq həkimlə məsləhətləşin. Bu vitaminin çatışmazlığı yalnız qan təhlilləri nəticəsində müəyyən olunur.

***Fizioterapevt-reabitoloq Ramin Quliyev***

# Kanadada soydaşlarımızla bağlı vəziyyət necədir? - Azərbaycanlı jurnalistdən açıqlama

***Xəbər verdiyimiz kimi, bir neçə gün bundan qabaq Kanadada ermənilər azərbaycanlılara xəsarət yetirmişdilər. Torontonun azərbaycanlılar yaşayan bölgəsində soydaşlarımızın maşınları əzilmiş, onlara qarşı digər fiziki təzyiqlər olmuşdu.***

Torontoda yaşayan azərbaycanlı jurnalist, GLOBAL JOURNALİSM COUNCİL-in Kanada təmsilçisi Lalə Musaqızı Modern.az-a açıqlamasında hazırkı vəziyyət barədə danışıb:

"Sakitliyin hökm sürməsinə baxmayaraq, ermənilərin kompakt yaşadığı bölgələrə gedəndə narahatlıq hiss edirik. Amma bura Amerika kimi deyil, hadisə baş verəndən 10 dəqiqə sonra polis orda olur. Ona görə də burada bir daha o cür hadisə olacağına inanmıram".

Lalə Musaqızı kanadada yaşayan azərbaycanlıların da-



ha diqqətli davrandığını deyib:

"Burda azərbaycanlıların sosial şəbəkələrdə yaratdığı bir neçə qrupa qoşulmuşam. Qrup üzvlərimiz çox aktivdirlər. Ermənilərlə bağlı qarşımıza çıxan səhifələri dərhal şikayət edib bağlatdırırıq. Hətta deputatlar ermənilərin ləhinə sosial şəbəkələrdə nəsə paylaşanda hamı etirazını bildirir".

Xatırladaq ki, avqust ayının 1-dən 2-nə keçən gecə Kanadanın Toronto şəhərində yerli erməni icmasının üzvləri soyuq və odlu silahdan istifadə edərək, orada yaşayan iki soydaşımıza qarşı təxribat törədiblər.

Torontoda yaşayan Azərbaycan icmasının verdiyi məlumata əsasən, cinayət yerinə dərhal icma üzvləri və çox sayda polis nəfəri gəlib. Polis zərər çəkmiş şəxslərdən izahatlar alıb və icma üzvlərimizin məlumatı əsasında təxribatı törədən milliyyətçə erməni şəxslərin yeri müəyyən edilib. Fakt üzrə yerli hüquq-mühafizə orqanları tərəfindən axtarış işləri aparılıb və müvafiq tədbirlər həyata keçirilib.

# Marginalların totalitarizmi

***Haradasa 10 il əvvəlin söhbətidir, Alim Qasımov bir müsahibəsində səsi gördüyünü demişdi. Şahvələd Çobanoğlu isə onun haqqında təxminən belə bir şey yazmışdı ki, "Əgər səsi görürsənsə, seçkidə oğurlanan səsləri niyə görmürsən?" Onunla eyni düşərgədə olan pivəxana idealistləri də ekstaza düşərək, bu səfeh ritorikanın başına ip salıb, ucuzluğa sürümüşdülər. Nədədir bu ritorikanın səfehliyi?***

Əvvəla onu deyim ki, nevralogiyada həqiqətən belə bir assosiativ sensor pozğunluqu var. Məsələn, bəzi insanlar rənglərin səsini eşidirlər. Onlara elə gəlir ki, qırmızı rəng gülür, yaşıl rəng acıqlı danışır, sarı rəng şəhvətlə pıçıldayır... Yaxud, bəziləri dadların rəngini görürlər. Onlar üçün acı dadın rəngi qırmızıdır, turşun dadı yaşıl, şirinin dadı ağ və s. Bu məsələləri dostumuz, hörmətli ziyalımız, nevroloq Qalib Əsədov daha yaxşı bilər.

Alim Qasımovda belə bir assosiativ sensor pozğunluğu varmı, yoxmu - deyə bilmərəm. Bütün hallarda, xanəndə üçün səsləri görmək - gözəl bir məcazdır. Onun işi də, yaradıcılığı da, həyatı da səslərlə bağlıdır. Amma niyə, hansı ağılla biz xanəndədən "seçki saxtakarlığına" mütləq münasibət bildirmək tələb etməliyik? Alim Qasımov bəyəm ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun sədridir? Seçki müşahidəçisidir? O, haradan bilə bilər ki, seçki necə keçib? Uzaqbaşı eşitdiyi, oxuduğu xəbərlərdən. Əgər o, seçkinin saxtalaşdırıldığını iddia edənlərin yazdıqlarını oxumursa (belə bir borcu da yoxdur) demək, onun dünyasında belə bir problem də mövcud deyil. Hamı başqasının dünyasında, başqasının prioritetlərilə yaşamağa məcbur deyil axı.

Sosial şəbəkələr kütləviləşəndən sonra marginal "idealist"lər daha da aqressivləşiblər: Hamıdan tələb edirlər ki, mütləq hakimiyyətə etiraz etməlisən! Etməsən, bu, sənin bütün başqa məziyyətlərini, insani və peşəkar keyfiyyətlərini də sıfırlayr; sən yaxşı musiqiçi, yazar, rəssam, jurnalist, sadəcə, ləyaqətli, gözəl insan ola bilərsən, amma hakimiyyətə etiraz etmirsənsə, bunların heç biri sayılmır. Bu təfəkkür hakimiyyətə etiraz edib-etməməyi insana dəyər verməyin yeganə və əsas meyarına çevirməklə, faktiki bir növ öz marginal ictimai totalitarizmini yaratmış olur: Kənarda qalmaq olmaz, kənarda qalan düşməndir, hamı iştirak etməlidir! Etməyən mənəvi repressiyaya uğradılacaq. Nə qədər simvolik bir mənzərə: "Avtoritarizm"ə qarşı mübarizə apardıqlarını deyənlər özləri artıq indidən totalitarizm yaradıblar.

Mən hər zaman düşünürdüm ki, bunun niyə son dərəcə axmaq yanaşma olduğunu marginallara izah etməyə ehtiyac yoxdur, amma belə görünür, var imiş. Marginallar istəyirlər ki, hamı dünyanı onların köstəbək gözü ilə ilə görsün. Məsələn, hamı razılaşsın ki, AXCP üzvlərinin həbsi "repressiya"dır; yaxud, ölkədə hansısa bir kasib ailənin dramı mütləq hökumətin günahıdır. İntellektual insan bu hadisələri eyni zamanda bir neçə ölçüdə görür, qiymətləndirir; tutulan gənclərə və kasıb ailəyə marginallardan fərqli olaraq, onun həqiqətən ürəyi yanır, nəsə etmək istəyir, amma eyni zamanda, başa düşür ki, hər şey siyasi onurğasızların göstərməyə çalışdıqları qədər sadə və birölçülü deyil. Anlayır ki, bu problemləri şəxsiləşdirmək, simvollaşdırmaq olmaz. O, dünyaya marginalların üstünə tulladıqları eynəkdən baxmır, çünki özünün təfəkkür onurğası var, gördüklərini özü qiymətləndirə bilir.

Digər tərəfdən, "A sudği kto?.." İnsanlardan etiraz tələb edənlərin, etməyənlərə cürbəcür yarlıq yapışdıranların özləri kimlərdir? Onların hansı siyasi kimlikləri, ideologiyaları, platformaları var? Pislətməyə çalışdıqları hakimiyyətin əvəzində cəmiyyətə nə təklif edirlər? Heç nə. Bu adamlar siyasi donquldananlar partiyasıdır, bütün günü sadəcə, donquldanırlar və tələbləri budur ki, biz də onlara qoşulub, donquldanaq. Məqsədsiz-filansız. Əsas odur ölkədə donquldananların sayı çoxalsın. Hamı marginallaşsın. Ona görə də, mən nəinki özümə, heç bir dostuma, tanışıma, yaxınıma, ərkim çatana bunu rəva görmürəm. Hazırda bu donquldananlar ordusunun səsinə səs vermək öz alnına "mən marginalam" yazmaq kimi bir şeydir. Siyasətlə uğurlu və intellektual insanlar məşğul olmalıdırlar, özünə profil açmaqdan başqa ortaya heç nə qoya bilməmiş uğrsuz marginallar sürüsü yox. Onlar cəmiyyəti heç bir yaxşı yerə apara bilməzlər Qoy, bu adamlar əvvəlcə təşkilatlanıb, bir partiya yaratsınlar, ortaya siyasi kimlik qoysunlar, görək, bacaracaqlarmı? Bacarmayacaqlarsa, hansı haqla bizdən nəsə tələb edirlər? Niyə biz onların çağırışına qoşulub, məchulluğa tərəf getməliyik axı?!



Donquldananlar ordusunun ən yayğın tələblərindən biri budur: Niyə haqsızlığı görüb, susursunuz? Axı sizin "haqsızlıq" dediyiniz şey başqasının sadəcə olaraq, maraq dairəsində deyil. Marginal olmayan insan sualı belə qoyardı: Hüquq müdafiəçilərimiz niyə bu mövzunu ARAŞDIRIB, rəy vermirlər?! Bir yazıçı, rəssam, musiqiçi işini-gücünü atıb, "haqsızlıq" dediyinizi araşırmaqlamı məşğul olmalıdır? Xeyr, düz demirsiniz, haqsızlıq heç də dərhal nəzərə çarpmır və ilk baxışdan görünənlərin əksər hallarda dərn alt qatları olur. Nəyisə araşdırmadan, kökünü, mahiyyətini bilmədən rəy vermək marginalların işidir.

Yazıçı Anarın 90-cı illərdə qələmə aldığı möhtəşəm bir həcv var idi: "Kim dali?!" Həmin hekayədə personajlardan biri müəllifin üstünə cumub, Ərk qalasından tutmuş, apostrofa, İçərişəhərdən tutmuş, Tibetə qədər bütün məsələləri birbir sayaraq, hiddətlə soruşur ki, "Niyə susursunuz? Niyə hayqırmırsınız?!" İndi sosial şəbəkədə eyni vəziyyətdir: Dəxli oldu-olmadı, marginal düşüncə az qala adamların dartıb yaxasını cırır ki, "Niyə susursunuz? Niyə hayqırmırsınız?!" Bu, artıq marginal təfəkkürün aqoniyada olduğunu göstərir. Çünki onlar görürlər ki, azlıqdadırlar, sayılmırlar və bunun səbəbini düzgün anlaya bilmirlər. Elə bilirlər ki, xalq qorxduğu üçün bunlara dəstək vermir. Halbuki, bütöv xalq heç vaxt qorxaq ola bilməz. Gerçək səbəb odur ki, bu marginalların siyasi donqunldanmaları bir qismə kənardan yaxşı tamaşa kimi görünə bilər. Onlar baxır, şərh yazır, bəzən əl çalırlar, amma son nəticədə başa düşürlər ki, qarşılarındakı marginal siyasət tamaşasından savayı heç nə deyil. Digər qism isə bu marginal-siyasi donquldanmalara sadəcə, ikrahla baxır.

***Vüsal Məmmədov***



# Milli Qəhrəmanın ailəsinə mənzil verildi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Gəncə şəhərində yeni yaşayış binasından alınmış 15 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Hidayət Abdullayev mənzillərin təqdim edilməsi tədbirində Prezident İlham Əliyevin sosial sahəyə, əhalinin həssas qruplarına xüsusi qayğı göstərdiyini vurğulayıb, sosial müdafiə proqramlarının ildən-ilə genişləndirildiyini qeyd edib.

Nazir müavini bildirib ki, 2018-ci ildə Nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil və fərdi ev təqdim edilibsə, 2019-cu ildə həmin göstəricidən 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev həmin kateqoriyadan olan vətəndaşlara verilib. 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda olmaqla azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

2020-ci il iyulun 21-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edərkən dövlətimizin başçısı deyib: "Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni, bu, onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır. Mən istəyirəm ki, biz bu proqramı tezliklə başa çatdıraq və buna nail olacağıq".

H.Abdullayev bu ilki plan üzrə nəzərdə tutulan 1500 mənzil və fərdi evdən artıq 554 mənzilin şəhid ailələrinə, müharibə əlillərinə verildiyini, qalan mənzil və fərdi evlərin də ilin sonunadək təqdim ediləcəyini deyib. O, indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 8142 mənzil və fərdi ev verildiyini diqqətə çatdırıb.

Müharibə əlillərinin avtomobillə təminatı işlərinin də davam etdiyini bildirən nazir müavini bu kateqoriyadan olan vətəndaşlara 2018-ci ildə 265 avtomobil, 2019-cu ildə 600 avtomobil verildiyini qeyd edib. 2020-ci ildə də müharibə əlillərinə 400 avtomobilin verilməsinin nəzərdə tutulduğunu, onlardan artıq 150-nin verildiyini, ümumən indiyədək 6900 avtomobilin müharibə əlillərinə təqdim edildiyini bildirib.

Qeyd edək ki, bu gün Gəncə şəhərində mənzillə təmin olunan şəhid ailələrindən biri də Azərbaycanın Milli Qəhrəmanı Elbrus Allahverdiyevin ailəsidir.

Tədbirdə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri daim dövlətin qayğısı ilə əhatə olunduqlarını vurğulayıblar. Onlar mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına, bu gün yeni mənzillə təmin edildiklərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.



# Kitabsızlığın yaratdığı savadsızlıq

***Ölkənin bir sıra ziyalıları Opertaiv Qərargaha kitab mağazalarının açılması üçün müraciət edib. Onlar kitabxanaların və kitab evlərinin açılmasını zəruri sayır.***

Biz də zəruri hesab edirik. Biz deyəndə yəni yazı pozu əhlini, ömrünü gününü kitaba yazıya bağlayan insanları nəzərdə tuturam.

Yəni bu cür öləzimiş bir vəziyyətdə kitab mağazalarının açılması əlbəttə ki, vacib idi. Çünki məntiqlə analiz edildikdə də, hazırki şəraitdə kitab dükanlarının açılmasında, xüsusi təhlükə görülmür. Onsuz da bu dükanlarda heç vaxt sıxlıq olmur. Heç bir kitab evində eyni vaxtda 10 nəfər adam tapa bilməzsiniz. Daxil olduğum kitab mağazalarının bu başından o başı həmişə aydın və şəffaf görsənib. Hansısa tanınmış şairin, yazıçının kitab təqdimatları müəyyən mənada bu konuda istisnadır. Amma vallah məsələyə bədbin tərəfdən yanaşsaq, elə həmin təqdimatlardakı çoxluğu yaradan da bizlər olmuşuq. Özümüz yazıb, özümüz də oxumuşuq.

Bu neqativ durum da əsas verir ki, bu tip obyektlər artıq oxucuların ixtiyarına verilsin.

Bu insanlar ki, yazdıqları hər cümlənin, hər sətrin içərisində bir misqal kitab həsrəti, kitab sevgisi qoyublar. Bunu edə bilmək üçün müxtəlif əyləncələrdən, rahatlıqlarından keçiblər. On dörd, on beş yaşından üzü bəri gündüzləri gün, gecələri ay işığında kitab oxuyan nə qədər insan tanıyıram. Ətrafımda kitabı həyatının vaz keçilməzi hesab edən saysız hesabsız adamlar var.

İllərdir kitabın, elmin, mütaliənin insanlıq üçün nə qədər faydalı olduğundan danışırıq, yazırıq. Buna görə hər cür tənəyə, lağa, söz-söhbətə tuş gəlmişik. Amma son illər kitabsızlığın yaratdığı savadsızlıq, məlumatsızlıq böhranı kitab əhlinin nə qədər haqlı olduğunu sübut etdi.

Koronavirus pandemiyasından sonra toyxanalar, yasxanalar, ticarət mərkəzləri ilə yanaşı mədəniyyət məkanlarının bağlanması pis, yaxşı formalaşmağa can atan kitab bazarına öz mənfi təsirini göstərdi və göstərməkdə də davam edir.

Statistikaya əsasən Azərbaycan son illər kitab oxunma siyahısında heç də üst sıralarda deyil. Və sıra məsələsi gec tez xalqın düşüncə tərzində, elmində, mədəni həyatında özünü biruzə verir.

Yadıma gəlir, sovet dövründə kitablar əldən-ələ keçib oxunmaqdan didik-didik olur, vərəqləri yarpaq kimi tökülürdü. Amma biz yenə də həmin kitablardan əl çəkmirdik. Bu kitabları oxumaq üçün günlərlə öz növbəmizi gözləyərdik. İndi isə kitablar nəinki kitab mağazalarında, hətta dövlət kitabxanalarında da tər vəziyyətdə kitab rəflərində tozlanıb qalır. Dəfələrlə kitabxanalarda elə belə yoxlamaq üçün, üzləşəcəyim qanqaraldıcı vəziyyətin nə olacağını bilə-bilə ən məşhur yazıçıların kitabları götürüb baxmışam. Elə kitablar olub ki, beş, on il kitabxanaya təhvil verilməsinə baxmayaraq məndən və bir neçə yaşlı oxucudan başqa heç kimə gərək olmayıb.

Bir az pafoslu səslənsə də, kitab da ərzaq mağazalarında satılan məhsullardan az dəyərli deyil. Bu şəxsən mənim üçün belədir. Əminəm ki, mənim kimi həmkarlarım çoxdurlar. Çörək, dərman, kitab...

Ümid edək, əmin olaq ki, tezliklə kitab mağazaları oxucuların ixtiyarına veriləcək. Bu akt həm də, növbəti pandemiyalar zamanı insanların davranışına təsir edə bilər; kitablı cəmiyyət bütün təlatümlərdən üzüağ çıxır. Kitablı cəmiyyət bütün işıqlı ideyaların təminatıdır(lent.az).

***Samirə Əşrəf***

# Xeyriyyəçi Musa Nağıyevə həsr olunan film çəkiləcək

***"Mənəviyyat carçısı" sənədli filminin çəkilişinə başlanılıb.***

"Unikal" xəbər verir ki, film Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dəstək Şurasının 2020-ci il üçün elan etdiyi 1-ci qrant müsabiqəsi çərçivəsində qalib olan "Milli Dəyərlərin Qorunması" İctimai Birliyi tərəfindən çəkiləcək. İyulun 16-17 də baş tutan müsahibədə AMEA Rəyasət Heyətinin Vitse-prezidenti İsa Həbibbəyli, AMEA professoru Cəbi Bəhrəmov, AMEA aparıcı elmi işçisi Nigar Axundova, Binəqədi İcra Hakimiyyəti başçısının müavini Ramiz Göyüşov, Millət Vəkili Jalə Əliyeva iştirak ediblər. Onlar xeyriyyəçiliyin əsasını qoymuş şəxsiyyətlərdən olan Ağa Musa Nağıyevin Azərbaycanda XIX əsrin sonu XX əsrin



əvvəllərində iqtisadiyyatın inkişafı uğrunda ilk addımların atılmasında tarixdəki rolu haqqında, həmçinin miras qoyduğu ən böyük əsəri sayılan İsmailiyyə binasının xalqa bu günkü xidmətindən söz açaraq, bu sənət abidəsinin ermənilər tərəfindən yandırılması səbəblərindən danışıblar. Eləcə də, Nağıyev irsinin Azərbaycanın tarixində yenidən yaşamasında nəvəsi Dilarə Nağıyevanın rolundan bəhs olunub.

Layihə çərçivəsində tarixin qaranlıq və öyrənilməmiş səhifələrindən olan milyonçu-xeyriyyəçi Ağa Musa Nağıyevin nəslinin sovet rejimi tərəfindən təzyiqlərə, işgəncələrə, hətta sürgünlərə məruz qalmaları barədə ətraflı və dəqiq faktlar əsasında məlumat veriləcək.

Layihə rəhbəri milyonçunun nəvəsi, yazıçı-publisist Dilarə Nağıyevadır. Filmin ssenari müəllifi və rejissor Etibar Məmmədov, redaktor Büllur Cavadqızıdır.

# Metronun qrunt suları ilə yaşıllıqlar suvarılacaq

***Baş nazirin müavini Şahin Mustafayev metro tunellərində formalaşan qrunt sularından səmərəli istifadə edilməsi layihəsi ilə tanış olub.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən (ETSN) verilən məlumata görə, nazirlik və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən metropoliten ərazisində formalaşan yeraltı qrunt sularından səmərəli istifadəyə hesablanmış mühüm bir layihənin icrasına start verilib. Texniki məqsədlər, əsasən də yaşıllıqların suvarılması üçün yeraltı qrunt sularından istifadəni nəzərdə tutan layihə çərçivəsində ilk mühüm addım "Nizami" metro stansiyasının yerləşdiyi ərazidə atılıb.

Baş nazirin müavini Şahin Mustafayev, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Bakı şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və "Bakı Metropoliteni"n sədri Zaur Hüseynov metro tunellərində formalaşan qrunt sularından səmərəli istifadə edilməsini nəzərdə tutan layihənin icrası ilə tanış olublar.

Qeyd edək ki, layihə çərçivəsində qrunt sularının daha gur olduğu və suyun debitinin müvafiq tələblərə cavab verdiyi "Nizami-Elmlər Akademiyası" mənzilində müvafiq işlər icra edilib.

ETSN-nin ixtisaslaşmış laboratoriyası suyun tərkibini tədqiq edərək müsbət rəy verdikdən sonra mühəndis-texniki qurğulardan suyun nəql edilməsini təmin edən xətt çəkilib. Artıq qrunt sularından paytaxtda yaşıllıqların suvarılması məqsədilə istifadə olunur.

Metropolitendə qrunt sularının debitinin kifayət qədər olduğu daha bir neçə sahədə araşdırmalar yekunlaşmaq üzrədir və həmin ərazilərdə də bu cür tədbirlər həyata keçiriləcək.

Xatırladaq ki, aprel ayının 14-də 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş video müşavirədə Prezident İlham



Əliyev ölkə ərazisində su ehtiyatlarının yaradılmasını, sudan səmərəli istifadə olunmasının aktuallığını xüsusi qeyd edərək, müvafiq komissiyanın yaradılması barədə qərarını açıqlamışdı.

Komissiya tərəfindən bir neçə istiqamətdə layihələrin icrasına başlanılıb.

# Azərbaycana gəlmək istəyən Türkiyə vətəndaşlarının nəzərinə

***Dövlət Miqrasiya Xidməti Azərbaycana səfər etmək, yaşamaq və əmək fəaliyyəti ilə məşğul olmaq niyyətində olan Türkiyə vətəndaşlarına müraciət edib.***

Qurumdan verilən məlumata görə, bu il fevralın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında Saziş" avqustun 13-də qüvvəyə minəcək.

Sazişə əsasən, qarşılıqlı olaraq Azərbaycan və Türkiyə vətəndaşları bir-birinin ərazisinə daxil olmaq, tranzit keçmək, ölkədən getmək və müvəqqəti qalmaq üçün 90 (doxsan) gün müddətinə viza tələbindən azad edilirlər. Müvafiq ölkə ərazisində 90 (doxsan) gündən artıq müddətə qalmaq istəyən şəxslər müvəqqəti yaşama icazəsi almaq



üçün əvvəlcədən müraciət etməlidirlər. Hər iki ölkə vətəndaşlarına məxsus pasportlar müvafiq ölkə ərazisinə giriş tarixindən etibarən azı 6 (altı) ay etibarlılıq müddətinə malik olmalıdır. Hər iki ölkə vətəndaşları milli qanunvericilikdən irəli gələn qayda və prosedurlara riayət etməlidirlər. Azərbaycanda 15 gündən artıq müvəqqəti olan Türkiyə vətəndaşları olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Həmçinin vizadan azad etmə işləmək və ya hər hansı peşə fəaliyyəti ilə məşğul olmaq hüququ vermir.

Azərbaycan ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq istəyən Türkiyə vətəndaşlarına mövcud qaydalara uyğun olaraq işəgötürənlər tərəfindən iş icazəsi alınmalıdır (iş icazəsinin alınması tələb olunmayan hallar istisna olmaqla).

Sazişin 13 avqustdan etibarən qüvvəyə minməsi ölkə ərazisində tətbiq olunan xüsusi karantin rejimi ilə əlaqədar dövlət sərhədində hərəkətlə bağlı məhdudiyyətləri aradan qaldırmır.

# "Azərbaycan kinosunu 1970-ci illərdəki səviyyədə görmək istəyərdim" - Xalq artisti

***"Televiziyada görünməyə həvəsim yoxdur. Hər zaman teatrda işləmişəm. Televiziyaya yeni tamaşa, obrazla çıxmaq istəyərdim. Hansısa verilişdə oturub söhbət etməyə həvəsim yoxdur".***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri Xalq artisti Valeh Kərimov "Kinomən" proqramında qonaq olarkən deyib. Aktyor efirlərə çıxmaq istəmədiyini etiraf edib.

"Bəxt üzüyü" filmindəki Moşu Göyəzənli obrazı ilə məşhurlaşan aktyor bildirib ki, yeni işləri olmadığı üçün efirlərdən qaçır: "Bir obrazı oynadın bitdi. Gərək yeni nəsə oynayasan ki, efirdə gəlib danışasan. Azərbaycan kinosunu 1970-1980-ci illər səviyyəsində görmək istəyirəm. Onda yüksək səviyyəli filmlər istehsal olunur, tanınırdı. "Ögey ana", "Nəsimi", "Böyük dayaq" səviyyəsində filmlər görmək istərdim.

Gənc rejissorlar film çəkir. Onları kino hesab etmirəm. Neçə dəfə təklif gəlib, razılaşmamışam. Deyirəm, ssenarini verin mənə oxuyum. Qayıdırlar ki, hələ yoxdu düzəldəcəyik. Biz belə görməmişik, ssenari verilib oxumuşuq. Bilmişik ki, nə baş verəcək. İndi rejissorlar deyəcək ki, onu çəkmirik deyə, bizi pisləyir".

"Bəxt üzüyü" filmindən danışmaq istəməyən V.Kərimov bunları söyləyib: "İkinci "Bəxt üzüyü" çəkildi, bəsdir. Onun nə serialı olacaq? 76 ildir məni evdə danışdıra bilmirlər, siz danışdıracaqsınız? Susmaq istəyirəm. Heç efirdə o film gedəndə baxmıram. Öz işimə nə qədər baxım? Adam özünə heyran olar?".

# Azərbaycanda sel gəldi: 19 əsrlik abidə üzə çıxdı

***Bir neçə gün öncə yağan güclü yağış nəticəsində yaranan sel suları Şamaxı rayonu Quşçu kəndi ərazisində antik dövrə aid nekropolun aşkar olunmasına səbəb olub.***

Bu barədə Milli.Az-a Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynli məlumat verib.

Onun sözlərinə görə, sel suları kənd sakini Namiq Mustafayevə məxsus həyətyanı sahədə qədim qəbirlərin üzərini açıb:

"Kənd sakini bu barədə bildirib. Bununla əlaqədar AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Şamaxı Arxeoloji Ekspedisiyasının rəisi Akif Quliyev və rayon üzrə abidə mühafizəçisi Yasin Nuriyev əraziyə baxış keçiriblər. Baxış zamanı məlum olub ki, sel suları nəticəsində vətəndaşa məxsus həyətyanı sahənin yamac hissəsində doqquz qəbir üzə çıxıb.



Torpaq qəbirlərin üzəri iri sal daşlarla bağlanıbmış. Qəbirlər torpaq səthindən 1,5-1,8 metr dərinlikdə yerləşir".

F.Hüseynli qeyd edib ki, ərazidə aparılan araşdırmalar nəticəsində 10 ədəd müxtəlif ölçülü və biçimli saxsı məmulatlar, saxsıdan olan fiqurlar - bütlər, qrifon, heyvan fiqurları (at, qoç), metal pullar aşkar olunub: "Tapıntılar arasında quş başlı insan fiqurlar böyük maraq doğurur. Bu tip qrifonlar Qədim Misirdə müdriklik və elm ilahəsi Totu səciyələndirirdi. Qəbir kamerasından aşkar edilmiş numizmatika materialları nekropolun b.e. I əsrinə aid olduğunu təsdiqləyir. Abidədə aparılacaq arxeoloji tədqiqat işləri bir çox mətləblərə aydınlıq gətirəcək".

F.Hüseynli vurğulayıb ki, Şamaxı rayonunun Quşçu kəndi Antik və İlk Orta əsrlər dövrlərinə aid abidələrlə zəngindir. Vaxtı ilə burada Qalacıq yaşayış yeri, Antik və İlk Orta əsrlər dövrünə aid nekropollarda geniş miqyaslı arxeoloji tədqiqat işləri aparılıb.

# "Şəhidlərimiz haqqında peşəkar səviyyəli filmlərimiz niyə yoxdur?" - Xalidə Quliyeva

***"Şəhidlərimiz haqqında beynəlxalq aləmə çıxarılası peşəkar səviyyəli filmlərimiz niyə yoxdur?". Bunu yenicag.az-a açıqlamasında xalq artisti, tanınmış aktrisa Xalidə Quliyeva telekanallarımızda nümayiş olunmaq üçün hərbi-vətənpərvərlik mövzusunda filmlərin yetərincə olub-olmadığına münasibət bildirərkən deyib.***



Aktrisa onu da bildirib ki, torpaq uğrunda canından keçən şəhidlərimiz haqqında çoxdan romanlar yazılmalıydı: "Hətta deyərdim ki, bu gün xalqın vətənpərvərlik hissi çox yüksəkdir. Bu hissə adekvat olan sənət əsərləri yox dərəcəsindədir. Xüsusən də kino, cünki, söhbət kino yaradıcılığından gedir. Sual verirəm, başımıza gələn müsibətləri, erməni təcavüzkarlığını, eləcə də ərazi bütövlüyümüz uğrunda şəhid olan, mərdliyi və cəsarəti ilə nümunə olan insanların qəhrəmanlığı haqqında beynəlxalq səviyyəyə çıxan bədii-sənədli filmlər çəkmişikmi? Təəssüf ki yox. Sözümün canı budur ki, bü gün vətənpərvərlik hissini aşılayan peşəkar səviyyəli sənət əsərləri hava- su kimi lazımdır. Şəhidlərimiz haqqında beynəlxalq aləmə çıxarılası peşəkar səviyyəli filmlər niyə yoxdur?

Bu ay torpaqlarımız, eləcə də vətəni, xalqı uğrunda şəhid olan qəhrəman əsgərlərimizin 40-ı çıxmayıb.

Unuduruq... Tez unuduruq...Bu 30 ildə romanlar yazılmalıydı. Xarici dillərə çap olunmalıydı. Nə isə..."

# "Min bir gecə" baleti Vyanadakı festivalda oynanıldı

***Avropada klassik musiqinin beşiyi sayılan Vyana şəhərində ilin bütün mövsümlərində müxtəlif səpkili mədəniyyət tədbirləri, festivallar, konsert və tamaşalar təşkil olunur. Onların sırasında Vyana Şəhər Bələdiyyəsi önündə açıq havada təşkil olunan Vyana Film Festivalının özünəməxsus yeri var. Bələdiyyə meydanında quraşdırılmış böyük ekranda dünyanın müxtəlif ölkələrində istehsal olunmuş opera və balet tamaşalarından tutmuş klassik, caz və digər janrlarda ifa olunan konsertlər nümayiş olunur.***

"Unikal" AZƏRTAC-a istinadla xəbər verir ki, builki festivalda ilk dəfə olaraq təşkilatçılar Azərbaycan klassik musiqisinə müraciət ediblər. Festival çərçivəsində avqustun 5-də görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baleti nümayiş olunub. Tamaşa həm melodiya rəngarəngliyi, həm də səhnə tərtibatına görə tamaşaçılarda böyük maraq oyadıb.

Qeyd edilməlidir ki, festivalda təqdim olunan "Min bir gecə" baleti ötən il Bakıda Heydər Əliyev Sarayında Rusiyanın məşhur "Kreml baleti" teatrının quruluşunda təqdim olunub.

İyulun 4-dən sentyabrın 6-dək davam edən Vyana Film Festivalının xüsusiyyətlərindən biri də Bələdiyyə meydanında qurulan kulinariya köşkləridir. Milli və beynəlxalq mətbəxin təqdim olunduğu həmin köşklər sayəsində festivala gələnlər həm musiqidən, həm də ləzzətli təamlardan zövq ala bilirlər.

# Kino xadimlərinə pul mükafatları verildi

***Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının İdarə Heyəti 2 avqust - Milli Kino Günü ilə bağlı bir sıra kino xadimlərinə pul mükafatları təqdim edib.***



"Unikal" bildirir ki, bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının mətbuat xidmətinin rəhbəri Əli Vəliyev məlumat verib.

Bildirib ki, bu il 60 yaşları tamam olan Əməkdar incəsənət xadimi Ayaz Salayev və kinorejissor Şamil Əliyevə yubileyləri münasibətilə Milli Kino Günündə pul mükafatları təqdim edilib.

Bununla yanaşı, ittifaqın rəsmisi bildirib ki, Milli Kino Günü ilə bağlı kino veteranları olan Əməkdar incəsənət xadimi Leyla Səfərova, Əməkdar mədəniyyət işçisi Rəfiqə Budaqlı, Əməkdar mədəniyyət işçiləri Şahin Qalabəyov və Akif Rüstəmov, kinorejissor Zamin Məmmədov və veteran Ədalət Yunusova da pul mükafatları verilib.

Əli Vəliyev daha sonra qeyd edib ki, Respublika Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin hər il təqdim etdiyi "Milli Kino" mükafatı isə pandemiya ilə bağlı olaraq sentyabr ayında açıqlanacaq.

# "Nobel qardaşlarının ilk uğuru" ölkəmizi beynəlxalq festivalda təmsil edəcək

***"Nobel qardaşlarının ilk uğuru" filmi növbəti festivalda nümayiş ediləcək. Belə ki, film Almaniyanın Frankfurt şəhərində keçiriləcək "Golden Tree International Documentary" ("Qızıl Ağac" ) Film Festivalının siyahısına daxil olunub.***

Bu barədə filmin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımov məlumat verib.

Onun sözlərinə görə, bu festival müxtəlif sivilizasiyalara və mədəniyyətlərə yönəlmiş keyfiyyətli filmləri tanıtmaq məqsədi daşıyır.

Sənədli filmin redaktoru Əkbər Qoşalı, qrafika ustası Xəqani Məmmədovdur. Mətni Eldost Bayram oxuyub.

# "Küləklə sovrulanlar" flminin 104 yaşlı aktrisası vəfat etdi

***1939-cu ildə lentə alınan "Küləklə sovrulanlar" filmində əsas obrazlardan biri - Melani Hamiltonu canlandıran aktrisa Olivia de Havilland bu gün 104 yaşında vəfat edib.***

APA TASS-a istinadən xəbər verir ki, bu barədə "Deadline" internet nəşri məlumat yayıb. Aktrisa Parisdəki evində dünyasını dəyişib. Qeyd edək ki, Olivia de Havilland 1916-cı ilin iyulun 1-də Tokioda anadan olub.

Valideynləri ayrıldıqdan sonra "gələcək ulduz" anası və bacısı ilə birlikdə Kaliforniyaya köçüb. 18 yaşına çatanda "Warner Brothers" studiyası ona ilk müqaviləsini təklif edib.

Peşəkar karyerası boyunca de Havilland iki dəfə "Oskar" mükafatına, iki dəfə "Qızıl Qlobus"a layiq görülüb.

# Bu içkilər kökəlməyə yol açır



***İnsanda artıq çəkinin yaranmasına yol açan içkilərin adları açıqlanıb.***

"Unikal" Trend-ə istinadən xəbər verir ki, mütəxəssislərin fikrincə, meyvə suları, kvas və qazlı içkilərdə çoxlu miqdarda qlükoza olduğu üçün bu içkilərin müntəzəm içilməsi mədəaltı vəzinin aşırı yüklənməsinə səbəb olur. Bu isə, öz növbəsində, kökəlməyə gətirib çıxarır.

Bundan başqa, bir çox insanın çay və qəhvənin böyük miqdarda şəkərlə içməsi orqnazmin ümumi vəziyyətinə mənfi təsir göstərir.

Mütəxəssislər bu cür halların qarşısının alınması məqsədilə suya təzə xiyar, nanə və ya limon əlavə etməyi və bədənin ümumi çəkisinin hər kiloqramına 30 millilitr həcmdə maye içməyi tövsiyə edir.

# Qəhvə içmək beyin üçün mütləqdir



***Beyini tonusda saxlamaq və müxtəlif nevroliji, beyin xəstəliklərindən qorunmaq üçün qara şokolad və təmiz qəhvə içmək nəinki olar, hətta mütləqdir.***

"Unikal" medicina.az-a istinadən bildirir ki, bu nəticəyə ABŞ və Yaponiya neyrobioloqları son elmi tədqiqatlarının sonunda gəiblər.

Neyrobioloqlar kofeinin beynin işinə təsirini öyrənir. Bu dəfə bir neçə nüfuzlu təşkilat qəhvənin həqiqətən beyin üçün lazımlı olması qərarına gəlib.

Con Hopkins Universitetinin alimləri qəhvə və qara şokoladda olan metilksantin adlı orqanik birləşmənin beyinə təsirini öyrənib.

Məlum olub ki, bu maddə neyron şəbəkəsinin aktivliyinə təsir edir. Bu isə insanı insult, yaddaş pozuntusu, Alsgeymer, Parkinson xəstəliyindən qoruya bilər.

World Journal of Surgical Oncology məruzəsində yazılıb ki, 11 iri elmi araşdırmanın nəticələri qəhvənin beyin şişinə qarşı da effektini sübut edib.

Odur ki, alimlər yaxşı qəhvə içməyi və arada yaxşı şokolad yeməyi tövsiyə edir.

# Ürəyi məhv edən qidalar açıqlandı



***Rusiyanın tanınmış kardioloqu, tibb elmləri namizədi Anna Koreneviç ürəyi zamanla məhv edən yüksək qlisemik indeksli zərərli ərzaqların siyahısını təqdim edir.***

"Unikal" medicina.az-a istinadən bildirir ki, reytinqə ağ qənd, şəkər rəhbərlik edir. Təkcə qəndi birbaşa yemək yox, şəkər qatılan bir çox qidalar, xəmir məmulatları da bura daxildir.

İkinci yerdə ağ çörək, ağ düyü, qənnadı məhsulları, paketlənmiş qidalardır. Menyuda bu ərzaqların çoxluğu ürək-damar xəstəliklərinə gətirib çıxarır. Üçüncü yerdə duz gəlir. Onun sutkalıq norması 6 qramı aşmamalıdır. Daha sonra alkoqol, fast food qidalar, trans yağlar və palma yağı gəlir.

Bu qidalarla böyüyən uşağın gələcəkdə 35 yaşından sonra ciddi ürək, qan damar xəstəlikləri başlayır.

# Çimərliklər açıldı: şəbəkə "hipnozu" bitəcəkmi?

***Sabahdan etibarən çimərliklər açılır. Bu, karantin pandemiyasının dünya miqyasında tüğyan etdiyi bir dönəmdə yaxşı işdir. Dəniz, qum, Günəş - bütün bunlar vücud və səhhət üçün qayət xeyirli nəsnələrdir.***

Amma və lakin, həmişə olduğu kimi, sosial şəbəkələrdəki narıncı güruh, marjinallaşmış köçəri qruplar bu qərara da özlərindən gün altında iki, kölgədə isə beş dəfə böyük "mız" qoydular.

Dünəndən bəri sosial şəbəkələrdə bəlli adamların bəlli stildə yazdıqlarına baxıram. Yenə və həmişəki kimi, narazıdırlar. Ki, bəs çimərliklər açılırsa, icazə nəyə gərək: nə üçün karantin rejimi, ümumiyyətlə, ləğv olunmadı; çimərliklərə giriş tam asudə olmalıdı, heç bir yoxlama olmamalıdır və sair və ilaxır. Hərdaim hər şeydən narazı olanlar təbəqəsini formalaşdırmaqda olan kəslərin təşviqdə olduqlarını düşünmək olardı. Amma belə deyil.

Zira çimərliklərə giriş tam sərbəst və asudə olardısa, əmin olun ki, elə həmin adamlar sosial şəbəkələrdə mikroskopik üsyanlar qaldıraraq buyuracaqdılar: "Dövlət hara baxır?" Onlar yazacaqdılar ki, bəs dövlət niyə çimərliklərə baxmır, bu qədər insan yığışıb bir yerə, koronavirusun yayılmasına şərait yaradırlar.

Yəni bildiyimiz filan və fəsməkan ruhunda deyinmələr, qəzəb izharları və sonda da sakramental, nimdaşlaşıb çürüsə də, hələ də qalıqları barmaqlardan süzülən ifadə: "Əşşi, sivil ola bilmədik də..."

Xub, sivil olmağın, dünyanın inkişaf etmiş dövlətləri və sürətli irəliləyişdə olan cəmiyyətləri ilə çiyin-çiyinə getməyin şərtləri çoxdur, lap çox.

Onların arasında xüsusi önəmli olanı qaydalara riayət etmək, qanunlara saygı bəsləməkdir. Almaniyada, İsveçrədə, Polşada və ya İspaniyada koronavirus pandemiyası ilə bağlı qaydaları pozanlar sərt cəzalanırlar - bu, öz yerində. Əsas olan həmin adamların ictimai qınağa tuş gəlmələridir.

İnkişaf etmiş dövlətlər səviyyəsində cəmiyyətdə yaşamaq istəyiriksə, buna can atırıqsa, ilk əvvəl qaydaları pozmamalıyıq.

Sosial şəbəkələrdə deyinmək, narazılıq etmək də olar, hətta normaldır. Amma anormal olan bu deyinmənin permanent hal almasıdır.

**Rəsmi açıqlama: qaydalar, şərtlər**

Çimərliyə getmək istəyənlər ilk əvvəl cimerlik.az saytına daxil olaraq çimərliklərin siyahısı, doluluq səviyyəsi, infrastruktur və şərait, ünvan və yerləşmə yeri və s. barədə məlumat əldə etməlidir.

Fəaliyyətinə icazə verilən çimərliklərdə giriş-çıxışın yoxlanılması, habelə çimərlik daxilində müəyyən edilmiş normativ qaydalara əməl edilməsinə nəzarət məqsədilə 1000-dən artıq ASAN könüllüsü işə cəlb olunub. Bu səbəbdən çimərliyə yalnız ASAN könüllüləri tərəfindən nəzarət olunan girişdən daxil olmaq, çıxış üçün nəzərdə tutulan yerdən tərk etmək gərəkdir. Habelə istifadəsi zəruri sayılan əşyalar çimərliyə aparılmalı, çimərliyə giriş-çıxış zamanı oradakı dezinfeksiya məhlullarından istifadə olunmalıdır.

Sahildə yalnız xüsusi iplərlə ayrılmış zonalarda istirahət etmək. Təbii ki, sosial məsafəyə riayət etmək gərəkdir. Qadağan olmuş ərazilərə getmək, çimərliyi tərk edərkən zir-zibili qoyub çıxmaq olmaz.

Ən başlıcası isə yadda saxlayın: cimerlik.az saytında adı qeyd olunmayan çimərliklərə üz tutduqda pandemiya ilə bağlı monitorinq aparılmadığından ehtiyatlı olmalısınız. Vəssəlam, bu qədər bəsit.

**Niyə belə edildi?**

Çünki vətəndaşlarımızın təhlükəsiz və sağlam istirahətə ehtiyacları var. Yaydır, orqanizmin zəruri və çox vacib D vitaminini qəbul etməsi üçün ideal zamandır. D vitamininin də immunitet üçün nə qədər önəmli, gərəkli olduğunu bir daha təkrarlamaq istəməzdim.

Çimərliklərdə açıq havada istirahət üçün tam təhlükəsiz, normal şərait yaradılıb. Tələb olunan, sadəcə, zəruri gigiyena qaydalarına riayət etmək, sosial məsafə saxlamaqdır.



ABŞ və ya İspaniya çimərliklərində olduğu kimi, Abşeronda dəniz sahilinə üz tutanlarda qumsallıqda maska ilə dolaşmaq, istirahət etmək də tələb olunmur.

Elə "Asan Xidmət" də ölkədəki çimərliklərdən istifadə ilə bağlı gərəkli, məqbul olası beynəlxalq təcrübədən yararlanıb, mövcud olan şərtlərlə tələbləri, qaydaları araşdırıb. Yalnız bundan sonra qərar verilib.

Müsbət və gözlənilən qərardır, çünki nadidə çimərlikləri olan Azərbaycan təki ölkədə karantin rejiminin tətbiq olunduğu dönəmdə vətəndaşların istirahətinin təminatı gərəklidir.

**"Axxx, çimərlik" deyib yazanlar**

Ölkədə karantin rejimi tətbiq olunandan bəri narazılıq edənlər, yay başlayandan bəri isə çimərliklərin açılmasını tələb edənlər sakitləşmirdilər. Hər gün, əksər hallarda isə gündə bir neçə dəfə çimərliklərin şəninə virtual mədhiyyələr yazılır, dəniz suyu və qumun insan orqanizminə xeyri mantra kimi vurğulanırdı.

Bu şəxslərin narazılıqlarını, sosial şəbəkələrdəki giley-güzarını oxuyanda belə təəssürat yaranırdı ki, onlar yay başlayan kimi günlərini səhərdən axşamadək çimərlikdə keçirən, aktiv istirahəti seçən insanlardır.

Budur, çimərliklər açılır. Di gəl, elə həmin adamlar yazırlar ki, nəyə gərəkdir çimərliklər, rayonlara gediş-gəliş açılaydı bunun əvəzində.

Tamam, bir anlıq təsəvvür edin ki, yazılanlar gerçəkləşir, rayonlara gediş-gəlişə icazə verilir, amma çimərliklərə yasaq qalır. Onda nə deyəcəkdilər, nə yazacaqdılar, nədən şikayətlənəcəkdilər?

Hər əməli öz adı ilə səciyyələndirsək, bütün bunlar çox bəsit demaqogiyadır.

Dövlət, gerçəkdən, böyük işlər görüb. Çimərliklərin açılması bəsit proses deyil. 120 çimərlikdə xüsusi zonalar yaradılıb, dezinfeksiya üçün qurğular quraşdırılıb, prosesə 1000 nəfərdən artıq ASAN könüllüsü cəlb olunub.

**"Hava da bizə qarşıdır"**

Bu cümləni dünən oxudum. Lağlağı və deyinməyi ikinci peşə - bəzi hallarda əsas məşğuliyyət - edən sosial şəbəkə "maral"larından biri buyururdu: "Baxın, çimərlikləri açdılar, amma havalar sərin keçir. Bunu bilirdilər, qəsdən belə etdilər".

Absurdun da bir həddi olar, cənablar. Havalar sərin keçir, yağış yağır, külək əsir, dəniz suyu lap isti deyil - bütün bunların "#EvdəQalın" çağırışına nə dəxli? Havalar isinəcək, dəniz də başqa yerə axıb gedən deyil.

Küləyin əsməsini, sərinliyi və ya yağışı Operativ Qərargah bəlirləmir.

Qışın qış, yayın da yay kimi keçməsini istəyiriksə, məsələnin kökünün dərinliyinə baxmalıyıq. Ekologiyaya zərbə vurmamalı, təbiəti qorumalı, lap elə plastik qablardan və paketlərdən mümkün qədər az istifadə etməli, dəniz sahilini çirkləndirməməliyik. Özümüz kimi, dənizi də qorumalıyıq.

**Və sonda...**

Karantin rejimi tədricən yumşalır. Çimərliklər açıldı, bundan sonra karantinin yeni yumşalmaları ola bilər.

"Olacaq" yox, "ola bilər" - çünki hər şey bizdən asılıdır. Qaydalara nə qədər səlis və şərtsiz riayət etsək, gigiyena və sosial məsafə anlamlarını unutmasaq, koronavirusa yoluxma statistikası bir o qədər azalacaq, qadağalarla yasaqlar aradan qalxacaq.

Hər şey bizdən asılıdır - tək, havadan savayı...(milli.az)

*Elçin Alıoğlu*

# "Cırtdanlar" başlayır - "Qarabağ" gözləyir




***Sabah avrokuboklarda yeni mövsümə start veriləcək. 2020/21 mövsümü Çempionlar Liqasının ilkin mərhələsi ilə başlayacaq.***

Qitənin 4 ən aşağı reytinqli ölkəsinin çempionları I təsnifat mərhələsinə yeganə vəsiqə uğrunda mübarizə aparacaq. "Cırtdanlar" İsveçrənin Nyon şəhərindəki Kolovre İdman Mərkəzində münasibətlərini aydınlaşdıracaq.

Yarımfinal oyunlarında "Tre Fiori" (San Marino) ilə "Linfild" (Şimali İrlandiya), "Drita" (Kosovo) ilə "İnter" (Andorra) üz-üzə gələcək. Avqustun 11-də isə cütlərin qalibləri arasında final matçı baş tutacaq.

I təsnifat mərhələsinin avqustun 9-da keçiriləcək püşkatması zamanı ilkin mərhələnin qalibi səpələnməmişlər səbətində yer alacaq. Həmin vaxt artıq final cütlüyü bəlli olacaq.

Azərbaycan çempionu "Qarabağ" mübarizəyə I təsnifat mərhələsindən başlayacaq. Təmsilçimiz püşk zamanı səpələnmişlərdən olacaq. İlkin mərhələnin qalibi də Ağdam klubuna rəqib ola bilər.

**Yarımfinal**

**8 avqust**

17:00. "Tre Fiori" (San Marino) - "Linfild" (Şimali İrlandiya)

20:00. "Drita" (Kosovo) - "İnter" (Andorra)

**Final**

**11 avqust**

20:00. "Drita" (Kosovo) - "İnter" (Andorra) cütünün qalibi - "Tre Fiori" (San Marino) - "Linfild" (Şimali İrlandiya) cütünün qalibi

# Dünya futbolunun ən titulluları – SİYAHI

***Dünyanın ən titullu klublarının siyahısı açıqlanıb.***

Apasport.az saytının məlumatına görə, cədvələ qatıldığı mötəbər yarışlarda ən çox qalib adına yiyələnən 15 klub daxil edilib. Siyahıya Şotlandiya klubları başçılıq edir. 54 dəfə ölkə çempionu olan "Reyncers"in ümumilikdə 115 titulu var. Qlazqonun digər nəhəngi "Seltik"in uğurlarının sayı 110-a bərabərdir. Misir təmsilçisi "Əl-Əhli" də "100"ü arxada qoyub.



1. "Reyncers" (Şotlandiya) - 115
2. "Seltik" (Şotlandiya) - 110
3. "Əl-Əhli" (Misir) - 107
4. "Real" (İspaniya) - 90
5. "Barselona" (İspaniya) - 89
6. "Benfika" (Portuqaliya) - 83
7. "Əl-Faysal" (İordaniya) - 80
8. "Porto" (Portuqaliya) - 78
9. "Olimpiakos" (Yunanıstan) - 76
10. "Bavariya" (Almaniya) - 74
11. "Yuventus" (İtaliya) - 67
12. "Mançester Yunayted (İngiltərə) - 66

13-14. "Ayaks" (Niderland) - 64
"Anderlext" (Belçika) - 64

15. "Liverpul" - 63

# İspaniya 100-ü fəth etdi, Azərbaycan yerində qaldı – UEFA reytinqində

***Avropa Liqasının 1/8 final oyunları başa çatdıqdan sonra UEFA reytinqi açıqlanıb.***




Apasport.az saytının məlumatına görə, koronavirus pandemiyası ilə bağlı fasilədən sonrakı ikinci oyun günündə 4 ölkə aktivinə xal əlavə edib.

Bunlar İngiltərə, İsveçrə, İspaniya və Almaniyadır. Lakin bu xallar cədvəldə hər hansı yerdəyişmə üçün yetərli olmayıb. Siyahıya başçılıq edən İspaniya 100 xal səddini aşmağı bacarıb. Bu, "Sevilya"nın "Roma" üzərində qələbəsindən sonra reallaşıb.

Yunanıstan və Şotlandiya sonuncu təmsilçisini itiribsə, Almaniya, İtaliyanın mübarizəni davam etdirən komandaların sayı azalıb.

Qeyd edək ki, təmsilçiləri mübarizəni ötən il başa vuran Azərbaycan 26-cı pillədə qalıb. Ölkəmizin hesabında 18,750 xal var.

# Erotik videoları yayılan futbolçuya cəza

***İngiltərənin "Uotford" klubu futbolçusu Adalberto Penyaranda ilə yollarını ayıracaq.***

Apasport.az saytının məlumatına görə, buna venesuelalı hücumçunun davranışı səbəb olub.

Cənubi amerikalı seks şənliyində iştirak edib. Onun dostlarından biri tədbirdən erotik videolar paylaşıb. Adalberto yayılan bu görüntülərdə yarımçılpaq qadınların əhatəsində yer alıb. "Uotford" rəhbərliyi bu səbəbdən futbolçu ilə müqaviləyə xitam verəcək.

Qeyd edək ki, 2016-cı ildə "Udineze"dən "Uotford"a keçən Penyarandanın müqaviləsi 2023-cü ildə başa çatmalı idi.

# Azərbaycan koronavirus səbəbindən avrokuboklardan imtina etdi

***Azərbaycan voleybol üzrə avrokubokların 2020/21 mövsümündə təmsil olunmayacaq.***

Apasport.az saytının məlumatına görə, buna koronavirus pandemiyası səbəb olub. Ölkəmizi qitə miqyasında təmsil etməli olan yeganə klub - qadınlardan ibarət "Azərreyl" avrokuboklarda oynamayacaq. Çelenc kubokunda çıxış etməli olan Bakı klubu koronavirusla bağlı məhdudiyyətlər üzündən turnirə qatılmamağı məqsədəuyğun sayıb. Paytaxt təmsilçisi artıq bu barədə Avropa Voleybol Konfederasiyasına (CEV) da məlumat verib. Nəticədə ötən il olduğu kimi, yenə də beynəlxalq oyunlardan kənar qalacağıq.

Qeyd edək ki, avrokubokların püşkatması avqustun 21-də keçiriləcək.

# Türkiyə yığmasının müdafiəçisi üçün 40 milyon avro

***İspaniyanın "Barselona" klubu türkiyəli futbolçu transfer etməyə hazırlaşır.***

Apasport.az saytının məlumatına görə, La Liqa təmsilçisi İngiltərə "Lester"ində çıxış edən müdafiəçi Çağlar Söyüncünün keçidində maraqlıdır.

Kataloniya klubu 24 yaşlı futbolçu üçün 40 milyon avro ödəmək niyyətindədir. "Barselona" Türkiyə millisinin futbolçusu ilə bağlı "tülkülər"ə rəsmi təklif də göndərib. Klublar arasında razılıq əldə olunsa, Söyüncünün "Barselona" ilə 5 illik müqavilə imzalayacağı gözlənilir.

Qeyd edək ki, müdafiəçi 2019/20 mövsümündə "Lester"də ümumilikdə 42 oyun keçirib və 1 qol vurub.

# Rekord təkrarlandı – Premyer Liqada

***İngiltərənin "Vulverhempton" klubunun futbolçusu Raul Ximenes cari mövsümdə "qol+ötürmə" sistemi ilə topladığı xal sayını 37-yə çatdırıb.***

Apasport.az saytının məlumatına görə, meksikalı hücumçu Avropa Liqasının "Olimpiakos"la 1/8 final mərhələsinin cavab oyununda penaltidən dəqiq istifadə edib.

Bu, Ximenesin mövsümdə bütün turnirlərdə üst-üstə 27-ci qolu olub. Onun aktivində 10 məhsuldar ötürmə də var.

Şimali amerikalı bununla İngiltərə Premyer Liqası klublarının cari mövsüm üçün rekordunu təkrarlayıb. O, "Mançester Siti"nin ulduzu Kevin de Breyneyə çatıb.

# 1/8 finala yekun vuruldu - Avropa Liqasında

***Avropa Liqasında 1/8 final mərhələsi başa çatıb. Apasport.az saytının məlumatına görə, koronavirus pandemiyası ilə bağlı fasilədən sonrakı ikinci oyun günündə 4 matç keçirilib.***

İlk oyunu baş tutmadığından Almaniyadakı tək matçda münasibətlərini ayird edən "Sevilya" və "Roma"nın duelində ispaniyalılar sevinib. İki cavabsız qol vuran "Sevilya" 1/4 finala yüksəlib.

Digər üç cütdə cavab qarşılaşmaları keçirilib. "Bayer" Almaniyadakı final mərhələsinə vəsiqə qazanıb. Leverkuzen təmsilçisi "Reyncers"i ikinci dəfə məğlubiyyətə uğradıb.

Frankfurtda "Ayntraxt"ı darmadağın edən "Bazel" evdə möcüzəyə imkan verməyib. İsveçrəlilər cavab qarşılaşmasında da qələbə qazanıblar.

Beş ay əvvəlki ilk oyunda sülhlə ayrılan "Vulverhempton" və "Olimpiakos"un duelində meydan sahibləri sevinib. Penaltidən vurulan qol İngiltərə klubuna qələbə qazandırıb.

Qeyd edək ki, 1/8 final oyunları avqustun 5-də keçirilən 4 matçla bərpa olunub.

Avropa Liqası 1/8 final 6 avqust

Cavab oyunları 20:55. "Bayer" (Almaniya) - "Reyncers" (Şotlandiya) - 1:0 Qol: Diabi, 51 Baş hakim: Danni Makkelle (Niderland) Leverkuzen. "Bayer Arena) İlk oyun - 3:1

23:00. "Bazel" (İsveçrə) - "Ayntraxt" (Almaniya) - 1:0 Qol: Frey, 88 Baş hakim: Antonio Migel Mateu Lahoz (İspaniya) Bazel. "Sent Yakob Park" İlk oyun - 3:0

23:00. "Vulverhempton" (İngiltərə) - "Olimpiakos" (Yunanıstan) - 1:0 Qol: Ximenes, 8 (pen) Baş hakim: Şimon Marçinyak (Polşa) Vulverhempton. "Molinyo" stadionu İlk oyun - 1:1

Tək oyunlu cüt 20:55. "Sevilya" (İspaniya) - "Roma" (İtaliya) - 2:0 Qollar: Reqilon, 22, En Nesiri, 44 Baş hakim: Byorn Kuypers (Niderland) Duysburq. MSV Arena

Səhifəni hazırladı: Aygün İlqarqızı

# Xatirə fəxri adı olanlara səsləndi: "Xalqın yanında olun"

***"Sənət dostlarıma demək istəyirəm ki, mehriban olmalı, hər şeyə səbrlə yanaşmalıyıq. Bu sözləri mən deməli deyildim. Yaşda məndən böyük olan sənət adamlarından üzr istəyirəm. Bu günə kimi gözlədim. Heç biri çıxıb bir kəlmə demədi. Çıxıb biz gənclərə məsləhət verməlidilər".***



"Unikal" xəbər verir ki, bu sözləri müğənni Xatirə İslam Instaqramda canlı yayımda deyib. O, fəxri ada layiq görülən sənət adamlarına səslənib. Xatirə bildirib ki, xalq artistləri gənc ifaçılara məsləhətlər verib, paylaşımlarına nəzarət etməlidirlər: "Xalq, əməkdar artist, digər fəxri adlar alan bütün sənət adamları, yaşlı-başlı sözükeçən sənətkarlar çıxıb danışmalı idi. Başa düşürəm hamı üçün çətindir, mənim üçün də. Biz çıxıb emosional, yalan-doğru danışırıq. Amma sənətkarlarımızı görmürəm. Sizin sənətiniz ölkə başçısı tərəfindən dəyərləndirilib. Bizim böyüklərimiz, ağsaqqallarımızsınız. Siz nə vaxt bizə yol göstərəcəksiniz: filankəs səbr et, danışmaq olmaz, bunu paylaşdın sil... Bunları siz bizə deməlisiniz.

Fəxri adlara layiq görülmək yalnız səhnə fəaliyyətindən ibarət deyil. Fəxri ad alanlar dövlətə xidmət etməlidir. Xalqın artistisiniz xalqın yanında olun. Gənc ifaçılar düz olmayan paylaşım edir, narazıçılıq bildirilər. Haqlı, haqsız videolar yerləşdirirlər. Haqlı olanları qədər, yerli-yersiz söz deyənlər də az deyil. Mən özüm də hansısa yanlış paylaşım etmişəmsə, səbirsizlik edib tez danışmışamsa, karifeyimizin sözünü eşidərəm. Deyərəm, üzr istəyirəm, bir də belə demərəm.

Hamı sakit dayanab, gözləyir ki, toylar başalasın gedib oxuyaq. O da olacaq, ağsaqqallarımızın sözünü gənclər eşidərb. Əgər siz bu adlarla dəyərləndirilmisinizsə, bununla hallaşmaq lazımdır. Siz dəstək olmalısınız, imkan verməməlisiz sizdən kiçik olanlar danışsın".

Xatirə ona yazılan "Sənin var yeyirsən, başqasının yoxudur" sözlərinə belə cavab verib: "Mənim üçün də ağırdır, çətindir, xoş deyil evdə oturmaq. Müğənnilər, musiqiçilər toy istəyəndə ağzınıza gələni yazırsız. Biz musiqiçi olduğumuz üçün toy istəyirik da. Maşındüzəldən olsaydıq, avtomobil istəyərdik. Adi insanlar var ki, müğənnidən yüz dəfə yaxşı yaşayır. Bəzən anlayıram ki, biz sənət adamları hər şeyimizi açıb danışaraq səhv etmişik. Bunu etmək səmimilik yox, ağılsızlıqmış".

# "Aparıcı var 25 min manata toya gedir" - Cavid Gül



***Neçə vaxtdır kənardan seyr edirəm və analiz aparmağa çalışıram. Məsələ toyların açılıb-açılmaması deyil. Maraqlı insanların toylardan pul qazananlara neqativ reaksiyasıdır. Musiqiçi, oxuyan, aparıcı var 50 manata, eləsi var 25 000 manata toya gedir. Cibinə uyğun seçim et və çağır.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri aparıcı Cavid Gül sosial şəbəkədə yazıb. O, sənət adamlarının tənqid olunmasından bəhs edib: "Kiminsə məclisinə zorla girib oxuyan və ya idarə edən nə görmüşəm, nə eşitmişəm. İstəmirsən dəbdəbəli toy, get ASAN xidmətə bitsin. Niyə şou əhlini atəşə tuturlar, bahalığından şikayət edirlər? Yası da eləcə, istəsən dəbdəbəli yas et, istəsən basdır gəl evə. Bayaq bir nəfərin yazısın oxudum: deyir müğənni başqa iş tapsın. Deyək ki, müğənni tapdı: bəs fotoqraf, musiqiçi, süfrəbaşı, gəlinlik mağazaları, gözəllik salonları, orada çalışan ustalar? Yüz minlərlə insanın eyni anda iş tapması çox çətindir. Az-çox pulunu yığan xərcləyir. Pulu bitən isə danışır.

Yaxşı olardı bu barədə alimlər aranı daha da qızışdırmasın, şou əhli isə bir az səbr etsin. İnşallah, ölkəmizdə sabitlik olsun, insanlar sağlam qalsın bunu da ötürərik. Hamımıza çətindir, dünyada bu problem yaşanır".



# Nigar çimərlik geyimində obyektiv qarşısında

***Müğənni Nigar Camal sosial şəbəkədə yayımladığı çimərlik fotosu ilə gündəmə gəlib.***

Sənətçi qırmızı bodi ilə hovuz kənarında poz verib. Nigar paylaşımına "Yay - bu, günəşli xoşbəxtlik, gözəl əhval-ruhiyyə, depressiyanın sonu, gözəl günəş vannası və sonsuz xoşbəxtlik deməkdir" sözlərini qeyd edib.

Qeyd edək ki, Nigarın daha çox qırmızı çimərlik geyimlərinə üstünlük verməsi də diqqətdən qaçmayıb.

# "Kimdən nə eşidir inanır" - Afaqdan Röya haqda

***Aparıcı Afaq Gəncəli şou-biznes nümayəndələri haqda fikirlərini bölüşüb.***

Axşam.az xəbər verir ki, aparıcı ilk olaraq Murad Arifdən danışıb. O bildirib ki, Murad tez-tez depressiyaya düşür.

Xalq artisti Tünzalə Ağayevanın adını eşidən Afaq ona uzun saçların yaraşmadığını söyləyib.

Xalq artisti Röya Ayxana gəldikdə "Kimdən nə eşidir inanır. Birinci xəbəri eşidən kimi rekasiyasını verir. Heç bir araşdırmır" sözlərini deyib.